# İSTEHZA DEYİLƏN ZÜLM



HARUN YƏHYA
(ADNAN OKTAR)

Tarix boyu Allah'a və axirətə iman etməyən insanlara haqq dindən bəhs edilərkən, həmçinin səhv yol tutduqlarını və bu yoldan ayrılmadıqda sonsuz cəhənnəm həyatı ilə qarşılaşacaqları xəbər verilərkən onlar bunu qəbul etməmiş, guya özlərinin doğru yolda olduğunu isbat etmək üçün dinə və dini yaşayanlara lağ etməyə cürət etmişlər. Şübhəsiz, inkar edənlər çox yanlış düşünürlər. Onların bu şifahi, yaxud əməli səyləri heç bir şəkildə nəticə verməyəcək. Çünki Allah Quranda haqq dinin həmişə üstün olduğunu və inkar edənlərin cəhdinin boşa çıxacağını müjdələmişdir. Din əxlaqından uzaq insanlar bunu bilməlidirlər: möminlərə qarşı göstərdikləri bu davranışlarla və dinə qarşı böhtan dolu sözləri ilə -əgər bundan əl çəkməsələr- özlərini sonsuz əzaba sürükləyirlər.

Əlinizdəki kitabda bu həqiqətlərdən bəhs edilir, inkarçıların istehza edərkən tələyə düşdükləri bildirilir. Bundan başqa, bu kitabda istehza anlayışı fərqli yönləri ilə və Quran ayələri əsasında açıqlanmışdır.



**MÜƏLLİF HAQQINDA:** Harun Yəhya imzasından istifadə edən Adnan Oktar 1956-cı ildə Ankarada anadan olub. 1980-ci illərdən bəri imani, elmi və siyasi mövzularda bir çox əsər yazıb. Bununla yanaşı, müəllifin təkamülçülərin saxtakarlıqlarını, iddialarının əsassızlığını və darvinizmin qanlı ideologiyalarla qaranlıq əlaqələrini üzə çıxaran çox mühüm əsərləri var.

Müəllifin bütün əsərlərindəki ortaq məqsəd Quranın təbliğini dünyaya çatdırmaq, beləliklə, insanları Allah'ın varlığı, birliyi və axirət kimi əsas imani mövzular üzərində düşünməyə sövq etmək və inkarçı sistemlərin əsassız təməllərini və batil əməllərini nümayiş etdirməkdir. Belə ki, müəllifin bu günə qədər 73 müxtəlif dilə tərcümə edilən 300-dən çox əsəri dünya səviyyəsində geniş oxucu kütləsi tərəfindən oxunur. Harun Yəhya Külliyyatı, Allah'ın izni ilə XXI əsrdə dünyadakı insanları Quranda tərif edilən hüzur və sülhə, doğruluq və ədalətə, gözəllik və xoşbəxtliyə aparmağa səbəb olacaqdır.


بسم الله الرحمن الرحيم
الله
رسول
محمد





# İSTEHZA DEYİLƏN ZÜLM

Harun Yəhya (Adnan Oktar)



## YAZIÇI VƏ ƏSƏRLƏRİ HAQQINDA

Harun Yəhya təxəllüsündən istifadə edən yazıçı Adnan Oktar 1956-cı ildə Ankarada anadan olmuşdur. İbtidai və orta təhsilini Ankarada almışdır. Daha sonra İstanbul Memar Sinan Universitetinin İncəsənət fakültəsində və İstanbul Universitetinin Fəlsəfə bölməsində təhsil almışdır. 1980-ci illərdən bu yana imani, elmi və siyasi mövzularda bir çox əsər hazırlamışdır. Bununla yanaşı, yazıçının təkamülçülərin saxtakarlıqlarını, iddialarının əsassızlığını və darvinizmin qanlı ideologiyalarla olan qaranlıq əlaqələrini ortaya qoyan çox əhəmiyyətli əsərləri vardır.

Harun Yəhyanın əsərləri təxminən 30.000 şəklin olduğu cəmi 45.000 səhifəlik külliyyatdır və bu külliyyat 73 fərqli dilə tərcümə edilmişdir.

Yazıçının təxəllüsü inkarçı düşüncəyə qarşı mübarizə aparan iki peyğəmbərin xatirəsinə hörmət olaraq adlarını yad etmək üçün Harun və Yəhya adlarından götürülmüşdür. Yazıçı tərəfindən kitabların üz qabığında Rəsulullahın (s.ə.v) möhürünün olmasının simvolik mənası isə kitabların məzmunu ilə əlaqədardır. Bu möhür Qurani-kərimin Allah'ın son kitabı və son sözü, Peyğəmbərimizin (s.ə.v) xatəmül-ənbiya olduğunun rəmzidir. Yazıçı bütün yayımlarında Quranı və Rəsulullahın sünnəsini özünə rəhbər etmişdir. Bu surətlə, inkarçı düşüncə sistemlərinin bütün təməl iddialarını bir-bir ortadan qaldırmağı və dinə qarşı yönələn etirazları tam susduracaq son sözü söyləməyi əsas almışdır. Böyük hikmət və kamal sahibi olan Rəsulullahın möhüründən bu son sözü söyləmək niyyətinin duası olaraq istifadə edilmişdir.



Yazıçının bütün işlərindəki ortaq hədəf Quranın təbliğini dünyaya çatdırmaq, beləliklə, insanları Allah'ın varlığı, birliyi və axirət kimi təməl imani mövzular üzərində düşünməyə sövq etmək və inkarçı sistemlərin əsassız təməllərini və azğın tətbiqlərini gözlər önünə çəkməkdir.

Necə ki, Harun Yəhyanın əsərləri Hindistandan Amerikaya, İngiltərədən İndoneziyaya, Polşadan Bosniya-herseqovinaya, İspaniyadan Braziliyaya, Malayziyadan İtaliyaya, Fransadan Bolqarıstana və Rusiyaya qədər dünyanın əlavə bir çox ölkə-

sində sevilərək oxunur. İngilis, fransız, alman, italyan, ispan, portuqal, urdu, ərəb, alban, rus, boşnaq, uyğur, İndoneziya, Malay, benqal, serb, bolqar, Çin, Danimarka və İsveç dili kimi bir çox dilə tərcümə edilən əsərlər xaricdə geniş oxucu kütləsi tərəfindən izlənilir.

Dünyanın dörd tərəfində fövqəladə təqdir toplayan bu əsərlər bir çox insanın iman etməsinə, bir çoxunun da imanında dərinləşməsinə vəsilə olur. Kitabları oxuyub araşdıran hər kəs bu əsərlərdəki hikmətli, dolğun, asan aydın olan və səmimi üslubun, ağıllı və elmi yanaşmanın fərqində olar. Bu əsərlər sürətli təsir etmə, qəti nəticə vermə, etiraz və təkzib edilə bilinməyən xüsusiyyətləri daşıyır. Bu əsərləri oxuyan və üzərində ciddi şəkildə düşünən insanların artıq materialist fəlsəfəni, ateizmi və digər azğın görüş və fəlsəfələrin heç birini səmimi olaraq müdafiə etmələri mümkün deyil. Bundan sonra müdafiə etsələr də, ancaq romantik inadla müdafiə edəcəklər. Çünki fikri dayaqları aradan götürülmüşdür. Dövrümüzdəki bütün inkarçı cərəyanlar Harun Yəhya külliyyatı qarşısında fikirlə məğlub olmuşlar.

Şübhəsiz, bu xüsusiyyətlər Quranın hikmət və ifadə təsirliliyindən qaynaqlanır. Yazıçı bu əsərlərə görə öyünmür, yalnız Allah'ın hidayətinə vəsilə olmağa niyyət etmişdir. Bundan başqa, bu əsərlərin çap və nəşrində hər hansı bir maddi qazanc güdülmür.

Bu həqiqətlər göz önünə gətirildikdə insanların görmədiklərini görmələrini təmin edən, hidayətlərinə vəsilə olan bu əsərlərin oxunmasını təşviq etməyin də çox əhəmiyyətli xidmət olduğu ortaya çıxır.

Bu qiymətli əsərləri tanıtmağın yerinə insanların zehinlərini bulandıran, fikri qarışıqlıq meydana gətirən, şübhə və tərəddüdləri aparmaq və imanı qurtarmaq üçün güclü və iti təsiri olmadığı ümumi təcrübə ilə sabit olan kitabları yaymaq isə əmək və zaman itkisinə səbəb olar. İmanı qurtarmaq məqsədindən çox, yazıçının ədəbi gücünü vurğulamağa yönələn əsərlərdə bu təsirin əldə edilə bilməyəcəyi məlumdur. Bu mövzuda şübhəsi olanlar varsa, Harun Yəhyanın əsərlərinin tək məqsədinin dinsizliyi yox etmək və Quran əxlaqını yaymaq olduğunu, bu xidmətdəki təsir, müvəffəqiyyət və səmimiyyətin açıq şəkildə göründüyünü oxucuların ümumi qənaətindən anlaya bilərlər.

Bilmək lazımdır ki, dünyadakı zülm və qarışıqlıqların, müsəlmanların çəkdiyi əziyyətlərin təməl səbəbi dinsizliyin fikri hakimiyyətidir. Bunlardan xilas olmağın yolu isə dinsizliyin fikirlə məğlub edilməsi, iman həqiqətlərinin ortaya qoyulması və Quran əxlaqının insanların qavrayıb yaşaya biləcəkləri şəkildə izah edilməsidir. Dünyanın gündən-günə daha çox büründüyü zülm, fəsad və qarışıqlıq mühiti diqqətə alındığında bu xidmətin mümkün qədər sürətli və təsirli şəkildə edilməsinin lazım olduğu aydındır. Əks halda, çox gec ola bilər.

Bu əhəmiyyətli xidmətdə öndərliyi üzərinə götürən Harun Yəhya külliyyatı Allah'ın izni ilə 21-ci əsrdə dünya insanlarını Quranda təsvir edilən hüzur, sülh, düzgünlük, ədalət, gözəllik və xoşbəxtliyə daşımağa vəsilə olacaq.

# OXUCUYA

- Bu kitabda və digər işlərimizdə təkamül nəzəriyyəsinin süqutuna xüsusi yer ayrılmasının səbəbi bu nəzəriyyənin hər cür din əleyhdarı olan fəlsəfənin təməlini meydana gətirməsidir. Yaradılışı və dolayısilə Allah'ın varlığını inkar edən darvinizm 150 ildir ki, bir çox insanın imanını itirməsinə və ya şübhəyə düşməsinə səbəb olmuşdur. Buna görə də, bu nəzəriyyənin yalan olduğunu gözlər önünə gətirmək əhəmiyyətli imani bir vəzifədir. Bu əhəmiyyətli xidmətin bütün insanlığa çatdırılması isə zəruridir. Bəzi oxucularımız ola bilər ki, yalnız bir kitabımızı oxumaq imkanı tapa bilər. Bu səbəblə, hər kitabımızda bu mövzuya xülasə də olsa yer ayrılması uyğun hesab edilmişdir.
- Qeyd edilməsi lazım olan başqa bir xüsus da bu kitabların məzmunu ilə əlaqədardır. Yazıçının bütün kitablarında imani mövzular Quran ayələri yönündə izah edilir və insanlar Allah'ın ayələrini öyrənməyə və yaşamağa dəvət edilirlər. Allah'ın ayələri ilə əlaqədar bütün mövzular oxucuda heç bir şübhə və ya sual buraxmayacaq şəkildə açıqlanmışdır.
- Bu mövzuda istifadə edilən səmimi, sadə və səlis üslub isə kitabların hamı tərəfindən rahat başa düşülməsini təmin edir. Bu təsirli və sadə izah sayəsində kitablar "bir nəfəsə oxunan kitablar" ibarəsinə tam uyğun gəlir. Dini qəti şəkildə rədd edən insanlar belə bu kitablarda bildirilən həqiqətlərdən təsirlənir və yazılanların doğruluğunu inkar edə bilmirlər.
- Bu kitab və yazıçının digər əsərləri oxucular tərəfindən şəxsən oxuna biləcəyi kimi, qarşılıqlı söhbət şəraitində də oxuna bilər. Bu kitablardan istifadə etmək istəyən bir qrup oxucunun, kitabları bir yerdə oxumaları mövzu ilə əlaqədar öz təfəkkür və təcrübələrini də bir- birlərinə ötürmək baxımından faydalıdır.
- Bununla belə, yalnız Allah'ın razılığı üçün yazılan bu kitabların tanınmasında və oxunmasında iştirak etmək də böyük xidmətdir. Çünki yazıçının bütün kitablarında isbat və razı salıcı yön son dərəcə güclüdür. Bu səbəblə, dini izah etmək istəyənlər üçün ən təsirli üsul bu kitabların digər insanlar tərəfindən də oxunmasının təşviq edilməsidir.
- Kitabların arxasına yazıçının digər əsərlərinin təqdimatının əhəmiyyətli səbəbləri vardır. Bu sayədə kitabı nəzərdən keçirən şəxs yuxarıda yazılan xüsusiyyətləri daşıyan və oxumaqdan xoşlandığını ümid etdiyimiz bu kitabla eyni xüsusiyyətlərə sahib daha bir çox əsərin olduğunu görər, imani və siyasi mövzularda faydalana biləcəyi zəngin bir qaynağın mövcudluğuna şahid olacaq.
- Bu əsərlərdə digər bəzilərində görülən, yazıçının şəxsi qənaətlərinə və şübhəli qaynaqlara əsaslanan izahlara, müqəddəsata qarşı lazım olan ədəb və hörmətə diqqət yetirilməyən üslublara, şübhəli və həmçinin incidici yazılara rast gələ bilməzsiniz.

Bu kitabda istifadə edilən ayələr Ə. Musayevin tərcümə etdiyi Qurani- kərim kitabından götürülmüşdür.

www.harunyahya.org - **www.harunyahya.net -** www.harunyahya.az

# İÇİNDƏKİLƏR


YARADILIŞ HƏQİQƏTİ....................................................8

GİRİŞ....................................................................................31

LAĞ ETMƏYİN QAYNAĞI QÜRURDUR......................35

CAHİL CƏMİYYƏTDƏ MƏSXƏRƏÇİLİK .....................38

İNKARÇILAR DINƏ DƏ LAĞ EDIRLƏR.......................46

İNKAR EDƏNLƏR ƏBƏS YERƏ
MÖMİNLƏRƏ İSTEHZA EDİRLƏR ............................ 55

İNKAR EDƏNLƏR İLK ÖNCƏ
PEYĞƏMBƏRLƏRİ HƏDƏF ALIRLAR.........................60

İNKAR EDƏNLƏRİN İSTEHZALARINA
SƏBİR ETMƏK MÖMİNLƏR ÜÇÜN ŞƏRƏFDİR...........72

ALLAH İNKAR EDƏNLƏRİ DÜNYADA ALÇALDIR ....75

İNKAR EDƏNLƏRİN QƏFLƏTDƏ
OLDUQLARI BÖYÜK HƏQİQƏT..................................81

MADDƏNİN ARDINDAKI SİRR....................................84

MƏSXƏRƏÇİ İNSANLARINAXİRƏTDƏ
GÖRƏCƏKLƏRİ QARŞILIQ ........................................101

NƏTİCƏ..............................................................107

ƏLAVƏ BÖLMƏ: TƏKAMÜL YALANI ......................109



# YARADILIŞ HƏQİQƏTİ

Heç vaxt pozulmadan və ya aşınmadan qanadlarını saniyədə 15-80 dəfə çırpa bilən bir quşun sahib olduğu bu fövqəladə sistemin kor təsadüflərin əsəri olduğunu düşünənlər çox yanılırlar. Bir insan qolunu saniyədə bir-iki dəfədən çox qaldırıb endirə bilmədiyi halda, 10-12 sm böyüklüyündə, ən çox bir neçə qram ağırlığında olan bir canlının belə mükəmməl hərəkət qabiliyyətinin olması, heç şübhəsiz, uca olan Allah'ın əsəridir.

*www.ALLAHvar.com*



**Uçma qabiliyyətini, görmə itiliyini, çox yüksək sürətdə uçarkən heç zərər görmədən enmə və dayanma qabiliyyətini qartallara qazandıran nədir? Uçma anlayışını bilməyən hüceyrələr bir yerə gəlib qanad meydana gətirməyi necə qərar vermişlər? Öz varlıqlarının da şüurunda olmayan hüceyrələrin belə bir üstün ağıl və plan tələb edən işi öz başlarına etmədikləri açıq şəkildə görünür. Canlıları yoxdan var edən, onlara möcüzəvi qabiliyyətlər bəxş edən Rəbbimiz olan Allah'dır.**

***www.darwinvekuslar.com***



**Dirildən də, Öldürən də Odur. O, bir şeyin olmasını istədikdə ona ancaq: "Ol", – deyir, o da olur.**
**(Ğafir surəsi, 68)**

*www.imanhakikatleri.com*



**İnsanın tək bir DNT molekulunda bir milyon ensiklopediya səhifəsini, yəni təxminən 1000 kitabı dolduracaq miqdarda məlumat var. Bunun mənası odur ki, hər insanın gözlə görünməyən hüceyrəsində, ondan çox kiçik olan nüvədəki bir molekulda təxminən 1000 cildlik dünyada bənzəri olmayan nəhəng ensiklopediya vardır.**



**Bədəninizdəki 100 trilyon hüceyrədən hər biri bir milyon səhifəni əzbərdən bilərkən, görəsən, siz ağıllı və şüurlu bir insan olaraq həyatınız boyunca neçə ensiklopediya səhifəsi əzbərləyə bilərsiniz? Necə ki, hər əsərin və ya hər məlumatın bir yazıçısı və sahibi varsa, DNT-dəki məlumatın da bir sahibi və yaradıcısı var. O yaradıcı üstün və güclü, sonsuz elm və ağıl sahibi olan, aləmlərin Rəbbi Allah'dır.**



**Bu səhifədəki rəngləri qəbul etməyiniz və bu rənglərin sizdə duyğu və düşüncələr meydana gətirməsi, bir- biri ilə asılı bir çox fərqli mexanizmin eyni anda uyğunluq içində işləməsi ilə mümkündür. Bu quşun başındakı parlaq mavi rəngi, boyundakı qaralığı, qanadlarındakı rəng ahəngini görməyiniz, yüzlərlə kompleks əməliyyatın eyni anda reallaşmasının nəticəsidir. Bu mexanizmlərin uyğunlaşması və qüsursuz quruluşu Allah'ın bir lütfüdür.**

***www.cehennemcennet.com***



**Arı səhləb çiçəyi çoxalmaq üçün dişi arıların görünüşünü təqlid edir. Erkək arı çiçəyi mayalamağa çalışarkən üzərinə tökülən tozcuqları bir başqa çiçəyə daşıyaraq çiçəklərin çoxalmasını təmin edir. Beyni, gözü və ağlı olmayan bir bitkinin dişi arıların necə göründüyünü bilməsi, bu görünüşü təqlid etməsi, əlbəttə ki, özünün qazandığı xüsusiyyət deyil. Arı səhləb çiçəklərini sahib olduqları xüsusiyyətlərlə nöqsansız yaradan Allah'dır.**

***www.kurandacanlilar.com***



**Darvinistlər yer üzündəki bütün canlıların xüsusiyyətlərini, "ana təbiət" adını verdikləri xəyali güc tərəfindən əldə etdiklərini iddia edərkən, əslində, ilahlaşdırdıqları "ana təbiət"in daş, torpaq, çəmənlik, ağac, çiçəklərdən meydana gəldiyini və ağıl və şüurdan məhrum olduğunu düşünmürlər. Şüursuzluğun şüur tələb edən mexanizmlər çıxara bilməyəcəyini ağıllarına belə gətirmirlər. Aydındır ki, canlı və cansız bütün varlıqlar, sahib olduqları qüsursuz nizamlarla, üstün bir ağılın və sənətin, yəni uca olan Allah'ın əsəridir.**

*www.bitkidunyasi.net*



**Bütün meyvə və tərəvəzlər, qupquru qara torpaqdan hansı mineralları almağın gərəkdiyini bilir. Ehtiyacları olandan nə çox, nə də az mineral alırlar. Önünüzə bir miqdar torpaq içində mis, dəmir, sink və bənzər minerallar qoyulsa, bunları necə ayırd edəcəyinizi, hansından nə qədər almağın lazım olduğunu heç bir texniki kömək almadan bilərdinizmi? Əlbəttə ki, xeyr. Yeməkləri ən faydalı mineral və vitaminlərlə təchiz edən, ən gözəl şəkildə qablaşdırılmış olaraq insanlara lütf edən uca olan Allah'dır.**

*www.Allahinsonsuzgucu.com*



**At nalı xərçəngləri *Chelicerata* alt sinfinə aid olub, hörümçək və əqrəb sinfinə daha yaxındırlar. Şəkildə görünən 150 milyon il yaşındakı at nalı xərçəngi qalığı yaradılışın açıq gerçək olduğunu, təkamülün isə heç bir zaman yaşanmadığını bir daha təsdiq edir.**

***www.darwinizminsonu.com***

***İndiki dövrdə yaşayan at nalı xərçəngi və altda da 150 milyon illik Almaniyada tapılmış at nalı xərçəng qalığı.***





**Mürəkkəb balıqlarının tarix boyunca həmişə mürəkkəb balığı olaraq var olduqlarının isbatı olan şəkildəki 95 milyon illik qalıq təkamülçülərin iddialarına meydan oxuyur. Mürəkkəb balıqlarının təkamül keçirdiyinə dair ən kiçik bir dəlil belə tapa bilməyən təkamülçülər qalıq qeydləri qarşısında böyük pərişanlıq içindədirlər.**

***www.gercegibilmek.com***



*Ən üstdə Livanda tapılmış 95 milyon illik mürəkkəb balığı qalığı görünür. Altda da indiki dövrdə yaşayan mürəkkəb balığı..*

**54- 37 milyon illik bu sumax bitkisi ilə günümüzdəki sumax bitkiləri arasında heç bir fərq yoxdur. Milyonlarla il boyunca sumaxlar təkamül keçirməmişdir.**

***www.hayatinkokeni.com***



***54 - 37 milyon illik sumax yarpağı qalığı***

***Bu günkü sumax bitkisinin yarpaqları***



**Ən altdakı şəkildə kəhrəba içində qalıqlaşmış iki iynəsiz arı qalığı görünür. Aşağıda da dövrümüzdə yaşayan iynəsiz bir arı var. Bu canlıların bu günkü nümunələri ilə milyonlarla il əvvəl yaşayan nümunələri bir- birindən fərqsizdir.**

***www.evrimacmazi.com***

*Dövr: Kaynozoy erası, Oliqosen dövrü*
*Yaş: 25 milyon il*
*Bölgə: Dominikan Respublikası*



*25 milyon illik iynəsiz arı*



**Quru bitkiləri qalıq qeydlərində lazımı qədər qalıqlara malikdir, amma bu qalıqların heç biri bir növdən digərinə ara keçid forması xüsusiyyəti göstərmir. Hamısı öz içlərində orijinal olaraq yaradılmış ayrı növlərdir və bir- birləri arasında iddia edildiyi kimi, hər hansı bir təkamülə dair əlaqə yoxdur.**

*www.darwinistyenilgininacisi.com*



*Bu günkü çinar ağacı yarpaqları*



*50 milyon illik çinar yarpağı qalığı*

**Hörümçəklər yüz milyon ildir dəyişmədən varlıqlarını davam etdirən canlılardan biridir. Burada görülən kəhrəba içindəki hörümçəyin və torunun 25 milyon il yaşı var. Dövrümüzdə yaşayan nümunələrindən heç bir fərqi olmayan bu canlı sanki: "Biz təkamül keçirmədik, yaradıldıq" deyir.**

*www.netcevap.org*



*Ənbər içində 25 milyon illik hörümçək və hörümçək toru qalığı*



**Ən qədim tısbağalara, Almaniyadakı Trias dövrü qalıq yataqlarında rast gəlinir. Bu gün yaşayan nümunələrinə çox bənzəyən sərt qabıqları sayəsində asanlıqla digər növlərdən ayırd edilirlər. Daha erkən və ya daha primitiv tısbağalara aid heç bir izə rast gəlinməyib. Halbuki, tısbağalar çox asanlıqla qalıqlaşır və qalıqlarının çox kiçik parçaları da tapılanda asanlıqla tanınırlar.** ***(Robert Carroll, Vertebrate Paleontology and Evolution, s. 207)***

***www.surungenfosilleri.com***

***37-23 milyon illik tısbağa qalığı***





**Bütün qalıqlar canlıların var olduqları gündən etibarən eyni xüsusiyyətlərə sahib olduqlarını, zaman içində dəyişikliyə məruz qalıb təkamül keçirmədiklərini göstərir. Bu qalıqlardan biri də ağac qabığı bitlərinin milyon ildir eyni olduğunu göstərən 25 milyon illik aşağıdakı kəhrəbadır.**

***www.evrimbelgeseli.com***

***Dövr: Kaynozoy erası zaman, Oliqosen dövrü***
***Yaş: 25 milyon il***
***Bölgə: Dominikan Respublikası***



***25 milyon illik ağac qabığı biti qalığı (sağda)***

***Altda isə müasir dövrdə yaşayan ağac qabığı biti.***



**Skatların çoxu dəniz dibində yaşayır. Qəlsəmələri altda, gözləri üstdədir. Quyruq üzgəcləri və kürək üzgəcləri çox kiçikdir, hətta bəzi növlərdə yoxdur. Bundan 100 milyon il əvvəl yaşayan skat balıqlarının sahib olduqları bütün xüsusiyyətlərə günümüzdəki skat balıqları da malikdir. Bunun mənası isə skatların 100 milyon il keçməsinə baxmayaraq, heç dəyişmədikləri, yəni təkamül keçirmədikləridir.**

***www.balikfosilleri.com***





***100 milyon illik skat qalığının ən altda görünən müasir dövrdə yaşayan skatlardan heç bir fərqi yoxdur.***

**25 milyon il yaşındakı qabıq böcəkləri günümüzdəkilərlə eynidir. Milyon ildir eyni olan bu böcəklər canlıların təkamül keçirmədiklərini, yaradıldıqlarını göstərən nümunələrdən biridir.**

***www.evrimmasali.com***

*Milyon il əvvəl yaşayan qabıq böcəklərinin bu günkü nümunələrindən heç bir fərqi yoxdur. (yanda)*



*25 milyon illik qabıq böcəyi qalığı (solda)*

**Qalıq qeydləri bütün ağcaqanad növlərinin bir anda ortaya çıxdıqlarını və milyon ildir dəyişmədən varlıqlarını davam etdirdiklərini ortaya qoymuşdur. Bu da ağcaqanadların digər bütün canlılar kimi təkamül keçirmədiyini isbat edən vəziyyətdir. Bir çox elm adamı da bu həqiqəti ifadə edərək təkamül nəzəriyyəsi ilə böcəklərin mənşəyini açıqlaya bilmədiklərini qeyd edirlər. Aşağıdakı qalıqda 50 milyon illik qırmızı ağac yarpağı qalığı ilə birlikdə mart ağcaqanadının qalığı görünür.**

*www.burmaamberleri.com*



*50 milyon illik qırmızı ağac yarpağı qalığı*



*Müasir dövrdə yaşayan qırmızı ağac yarpağı*

**Ciyərli balıqlar suların azaldığı dövrlərdə, özlərini palçığa basdıraraq həyatlarını davam etdirə bilirlər. Məlum olan ən qədim ciyərli balıq qalığı Devon dövrünə (417 - 354 milyon il) aiddir. Şəkildə görünən qalıq da eyni dövrə aiddir. Bundan 350 milyon il əvvəl yaşayan ciyərli balıqların dövrümüzdə yaşayanlardan heç bir fərqi yoxdur. Yüz milyonlarla ildir dəyişməyən ciyərli balıqlar canlıların təkamül keçirmədiklərinin, yaradıldıqlarının isbatlarından biridir.**

*www.darwininacmaziruh.com*



*350 milyon illik ciyərli balıq qalığı*
-



*Günümüz denizlerinde yaşayan ciğerli balık*

# İSTEHZA DEYİLƏN ZÜLM

# GİRİŞ

Din əxlaqından uzaq cəmiyyətlərdə insanların çatışmazlıqlarını araşdırmaq, qüsurlarını ortaya çıxarmağa çalışmaq çox geniş yayılmış davranış formasıdır. İnsanların bu yola yönəlmələrinin arxasında duran gizli səbəb isə dünyaya meyilli olmaları və üstün olma arzularıdır. Bu insanlar qarşı tərəfin səhvlərini ortaya çıxarmağı özlərinə üstünlük gətirəcəyinə inanırlar. Bunun üçün tez-tez əl atdıqları üsullardan biri də lağ etməkdir. İnsanların qüsurları, acizlikləri və ya səhvlərinə lağ etdiklərində öz qüsurlarının örtüləcəyini düşünürlər. Buna görə, cahil cəmiyyətdə lağ etmək tez-tez rast gəlinən əxlaqi pozuntudur. Quran əxlaqına sahib olmayan bu insanlar müntəzəm olaraq bir tərəfdən başqalarına lağ etməyə mövzu axtarır, digər tərəfdən də eyni şeyin özünə qarşı ediləcəyindən narahat olurlar. Buna görə də belə lazımsız hərəkətlərlə bir-birlərinə sanki əzab yaşadırlar.

Bura qədər cahiliyyənin məsxərəçi xüsusiyyətinin yalnız bir tərəfindən bəhs etdik. Əslində, bu insanlar doğru olduğunu qəbul etmək istəmədikləri bir fikirlə qarşılaşdıqlarında bu üsula əl atırlar.

Belə ki, inkar edənlərin dinə qarşı hərəkətlərində də bu təsir açıq şəkildə görünür. İnsanların bir qismi tarix boyunca Allah’ın elçiləri və kitabları vasitəsi ilə onları dəvət etdiyi doğru yola tabe olmaq istəməmişlər. Bir çoxu şeytanın yolunu izləmiş, Allah’ın dinini və

hesab gününü inkar etmişlər. Şübhəsiz, bu ağılsız rəftarın təməlində təkəbbür hissi yatır. İnkar edənlərin bu vəziyyəti Quranda belə bildirilmişdir:

**Sizin tanrınız tək olan İlahdır. Axirətə inanmayanların qəlbi (haqqı) inkar edir. Özləri də təkəbbürlüdürlər. (Nəhl surəsi, 22)**

Allah'a və axirətə iman etməyən bu insanlara haqq dindən bəhs edilərkən, həmçinin səhv yol tutduqlarını və bu yoldan ayrılmadıqda sonsuz cəhənnəm həyatı ilə qarşılaşacaqları xəbər verilərkən onlar bunu qəbul etməmiş, guya özlərinin doğru yolda olduğunu isbat etmək üçün dinə və dini yaşayanlara lağ etməyə cürət etmişlər. Bu çirkin yolla Quran əxlaqını ortadan qaldıra biləcəklərini zənn etmişlər.

Şübhəsiz, inkar edənlər çox yanlış düşünürlər. Onların bu şifahi, yaxud əməli səyləri heç bir şəkildə nəticə verməyəcək. Çünki Allah Quranda haqq dinin həmişə üstün olduğunu və inkar edənlərin cəhdinin boşa çıxacağını belə müjdələmişdir:

**Amma (bilin ki,) kafirlərin hiyləsi boşa çıxar. (Mömin surəsi, 25)**

**Onlar ağızları ilə Allah'ın nurunu söndürmək istəyirlər. Allah isə (buna) yol verməz, kafirlərin xoşuna gəlməsə də, O, Öz nurunu tamamlayar. Müşriklərin xoşuna gəlməsə də, İslamı bütün dinlərdən üstün etmək üçün Öz Elçisini doğru yol göstərən rəhbərlə və haqq din ilə göndərən Odur. (Tövbə surəsi, 32-33)**

Keçmişdə olduğu kimi, bu gün və gələcəkdə də inkar etdikləri və ya anlamaq qabiliyyətinə sahib olmadıqları üçün həqiqətlərə qarşı məsxərəçi rəftar göstərənlər olacaq. Amma onların aqibəti buna son vermədikləri təqdirdə, Allah'ın ayələrdə bildirdiyi kimi, çox pis olacaq:

**Əlbəttə, səndən əvvəlki elçilərə də istehza edilmişdi. Amma istehza edənləri məsxərəyə qoyduqları şey bürüdü. (Ənam surəsi, 10)**

**Onlara haqq gəldikdə onu yalan saydılar. İstehza etdikləri şeyin xəbəri onlara tezliklə çatacaqdır. Məgər onlar özlərindən əvvəl neçə-neçə nəsilləri məhv etdiyimizi görmədilərmi? Biz onlara yer üzündə sizə vermədiyimiz imkanları vermişdik. Onların üzərinə bol-bol yağış yağdırmış və (evlərinin) altından çaylar axıtmışdıq. Biz onları günahlarına görə həlak etdik və onlardan sonra başqa nəsillər yaratdıq. (Ənam surəsi, 5-6)**

Bundan başqa, bu insanlar bunu bilməlidirlər: möminlərə qarşı göstərdikləri bu davranışlarla və dinə qarşı böhtan dolu sözləri ilə özlərini sonsuz əzaba sürükləyirlər. Bununla yanaşı, böhtanları və kinayəli sözləri bunlara məruz qalan insanların axirətdəki dərəcələrini yüksəldir. Bu, Quranda xəbər verilən əhəmiyyətli bir sirdir:

**Dünya həyatı kafirlər üçün gözəlləşdirildi. Onlar iman gətirənləri məsxərəyə qoyurdular. Halbuki, müttəqilər qiyamət günü onlardan üstün olacaqlar. Allah istədiyi kəsə hesabsız ruzi verər. (Bəqərə surəsi, 212)**

Quranda bildirildiyi kimi, inkarçı xüsusiyyətə malik insanlar tarix boyunca hər dövrdə eyni əxlaqsız rəftarı göstərmişlər. Hətta eyni sözləri söyləmiş, eyni nümunələri vermiş, eyni davranış nümayiş etdirmişlər. Lağ etmək də bu davranışlardan biridir. Quran əxlaqını yaşamayan insanların göstərdiyi bu ortaq rəftar Allah'ın dəyişməz qanunudur. Bu səbəbdən, belə davranışlarla qarşılaşan mömin Quranda haqqında danışılan bir həqiqəti yaşamaq üçün şövqlənir. Bunun mömin olmanın göstəricisi olduğunu bildiyi üçün qarşılaşdığı vəziyyətə görə böyük şərəf hissi keçirər. Bu davranışlara səbir etdiyi

üçün axirətdə alacağı qarşılığı bilmək isə şövqünü daha da artırar. Göründüyü kimi, din əxlaqını rədd edən və ya buna müxalif çıxan insanların inananlara zərər verməsi imkansızdır. Bu həqiqəti düşündükdə möminlərə lağ edilməsinin onlar üçün böyük şərəf olduğu daha yaxşı aydın olar. Allah Quranda **"Siz hökmən malınız və canınızla sınaqdan keçiriləcəksiniz. Sizdən əvvəl kitab verilənlərdən və müşriklərdən bir çox əziyyət verici sözlər eşidəcəksiniz. Əgər səbir edib qorxsanız, bu, əzmkarlıq (tələb edən) əməllərdəndir" (Ali-İmran surəsi, 186)** şəklində xəbər vermiş və axirətdə möminləri ələ salanları alçaldacağını buyurmuşdur:

> **De: "Sizə əməlləri baxımından ən çox ziyana uğrayanlar barəsində xəbər verimmi? O kəslər haqqında ki, onların dünya həyatındakı səyləri boşa çıxmışdır. Çünki onlar özlüyündə yaxşı işlər gördükləri gümanında idilər. Onlar Rəbbinin ayələrini və Onunla qarşılaşacaqlarını inkar edən, buna görə də bütün əməlləri boşa çıxan kimsələrdir. Odur ki, qiyamət günü Biz onlara əhəmiyyət verməyəcəyik". Kafir olduqlarının, ayələrimi və elçilərimi lağlağıya qoyduqlarının əvəzi cəhənnəmdir. İman gətirib xeyirxah əməllər işləyənlərin məskəni isə Firdovs bağları olacaqdır. Onlar orada əbədi qalacaq, oranı dəyişmək istəməyəcəklər. (Kəhf surəsi, 103-108)**

Əlinizdəki kitabda bu həqiqətlər izah edilir, inkar edənlərin lağ etmək istəyərkən düşdükləri tələ açıqlanır. Bundan başqa, istehza anlayışı fərqli yönlərdə nəzərdən keçirilmiş və Quran ayələrinə görə açıqlanmışdır.

# Lağ etməyin qaynağı qürurdur

Bir insanın özünü digər insanlardan üstün görməsinə, üstün tutmasına qürur deyilir. Qürurlu insanlar digər insanlara onların aşağı təbəqədən olduqlarını hiss etdirərlər. Lakin qüruru təkcə insanlara qarşı edilən rəftar pozuntusu olaraq düşünmək doğru olmaz. Çünki qürurlu insanlar, eyni zamanda, Allah'ın dinini yaşamaq, doğru yola dəvət edildikdə buna razı olmaq mövzusunda da təkəbbürlənirlər.

İnsan vicdanı ilə hərəkət etmədikcə, nəfsinin təlqinlərinə aldandıqca və Allah'ın Quranda təsvir etdiyi əxlaqı yaşamadıqca nəfsinin bu tələsinə düşəcəkdir. Çünki Quranda bildirildiyi kimi, **Allah'ın rəhm etdiyi kəs istisna olmaqla, nəfs insana pis işlər görməyi təlqin edir (Yusif surəsi, 53).** Şeytanın təlqinlərinə aldanan və özlərini üstün görən insanlar artıq tamamilə nəfslərinin idarəsində olurlar. Buna görə də qürur və ya təkəbbürə yönəlirlər.

Qürur şeytanın ən diqqəti cəlb edən xüsusiyyətlərindən biridir. Quranda bildirildiyi kimi, Allah mələklərə hz. Adəmə (ə.s) səcdə etməyi əmr etdikdə iblisdən başqa hamısı səcdə etmiş, iblis isə səcdə etməmişdir. Şübhəsiz, bunun səbəbi özünü hz. Adəmdən (ə.s) üstün görməsi və buna görə də təkəbbürlənməsidir. Quranda şeytanın bu vəziyyəti belə izah edilir:

**Bir zaman Biz mələklərə: "Adəmə səcdə edin!"– dedikdə, İblisdən başqa (hamısı) səcdə etdi. O, imtina edib təkəbbür göstərdi və kafir oldu. (Bəqərə surəsi, 34)**

**Sizi xəlq etdik, sonra sizə surət verdik, sonra da mələklərə: "Adəmə səcdə edin!"– dedik. İblisdən başqa (hamısı) səcdə etdi. O, səcdə edənlərdən olmadı. (Allah) dedi: "Mən sənə əmr etdikdə sənə səcdə etməyə nə mane oldu?" (İblis) dedi: "Mən ondan daha üstünəm. Çünki Sən məni oddan, onu isə palçıqdan yaratmısan!" (Allah) dedi: "Buradan aşağı en! Burada təkəbbürlük göstərmək sənə yaramaz. Çıx get, çünki sən alçaldılmışlardansan". (Əraf surəsi, 11-13)**

Ancaq nə şeytanın, nə də onun saxta çağırışlarına uyanların hər hansı bir üstünlüyü vardır. Əksinə, onların Allah'ın hər şeyin üstündə güc sahibi olduğu həqiqətini inkar edərək etdikləri ağılsızlıq onları alçaldır. Allah Quranda özlərinə görə böyüklük iddiasında olanlar üçün **"ürəklərində böyüklük iddiasından başqa bir şey yoxdur"** (Mömin surəsi, 56) şəklində xəbər vermişdir**.** Bu ayədən də aydın olur ki, inkar edənlər nə qədər arzu etsələr də, istədikləri böyüklüyə çata bilməzlər. Çünki böyüklük yalnız Allah'a aiddir və Allah ancaq Özünə itaət edən qullarını ucaldar. Azğın inkarçıları isə həm dünyada, həm də axirətdə alçaldar. Yuxarıdakı ayənin ardından gələn ayələrdə də Allah inkar edənlərin necə kor və anlayışsız olduqlarını belə bildirmişdir:

**Həqiqətən, göylərin və yerin yaradılması insanların yaradılmasından daha böyük şeydir. Lakin insanların çoxu bilmir. Korla görən, iman gətirib yaxşı işlər görənlərlə pislik edənlər eyni deyildir. Necə də az düşünüb daşınırsınız! O saat mütləq gələcəkdir, bunda heç bir şübhə yoxdur. Lakin insanların əksəriyyəti inanmır. (Mömin surəsi, 57-59)**

Yuxarıdakı ayələrdə də xəbər verildiyi kimi, insanların çoxu Allah'ın gücünü və böyüklüyünü qavraya bilmədikləri üçün özlərinə

lütf olaraq verilən xüsusiyyətlərə görə qürurlanır və təkəbbürlənmə həvəsinə düşürlər. Bu insanların qürurunu büruzə verən hərəkətlərdən biri də insanlara lağ etməkdir. Daha əvvəl də ifadə etdiyimiz kimi, onları aşağı gördüklərini hiss etdirərək özlərini ucaldacaqlarını zənn edirlər. Bu səbəbdən də din əxlaqından uzaq olan cahilliyə cəmiyyətlərində istehza etmək çox məşhur bir davranışdır.

Məsxərəçi insanlar hər kəsin əskik yönlərini görür, gözəl yönlərini isə dərk etmirlər. Bu tip şəxslərin hər birinin özlərinə görə qürurlandıqları bəzi xüsusiyyətləri var. Məsələn, bəzisi müvəffəqiyyətindən, bəzisi gözəlliyindən, bəzisi də zənginliyindən qürurlanır. Buna görə də bu cəhətdən əskiyi olan insanlarla qarşılaşdıqlarında onların həmin çatışmazlığına lağ edirlər. Özlərinə bu xüsusiyyətləri verənin Allah olduğunu və dilədiyi hər an geri ala biləcəyini düşünmədən belə bir azğın münasibət göstərirlər.

Cahiliyyə cəmiyyətlərində rişxənd etmək həyatın ayrılmaz bir parçası halını almışdır. Uşaqlar, gənclər həmişə bu mədəniyyət və əxlaqla birlikdə böyüyürlər. Sonrakı səhifələrdə din əxlaqından uzaq insanların öz aralarında yaşadığı məsxərəçi nümunələrindən də danışacaq və bu hərəkətlə özlərinə necə sıxıntı verdiklərinə şahid olacağıq.

# CAHİLİYYƏ CƏMİYYƏTİNDƏ MƏSXƏRƏÇİLİK

İman etməyən insanlar Allah'ın seçib bəyəndiyi din əxlaqını yaşamadıqları üçün Qurandan tamamilə uzaq xarakter daşıyırlar. Bu səbəbdən, gündəlik həyatda istehzalı münasibət çox yayılmışdır.

Bu əxlaqi pozuntunun səbəbi qürurlu olmaları və gözəl əxlaqı yaşamamalarıdır. Bu təkəbbür bir çox şəkildə özünü büruzə verir. Çevrələrində ən üstün insan olmaq istədikləri üçün başqalarının gözəl xüsusiyyətlərini gördüklərində onlara lağ edərlər. Bu yolla qarşılarındakı insanı alçaltmağı, onu insanların gözündə hörmətdən salmağı və onun əhvalını pozmağı düşünərlər. Bu insanı digərlərinin bəyənməsini və təqdirini qazanmasını istəməzlər. Allah'ın Quranda öyrətdiyi gerçək sevgini, şəfqəti, mərhəməti yaşamadıqları üçün lağ edərək bir-birlərini üzməkdən çəkinməzlər.

Gündəlik həyatları belə nümunələrlə doludur. Öz aralarında yoldaşlarının və ya başqa insanların nöqsanlarından, fiziki qüsurlarından və yanlış yönlərindən bəhs edib lağ edərlər. Ayağı büdrəyənə, boğazında bir şey qalana, dili dolaşıb sözü səhv deyənə rişxəndlə gülər və o insanı hörmətdən salan sözlər danışarlar. Hətta başqa günlərdə də hər fürsətdə bunu ona xatırladıb utandırmağa çalışarlar. İstehzaya məruz qalan insanlar da də eyni əxlaqı yaşayarlar. Sonrakı günlərdə özləri də eyni vəziyyətə düşən birini gördüklərində onlar da o şəxs-

lərə lağ edərlər. Yəni bütün bu insanların arasında sanki səssiz cahiliyyə razılaşması vardır. Buna görə, onlara lağ edilən zaman onlar da özünə gülənlərdən daha çox gülüb vəziyyəti örtməyə çalışarlar. Xoşlarına gəlməsə də, bunu hiss etdirmək istəməzlər. Çünki özünə lağ edildiyinin anlaşılması onlara görə alçaldılmaq deməkdir.

Bundan başqa, bəzi şəxslər yolda gedərkən fiziki nöqsanı olan birini gördükdə onu işarə edib gülməyə və lağ etməyə çalışarlar. Qüsuru olan insanın bunu görə biləcəyini və utanacağını bildikləri halda, çirkin rəftardan çəkinməzlər. Başqalarının paltarına, saç forması, danışıq tərzi, şivəsi, üslubu, peşə və hətta həyat tərzinə belə lağ etməyə əyləncə kimi baxarlar. Bunu da daha əvvəl ifadə etdiyimiz kimi, yalnız qüruru naminə başqalarının təqdir edilməsinin qarşısını almaq və digər insanları hörmətdən salmaq məqsədi ilə edərlər.

## GÜNDƏLİK HƏYATDA CAHİLİYYƏ ZÜLMÜ: MƏSXƏRƏÇİLİK

Cahiliyyə cəmiyyətlərində istehza əxlaqı gənclər arasında orta məktəb və lisey vaxtlarından başlayır. Məsələn, məktəbə başqa şəhərdən daha varlı və ya daha gözəl bir şagird gəlir. Digər şagirdlərin böyük hissəsi onu cahil insanlara məxsus əxlaqla qısqanar, ancaq bunu gizlətmək üçün ona müxtəlif yollarla lağ edərlər. Davamlı onun çatışmayan cəhətlərini tapmağa çalışar, hətta gözəl xüsusiyyətini də nöqsan kimi göstərərlər. Görkəmi gözəl olsa da, söz atıb öz aralarında ona xoş gəlməyən adlar qoyarlar. Beləcə, ona istehza edib hamıya bu yolla təsir etməyə çalışarlar.

Eyni şəkildə, sinifdə daha çalışqan biri olduqda yenə bunu qəbul etməzlər. Hörmətdən salmaq üçün ona ləqəb qoyub lağ edərlər.

Sinifdə başqalarına lağ etmək üçün hər fürsətdən istifadə edərlər. Xüsusilə maddi mövzuları əlverişli hesab edərlər. Ötən ildən qalan paltarı və ya ayaqqabını geyinən birini alçaltmaq və dalınca danış-

maq tez-tez edilən bir hərəkətdir. Şagirdlərin yaşadıqları ev və evlərindəki əşyalar da istehza obyektidir. Atalarının peşəsi, analarının işlədiyi yer, fərqli ada sahib olmaları və ya adının tanınmış biri ilə eyni olması kimi bir çox mövzu lağ ediləcək şeylər ola bilər. Bəzi şagirdlər xüsusilə müəllimlərinə lağ edərlər. Müəllim təcrübəsiz olarsa, üslub və ya təcrübəsiz hərəkətlərinə lağ edərlər. Müəllim yaşlı olarsa, bəzi hərəkətləri ləng edirsə və ya gözləri yaxşı görmürsə, buna da lağ edərlər. Müəllimlərin paltarları da lağ mövzusu olur. Məsələn, müəllim tez-tez eyni paltarı geyinərsə, paltarı ütüsüz olarsa, bunu bir-birlərinə deyib lağ edərlər.

Bu vəziyyət iş yerlərində də mövcuddur. Oradakı məsxərəçilik isə bəzilərinin sahib olduğu mövqeyə görə dəyişir. İnsanlarda, ümumiyyətlə, mövqe baxımından ardıcıl şəkildə özlərindən aşağı olan şəxslərə qarşı ələsalma müşahidə edilir. Bunu edənlər bu şəkildə təkəbbürlənməyə çalışırlar. Yuxarı vəzifədə çalışanlara qarşı qürurlana bilmədiyinə görə, daha aşağı vəzifədə olanları əzməyə çalışar, onlara lağ edərlər. Məsələn, əksər şirkətlərdə müdirlər katibələrinə istehza edir, onların gördüyü işlərə lağ edirlər. Buradakı istehza orta məktəbdən fərqlidir. Verilən reaksiyalarda, alçaldıcı rəftarlarda, istehzalı baxışlarda bu vəziyyəti görmək mümkündür. Qarşısındakının üzünə baxmadan danışmaq, cavab verməmək, eşitmirmiş kimi davranmaq, qarşı tərəfin ilk dəfə qarşılaşdığı vəziyyətə və ya etdiyi yanlışlıqlara gülmək, ətrafa kinayəli baxışlarla baxmaq bunlardan sayıla bilər.

İstehza etməyin fərqli bir forması da iş yerində bir-biri ilə yarışan insanlar arasında müşahidə edilir. Məsələn, rəqabət aparan iki katibə bir-birinin qüsurlarını bütün iş yerinə eşitdirməyə çalışar, bir-birinin paltarına, yerişinə və ya hər hansı bir çatışmazlığına lağ edib başqalarının gözündə hörmətdən salmaq istəyərlər. Əgər bu ikisindən biri daha fağır olarsa, digəri onu əzmək məqsədilə ona qarşı alçaldıcı baxışlarla və kinayəli sözlərlə əziyyət verməyə çalışar. Ümumiyyətlə, təvazökar və mülayim insanlar işdə həmişə əzilən tərəf olurlar. Quran

əxlaqından uzaq olduqları üçün belə insanlara təzyiq edir, ancaq özlərindən üstün gördükləri insanlara qarşı eyni hərəkətləri edə bilmirlər. Hətta onlara qarşı həmişə xoş görünməyə çalışarlar.

Cahiliyyə cəmiyyətinin gündəlik həyatına da məsxərəçilik hakimdir. Quran əxlaqının yaşanmadığı belə mühitlərdə məsxərəçilik cəmiyyətin hər sahəsində geniş şəkildə yayılmışdır. Xüsusilə kasıblara çox lağ edərlər. Onların paltarları, danışıq üslubları, rəng seçimləri, həyat tərzləri həmişə istehza mövzusu olur. Məktəblərdə, iş yerlərində, zənginlərlə kasıbların yan-yana gəldiyi mühitlərdə bu, tez-tez rast gəlinən haldır. Amma bununla yanaşı, kasıblar da varlı olanlara lağ edir. Hər iki qisim insanlar cahiliyyə əxlaqını yaşadıqları üçün bu əxlaqın çirkinliyini qəbul etmək istəmirlər. Üstəlik, onları bu çirkin hərəkətlərdən uzaq tutan bir sərhəd də yoxdur. Allah qorxusuna sahib olmadıqları üçün lağ etdiklərinin qarşılığını axirətdə görəcəklərini görməzlikdən gəlirlər. Hesab gününü düşünmədən yaşayırlar.

Bu din əxlaqından uzaq həyatda azğınlıqda artıq sərhəd tanımazlar. Zəngin birisinin paltarını qısqanıb ona müxtəlif çirkin adlar qoyurlar. Məsələn, ona kloun deyib lağ edərlər. Əslində, bunu qısqandıqları üçün edərlər. Bu əxlaqı yaşayanlar özlərində olmayan hər şeyi qısqanar və bunlara sahib olan insanlara lağ etməklə onlardan intiqam aldıqlarını düşünərlər.

Quran əxlaqını yaşamayan insanlar başqalarının kiçik fiziki nöqsanlarına da lağ edərlər. Məsələn, birisinin əl-ayağına, yaxud adi saçına belə istehza edərlər. Boyu qısa və ya uzun olan, yaxud gözləri xəstə olub çəp baxan bir insana ləqəb qoyub tez-tez bunu üzünə vurar, kök və ya arıq olmasına da lağ edərlər. Qulağı ağır eşidən insanlara da müxtəlif formalarda lağ edərlər. Qadınlar xüsusilə öz aralarında yoldaşlarının saç formasına və rənginə lağ edərlər. Qısası, cahiliyyə əxlaqını yaşayan bu insanlar arasında hər şey istehza möv-

zusu ola bilər. Gündəlik həyatda bu cür nümunələr çoxdur. Bir-biri ilə qarşılaşan kimi istehza da başlayır. Məsələn, gözəl geyinən birisinə: “Hara belə? Toya gedirsən?”- deyə soruşur, ona “şit” geyindiyini deyib əhvalını pozar. Yaxud da biri: “Necəsən?“ - deyərək halını soruşanda o biri: “Sənə çox maraqlıdır?”- deyə istehza ilə cavab verər. Eyni münasibət özlərinə qarşı olanda da çox pis olur, amma yenə də bu davranışlardan imtina etməyi düşünmürlər. Çünki onlar bu rəftarı artıq təbii həyat forması kimi qəbul etmişlər. Yığıncaq və söhbətlərdə də tez-tez belə davranışlara rast gəlmək olar. Davamlı olaraq yoldaşlarının, yaxınlarının arxasınca kinayəli zarafatlar edərlər.

Ad günü, yaxud əhəmiyyətli günlərdə verilən hədiyyələri bəyənməz və başqa dostları ilə ona lağ edərlər. Hədiyyənin ucuz və bunu gətirənin zövqsüz olduğunu deyərlər.

Cahil insanların istehzası həmişə açıq şəkildə olmaya da bilər. Aralarında tətbiq etdikləri pis əxlaq xüsusiyyətlərindən biri də söz atmaqla və ya kinayəli baxmaqla lağ etməkdir. Xüsusilə özlərindən mövqe və ya səlahiyyət baxımından üstün birinə birbaşa lağ edə bilməyəcəklərinə görə, bunu öz aralarında göz işarəsi ilə edərlər. Gizlində lağ etməklə özlərinin ondan üstün olduqlarını, onu alçaltdıqlarını düşünərlər. Məsələn, bir şirkətdə rəhbər işçilərdən biri səhv edərsə, məsələn, danışarkən dili dolaşarsa, ordakılar bu insana açıq şəkildə lağ etməzlər və bu üsuldan istifadə edərlər. Qarşıdan baxan diqqətli biri bunu, əlbəttə, dərhal görə bilər, lakin açıq şəkildə etmədikləri üçün bunu isbat etmək o qədər də mümkün olmaz.

Din əxlaqından uzaq cəmiyyətlərdə bütün bu xoşagəlməz davranışlar səbəbindən insanlar çox narahat bir mühitdə yaşamaq məcburiyyətində qalırlar. Hər kəs başqasına lağ edəcək bir xüsusiyyət tapır, amma özünə qarşı lağ edilməsini istəməz. Buna baxmayaraq, içində olduqları mühiti dəyişdirmək üçün səy göstərməzlər. Çünki lağ et-

məyin pis davranış olduğunu, Allah'ın əmr etdiyi əxlaqa uyğun olmadığını dilə gətirsələr, özləri də başqalarına lağ edə bilməyəcəklər. Bu isə nəfslərinin qəti şəkildə istəmədiyi bir vəziyyətdir. Belə ki, qarşılaşdıqları bu məsxərəçi hərəkətləri sanki həyatın tələbi kimi qəbul edərlər. Buna görə də başqalarını bu pis davranışlardan çəkindirməzlər. Allah Quranda, **"Onlar bir-birlərini etdikləri pis əməllərdən çəkindirmirdilər. Onların etdikləri necə də pisdir!"** **(Maidə surəsi, 79)** ayəsi ilə bu cür insanların yanlış mövqelərini xəbər vermişdir.

Nəticə etibarilə, Quran əxlaqının yaşanmadığı bir yerdə, hər növ istehzalı rəftar, alçaldıcı sözlər, narahat edici baxışlar və kinayəli gülüşlərə rast gəlmək olur. Bunun nəticəsində meydana gələn sıxıntılı və narahat edici mühitdən xilas olmanın tək yolu isə Quranın əmr etdiyi gözəl əxlaqı mənimsəmək, onu yaşamaq və yaşatmaqdır.

## Quranda məsxərəçilik qadağan edilir

**Ey iman gətirənlər! Bir camaat digərini məsxərəyə qoymasın. Ola bilər ki, bunlar onlardan daha yaxşı olsunlar. Qadınlar da qadınları (lağa qoymasınlar). Ola bilər ki, bunlar onlardan daha yaxşı olsunlar. Bir-birinizə tənə vurmayın və bir-birinizi pis ləqəblərlə çağırmayın. İman gətirdikdən sonra fəsadçı adlanmaq necə də pisdir. Məhz tövbə etməyənlər zalımlardır. (Hucurat surəsi, 11)**

Allah yuxarıdakı ayə ilə insanlara məsxərəni qadağan etmişdir. Ayədə qadağan edilən mövzuların hər birinin cahil cəmiyyətdə yaşanan əxlaqsızlıqlar olduğunu əvvəlki hissələrdə izah etmişdik. Ancaq burada istehza mövzusunu Qurana uyğun, daha ətraflı olaraq izah etməkdə fayda vardır.

Ayədə insanların bir-birinə lağ etməsinə, özlərini üstün görməsinə, digər insanları kiçik hesab etməsinə diqqət çəkilir və bunların

hamısı dinsizliyin nəticəsidir. Halbuki, Allah qatında üstünlük ölçüsü Allah qorxusu və təqvadır. Maddi güc, fiziki xüsusiyyətlər, inkişaf etmiş texnologiya və ya hər hansı başqa bir dünyəvi meyar insanları bir-birindən üstün etmir. İnsanların fərqli xüsusiyyətlərə sahib olması, qadın və ya kişi olması, müxtəlif irqlərə mənsub olması, ağ və ya qara dərili olması üstünlük əlaməti deyil.

**Ey insanlar! Biz sizi kişi və qadından yaratdıq. Sonra bir-birinizi tanıyasınız deyə, sizi xalqlara və qəbilələrə ayırdıq. Şübhəsiz ki, Allah yanında ən hörmətli olanınız Ondan ən çox qorxanınızdır. Həqiqətən, Allah biləndir, xəbərdardır. (Hucurat surəsi, 13)**

Allah "Hucurat" surəsinin 11-ci ayəsində qadınların da bir-birinə lağ etməsini qadağan etmişdir. Xüsusilə qadınların bir-birlərinə qarşı istehzalı və atmacalı sözlərdən istifadə etməsinə cahiliyyə cəmiyyətində tez-tez rast gəlinir. Hətta bu davranışlar elə adət halını alıb ki, iki qadın arasındakı bu dialoqlar çox məqbul qarşılanır. Bir qadın başqa bir qadının fiziki qüsurlarını mümkün olduqca çox dilə gətirir. Hətta qüsuru olmasa belə, hər hansı bir xüsusiyyətini qüsur kimi göstərməyə çalışır. Halbuki, Quranda bu cür davranışlar çirkin əxlaq adlandırılır. Allah bir başqa ayədə insanların qeybət etməsinin, başqasının gizli yönlərini araşdırmasının çirkinliyini belə bir örnəklə xəbər vermişdir:

**Ey iman gətirənlər! Zənnə çox qapılmayın. Çünki zənn edilənlərin bir qismi günahdır. Bir-birinizi güdməyin, bir-birinizin qeybətini qırmayın. Sizdən biriniz ölmüş qardaşının ətini yemək istəyərmi? Siz ki, bundan iyrənirsiniz. Allah'dan qorxun! Həqiqətən, Allah tövbələri qəbul edəndir, Rəhmlidir. (Hucurat surəsi, 12)**

Allah bir başqa ayədə söz və ya baxışlarla edilən istehzanın üzərində dayanır.

**Hər bir qeybət edənin, tənə vuranın vay halına! (Huməzə surəsi, 1)**

Şübhəsiz, bu ayədəki qəti ifadədən belə bir davranışdan çəkinməyin lazım olduğu aydın olur. İnsanların istər baxış və mimikalarla, istərsə də sözlərlə etdiyi istehzalı hərəkətlər, əlbəttə, qarşılıqsız qalmayacaq. Allah Quran əxlaqını yaşamayan, hesab gününü düşünmədən hərəkət edən bu şəxsləri yuxarıdakı ayəsi ilə xəbərdar edir.

Bunu da ifadə etmək lazımdır ki, lağ etmək yalnız cahiliyyə insanına xas bir əxlaqi pozuntudur. Möminlər belə çirkin davranışa qətiyyən yol verməzlər. Möminlər gözəllik, zəka, zənginlik, qabiliyyət kimi hər cür xüsusiyyəti insanlara Allah'ın verdiyini bilirlər. Bir-birlərində gördükləri gözəl xüsusiyyətləri də böyük məmnuniyyətlə qarşılayarlar. Nəfslərinə deyil, Allah'ın razılığına tabe olduqları üçün cahil cəmiyyətdə yaşayan insanların yaşadıqları qürur, həsəd kimi duyğuları yaşamazlar. Buna görə, bir-birlərinə qarşı həmişə xoş, müsbət fikirli və təvazökardırlar. Eyni şəkildə, başqalarında gördükləri nöqsanları da Allah'ın imtahan olaraq yaratdığını bilirlər. Buna görə, bu nöqsanları ortaya çıxarmaz, əksinə, bunları düzəltməyə çalışarlar. İstehzaya bənzəyən ən kiçik hərəkətdən, baxışdan və sözdən çox çəkinərlər. Möminlərin istehzaya münasibətini aşağıdakı ayədə xəbər verilən hz. Musanın (ə.s) sözləri açıq şəkildə əks etdirir:

**Bir zaman Musa öz xalqına dedi: "Allah sizə bir inək kəsmənizi əmr edir!" Onlar: "Sən bizi ələ salırsan?"– dedilər. (Musa): "Cahil olmaqdan Allah'a sığınıram!"– dedi. (Bəqərə surəsi, 67)**

Göründüyü kimi, möminlər buna bənzər hərəkətlərdən Allah'a sığınarlar. Belə bir davranışın cahil hərəkət olduğunu bilərlər. Bunun Allah'ın xoşuna gəlməyən davranış olduğunu bilmələri lağ etməkdən çəkinmələri üçün ən böyük səbəbdir.

# İNKARÇILAR DİNƏ DƏ LAĞ EDİRLƏR

İnsanların yer üzündə var olma məqsədi Allah'a qulluq etmək, Allah'ın bəyəndiyi əxlaqı yaşamaq, Quranla özlərinə göstərdiyi doğru yola tabe olmaqdır. Allah Quranda "**Mən cinləri və insanları ancaq Mənə ibadət etmək üçün yaratdım" (Zariyat surəsi, 56)** şəklində bildirmişdir. Ancaq əvvəlki hissələrdə də qeyd etdiyimiz kimi, insanların bir çoxunda təkəbbür hissi olduğuna görə, Allah'a təslim olmaz və ibadət etməkdən çəkinərlər. Lakin bu insanlar, əslində, Allah'ın onlardan nə istədiyini çox yaxşı bilirlər. Allah Quranda özlərinə bildirilən doğruları vicdani olaraq anlayan, amma qürurlarından dolayı haqq olanı yerinə yetirməyən insanlardan belə bəhs edir:

> **Möcüzələrimiz onlara aşkar şəkildə göstərildikdə: "Bu, açıq-aydın bir sehrdir!"– dedilər. Buna qəti inandıqları halda, haqsızlıqla və təşəxxüslə onları inkar etdilər. Gör, fəsad törədənlərin aqibəti necə oldu! (Nəml surəsi, 13-14)**

Vicdanları rahat olmadığı üçün Allah'ın və haqq dinin varlığını bilmək, eşitmək və görmək bu insanlarda böyük narahatlıq meydana gətirir. Onlar Allah'ın adının xatırlanmasını, insanların dinə etibar etməsini istəməzlər və hər kəsin özləri kimi olmasını istərlər. Çünki ancaq o zaman rahat olacaqlarını zənn edərlər. Əks halda isə Allah'ın

varlığına və ya din əxlaqına aid hər şey onlara öz əxlaqi pozuntularını və pis rəftarlarını xatırladacaq.

Bundan başqa, Allah'ın sonsuz qüdrət və güc sahibi olması, canlı və cansız bütün varlıqların Allah'a boyun əyməsi daxilən əsla çata bilməyəcəkləri böyüklük hissi bəsləyən bu insanlara çox ağır gəlir. Çünki bunları gördükdə özlərinin Allah'a qarşı nə qədər aciz olduqlarına şahid olurlar. Bu səbəblə, Allah'ın xatırladılmasına, Onun böyüklüyünün təqdir edilməsinə dözə bilmirlər. Onlar bu açıq-aşkar həqiqəti heç bir əsasları olmadan rədd etməklə, yaradılış dəlillərini inkar etməklə və ya açıq şəkildə Allah'ın gücünün göstəricisi olan bu möcüzələri görməzlikdən gəlməklə rahat olacaqlarını zənn edərlər. Məhz belə yanlış düşünənlərin vicdanın səsindən xilas olmaq üçün əl atdıqları yollardan biri də dinə lağ etməkdir. Bu insanların yaradılış dəlilləri qarşısındakı mövqeləri bir ayədə belə izah edilir:

**Sən onlara təəccüb edirsən, onlar isə (səni) ələ salırlar. Onlara xatırlatdıqda düşünüb ibrət almırlar. Bir möcüzə gördükdə isə ona istehza edirlər. (Saffat surəsi, 12-14)**

Ayədə xəbər verildiyi kimi, bu insanlar qarşılarındakı möcüzəvi həqiqətlərə istehza edərlər. Bu, elə böyük bir ağılsızlıqdır ki, çox açıq olan dəlillər də bu insanların iman etmələrinə səbəb olmur. Onlar Allah'ı və Quranı inkar edərək üstünlük əldə edəcəklərini, ətrafdakı insanların gözündə böyüyəcəklərini düşünürlər. Halbuki, həmin insanlar da Allah'a möhtac olan, axirətdə hesaba çəkiləcək aciz varlıqlardır. Onların gözündə böyüyüb-böyüməmələri heç bir şey ifadə etməz. Üstəlik, qürurlanmalarına səbəb olan şeylər də yenə Allah'ın özlərinə verdiyi xüsusiyyətlərdir. Sahib olduqları hər şeyi Allah'a borcludurlar. Lakin bunun qarşılığında onlar şükür etmək əvəzinə lağ etməyi üstün tutarlar.

Bu hissədə inkar edənlərin Allah'ın dininə olan yanaşmalarını Quranda bizə bildirilən nümunələrlə açıqlayacaq və bu insanların is-

tehzalı yanaşmaları ilə, əslində, özlərini nə qədər sıxıntıya saldıqlarını və axirətdə qarşılaşacaqları sonu xatırladacağıq.

## Allah'ın ayələrini qavraya bilməmələri

**Bir surə nazil edildiyi zaman onlardan (istehza ilə): "Bu, hansınızın imanını artırdı?"– deyənlər də var. İman gətirənlərə gəldikdə isə, (o surə) onların imanını artırır və onlar bir-birlərini müjdələyirlər. (Tövbə surəsi, 124)**

Yuxarıdakı ayədə xəbər verildiyi kimi, Allah'ın ayələrini ancaq səmimi qəlblə iman edənlər qavraya bilər, ayələrdəki hikməti ancaq onlar görə bilərlər. İnkar edənlər isə Allah'ın ayələrini qavramaqdan acizdirlər. Hətta: "Bu hansınızın imanını artırdı?" - deyə soruşaraq guya lağ etmək istəyirlər. Ancaq iman edənlər üçün müjdə olan Allah'ın bu nemətindən də məhrum olmuş olurlar. İnkar edənlərin bu ağılsızlığına və ayələrə olan yanlış yanaşmalarına bir başqa Quran ayəsində belə diqqət çəkilmişdir:

**Həqiqətən, Allah ağcaqanadı və ondan da üstün olanı məsəl çəkməkdən utanmaz. İman gətirənlər bilirlər ki, bu, onların Rəbbindən (gələn) haqdır. Küfr edənlər isə deyirlər: "Bu məsəllə Allah nə (demək) istədi?" Halbuki, O, bununla bir çoxlarını azdırır və bir çoxlarını da haqq yoluna yönəldir. Lakin O, bununla yalnız fasiqləri yoldan çıxarır. (Bəqərə surəsi, 26)**

Yuxarıdakı ayədə xəbər verildiyi kimi, Allah'ın bir ayəsində ağcaqanaddan bəhs etməsinin hikmətini inkar edənlər anlamamışlar. Sahib olduqları zəif dərrakəyə görə: "Allah bu örnəklə nə demək istəyir?" - deyərək, guya istehza edirlər. Ancaq bu gün elm dünyası insanların kiçik hesab etdiyi canlıların bir çox möcüzəvi xüsusiyyətlərə sahib olduqlarını ortaya çıxarmışdır. (daha ətraflı məlumat üçün

baxın: Harun Yəhya, Ağcaqanad möcüzəsi). Allah bu canlıdakı heyrətamiz xüsusiyyətləri bundan 1400 il əvvəl xəbər vermiş və o dövrün inkarçıları bu məlumatlardan məhrum olduqları üçün sərf etdikləri istehzalı sözlərlə gülünc vəziyyətə düşmüşlər.

İnkar edənlərin Allah'a və Onun dininə qarşı qürurlu olmaları, xüsusilə də Allah'ın ayələri özlərinə oxunduqda və özlərinə ayələrlə nəsihət verildikdə ortaya çıxır. Allah'ın göndərdiyi elçilər və saleh müsəlmanlar qövmlərinə yaşadıqları batil sistemin yanlışlığını təbliğ edirlər. Tək doğru yolun Allah'ın endirdiyi din olduğunu izah edərkən onlara Allah'ın ayələrindən oxuyur və ayələrin hikmətlərini açıqlayırlar. Ayələrdəki məna o qədər mükəmməldir ki, inkar edənlər bu sözlərdəki fövqəladə yönü görür, lakin bu üstünlüyü sezmələrinə baxmayaraq, qürurları səbəbi ilə izah edilən gerçəkləri inkar edir və çağırışı rədd edirlər. Hələ bu azmış kimi, azğınlıq səbəbi ilə Allah'ın ayələrini istehza mövzusu edirlər. Quranda onların bu qürurlu rəftarları və istehzalı yanaşmaları belə izah edilir:

**O, Allah'ın ona oxunan ayələrini eşidir və sonra sanki onları eşitməmiş kimi təkəbbür göstərərək inadkarlıq edir. Beləsini ağrılı-acılı bir əzabla müjdələ. O, ayələrimizdən bir şey öyrəndiyi zaman ona lağ edir. Məhz belələri üçün alçaldıcı bir əzab vardır. (Casiyə surəsi, 8-9)**

Allah inkar edənlərin bu cür məsxərəsini bir çox ayəsi ilə xəbər vermiş və möminlərə belə şeylərlə qarşılaşdıqda nə edəcəklərini belə bildirmişdir:

**Ayələrimizi lağlağıya qoyanları gördüyün zaman onlar başqa söhbətə keçənə qədər onlardan üz çevir. Əgər şeytan (bunu) sənə unutdursa, xatırladıqdan sonra zalım camaatla birgə oturma. (Ənam surəsi, 68)**

**İbadətlərə istehzalı münasibətləri**

Allah'ın əmr etdiyi ibadətlərə, bu ibadətlərin hikmətinə və xüsusilə də namaz və oruca lağ etmək inkar edənlər arasında çox məşhurdur. Allah bir ayəsində inkar edənlərin ağılsız davranışlarını belə xəbər vermişdir:

**Siz namaza çağırdığınız zaman onlar onu məsxərəyə qoyub oyun-oyuncaq sayarlar. Bu, ona görədir ki, onlar düşüncəsiz bir camaatdır. (Maidə surəsi, 58)**

İnkar edənlərin ibadətlər mövzusundakı istehzalarına gündəlik həyatda da çox rast gəlmək mümkündür. Məsələn, belə bir insana beş vaxt namaz qılmasının və oruc tutmasının gərəkdiyini xatırlatdıqda buna istehza edər. Danışıq üslubuna, seçdiyi sözlərə, mimika və hərəkətlərinə, üz ifadəsinə tamamilə istehza hakim olar.

Bu məsxərəçi hərəkətlərinin əsl səbəbi digər insanların şüur altı olaraq dinə və dini dəyərlərə qarşı hörmətini azaltmaq istəmələridir. Beləliklə, möminlərin təbliğinə də guya mane olmaq istərlər. Xüsusilə din əxlaqını yaşayan gənc insan gördükdə istehzalı üslubları daha da diqqətə çarpar. Onu görüncə daha çox günahkarlıq hiss etdikləri üçün bu günahkarlıq duyğusunu ona lağ etməklə örtməyə çalışar, bu şəkildə, onu doğru yoldan çəkindirməyə cəhd edərlər.

"Cavanlığını keçir, gələcəkdə dini ibadətlərini yerinə yetirərsən", "bu yaşda dünyadan əlini üzmüsən" kimi eyhamlı və istehzalı sözlərlə qarşılarındakı insana lağ edərlər. "Orucunu poz, günahı mənim boynuma" ya da "namaz qılmağına nə ehtiyac var, hələ cavansan, qocalanda qılarsan" kimi axmaq sözlərlə onu doğru yoldan çıxartmağa çalışarlar. Halbuki, insan axirətdə ibadətlərini yerinə yetirib-yetirmədiyinə görə sorğu-sual olunacaq. Məsələn, beş vaxt namaz dəqiqliklə, tam vaxtında, şövq və huşu ilə yerinə yetirilməsi gərəkən ibadətdir. Peyğəmbərimiz (s.ə.v) də bir çox hədisində beş vaxt namazın əhəmiyyətinə diqqət çəkmişdir. Əbu Hüreyrədən (r.a) rəvayət

edilən bir hədisdə Rəsulullah (s.ə.v) belə buyurur:

*"Beş vaxt namaz böyük günahlardan çəkindikdə gələcək həftənin cüməsinə və gələcək ramazana qədər səhvlər üçün kəffarədir". (Müslim), (Riyazüs-salehin, İmam Nəvəvi, çevirən: Mehmet Əmrə, Bədir nəşriyyat, s. 698)*

Din əxlaqının tələbi olan ibadətlərə lağ etməyə çalışanlar hər nə etsələr də, möminlərə zərər verməsi, onları hörmətdən salmaları mümkün deyil. Çünki möminlər inkar edənlərin Quranda yazılan bu rəftarları ilə qarşılaşdıqlarında daha da şövqlənər və ibadətlərinə daha həyəcanla davam edərlər.

İnkar edənlər lağ etməklə guya möminlərə zərər vermək istəyər, ancaq bu səylərində uğursuz olarlar, hətta bilmədən onların axirətdəki dərəcələrini yüksəltmiş olarlar. Yəni başqa sözlə, möminlərə xidmət etdiklərini demək olar. Ancaq bunu bilmədiklərinə görə, yuxarıdakı ayədə də diqqət çəkildiyi kimi, anlamaz olduqlarını yenidən büruzə verirlər.

### Yenidən dirilməyi inkar etmələri

İnkar edənlərin lağ etdiyi digər bir mövzu isə yenidən dirilməkdir. Ölümdən sonra insanların yenidən diriləcəyi həqiqətini israrla və ağılsızlıqla rədd edərlər. Çünki bunu qəbul etsələr, din əxlaqı ilə yaşamağın lazım olduğunu görəcəklər. Bundan başqa, insanlar ölümdən sonra dünyada etdiklərinə görə hesab verəcək və o gün yalnız dünyada Allah'ın Quranda əmr etdiyi kimi yaşayanlar nicat tapacaqlar. Hesab gününün ardından, əlbəttə ki, Allah'ın sonsuz ədaləti təcəlli edəcək, günahkarlar cəzalandırılacaq, gözəl rəftar göstərən, Allah'a itaətli olanlar isə mükafatlandırılacaq. Bu, açıq həqiqətdir. Din günü inkar edənlərin yanıldıqları ortaya çıxacaq. Ancaq onlar dünyada etdiklərindən məsul olduqlarını qəbul etmək istəməyərək Allah'ı və hesab gününü unudurlar. Bunun nəticəsində, əvvəlcə, ölü-

mün çox yaxın olduğunu ağıllarından çıxarmağa çalışarlar. Hətta bu mövzuda istehzalı söhbət və zarafatlar edərək mövzunun ciddi olmadığına özlərini inandırmaq istərlər. Ətrafdakı insanlara ölümün uzaq olduğunu, bunu düşünməyin isə lazım olmadığını işarə verərlər. Ancaq nə qədər unutmaq istəsələr də, ölüm qəti həqiqətdir. Ayədə belə buyurulur:

**De: "Qaçdığınız ölüm sizi mütləq haqlayacaqdır. Sonra siz qeybi və aşkarı Bilənin hüzuruna qaytarılacaqsınız. O da sizə nə etdiklərinizi xəbər verəcəkdir". (Cümə surəsi, 8)**

Buna görə, yenidən dirilib hesab verəcəkləri həqiqətini rədd edərlər. Şübhəsiz, onların hesab gününü rədd etmələri onları o günlə qarşılaşmaqdan uzaqlaşdırmaz, ancaq yenə də bu mövzunu anlamazlıqdan gəlib xilas ola biləcəklərini zənn edərlər. Hətta daha da irəli gedərək bu mövzuya lağ da edərlər. Bu şəkildə, yenidən dirilməyə inanmadıqlarını və bu mövzunu ciddi qəbul etmək istəmədiklərini ətraflarına sübut etmək istəyərlər. Quranda onların lağlağı hərəkətlərinə nümunələr verilmişdir:

**(Kimisi də) ata-anasına: "Tfu sizə! Məndən əvvəl neçə-neçə nəsillər gəlib-getdiyi halda, siz məni (qəbirdən) çıxarılacağımlamı hədələyirsiniz?"– deyər. Onlar Allah'dan yardım diləyərək: "Vay sənin halına! İman gətir, Allah'ın vədi haqdır!"– deyərlər. O isə: "Bu, keçmişdəkilərin əfsanələrindən başqa bir şey deyildir!"– deyər. (Əhqaf surəsi, 17)**

Öz axmaq ağıllarını bəyənən və bundan çox əmin olan inkarçıların dirilmək haqqındakı bu cür suallarına və yanlış məntiqlərinə ən gözəl nümunə olaraq Quranda belə xəbər verilmişdir:

**Məgər insan onu nütfədən yaratdığımızı görmür? Budur,**

**o, indi açıq-aşkar mübahisə edir. O, Bizə bir məsəl çəkdi, lakin yaradılışını unutdu. O dedi: “Çürümüş sümükləri kim dirildə bilər?” De: “Onları ilk dəfə yaradan Özü onları diriləcəkdir. O, hər bir məxluquna yaxşı bələddir. (Yasin surəsi, 77-79)**

İnsanı və yer üzündəki canlı-cansız bütün varlıqları yaradan Allah’dır. İnsan Allah’ın endirdiyi din əxlaqını yaşamaqla məsuldur və inkar etməsi onu bu məsuliyyətdən qurtarmaz. Bu vəziyyətdə din günü gəldiyində etdiklərinin cəzasını mütləq alacaqdır. Bunu da əlavə etmək lazımdır ki, Allah’a və Onun dininə istehza etmək çox böyük günahdır və heç şübhəsiz, bunun qarşılığı çox şiddətli olacaq. Bu insanlar Quranda belə təhdid edilirlər:

**Dinlərini oyun və əyləncə sayanları və dünya həyatının aldatdığı şəxsləri tərk et. Bununla xatırlat ki, heç kəs qazandıqlarına görə özünü məhvə məhkum etməsin. Allah’dan başqa onun nə bir hamisi, nə də bir havadarı olacaqdır. O, nə cür fidyə versə də, ondan qəbul olunmayacaq. Onlar qazandıqlarına görə məhvə məhkum olanlardır. Kafir olduqlarına görə, onlar üçün qaynar içki və üzücü bir əzab hazırlanmışdır. (Ənam surəsi, 70)**

Qarşılaşacaqları bu əzabı görməzlikdən gələn insanlar həmişə olduğu kimi, yaşadığımız dövrdə də var. Bu şəxslər hər fürsətdə dini dəyərlərə və müqəddəs anlayışlara lağ etməkdən çəkinməzlər. Zarafat və lətifələrinin dini məzmunlu olması ilə yanaşı, karikaturalarda da dini dəyərlərə lağ edərlər. İstər içində yaşadığımız dövrdə, istərsə də tarix boyunca inkar edənlərin bu çirkin davranışlarının məqsədi həmişə eyni olmuşdur. Məsxərəçi yanaşmaları ilə həm iman edənləri çətinliyə salmaq istəyər, həm də insanlara şüur altı dini dəyərlər mövzusunda mənfi yöndə təsir etməyə çalışarlar. Ancaq unutmaq olmaz ki, müsəlmanlar üçün inkarçıların bu davranışları ilə qarşılaşmaq

böyük bir şərəfdir. Çünki Allah Quranda saleh müsəlmanların bu cür davranışlara məruz qalavaqlarını və bunların qarşılığının özlərinə ən gözəl şəkildə veriləcəyini vəd etmişdir. Bundan başqa, Allah bu lağlağı insanların mövqeyini Quranda bildirmiş və möminlərin onlardan uzaq olmalarını əmr etmişdir:

**Ey iman gətirənlər! Sizdən əvvəl Kitab verilənlərdən dininizi ələ salıb oyun-oyuncaq hesab edənləri və kafirləri dost tutmayın. Əgər möminsinizsə, Allah'dan qorxun. (Maidə surəsi, 57)**

# İNKAR EDƏNLƏR ƏBƏS YERƏ MÖMİNLƏRƏ İSTEHZA EDİRLƏR

Əvvəlki hissələrdə ifadə etdiyimiz kimi, inkar edənlər Allah'a təslim olmadıqları üçün vicdanları həmişə narahatdır. Buna görə də Allah'ın dinini yaşayan möminlərə qarşı kinayəli rəftar göstərərlər. Özlərinin səhv yolda, möminlərin isə doğru yolda olduqlarını bilmələri möminlərə qarşı kin bəsləmələrinə səbəb olur. Bir ayədə bu insanların möminlərə qarşı kinli olmaları belə izah edilir:

**... Ey iman gətirənlər! Sizlərdən olmayanı özünüzə sirdaş tutmayın. Onlar sizə qarşı fəsad törətməkdən əl çəkməzlər, sizin sıxıntıya düşməyinizi istəyərlər. Düşmənçilikləri onların ağızlarından bəllidir. Kökslərində gizlətdikləri isə daha böyükdür. Əgər anlayırsınızsa, Biz ayələri artıq sizə bəyan etdik. (Ali-İmran surəsi, 118)**

İnkar edənlərin möminlərə bu qədər kin bəsləmələrinin səbəblərindən biri onların Allah'a iman etməsidir. Tarix boyu Allah'ın əmrlərini yerinə yetirən, Allah'ın göndərdiyi kitablara və elçilərə itaət edən möminlər inkar edənləri qıcıqlandırmışdır. Yer üzündə inanan insanlar var olduqları müddətcə inkar edənlər bu narahatlığı yaşayacaq və bu qəzəbi daşıyacaqlar.

İnkar edənlər Allah'ın varlığını və üstünlüyünü görməzlikdən

gəlmək istəyirlər. Yuxarıda da ifadə etdiyimiz kimi, əgər hər şeyin yaradıcısının Allah olduğunu, hər hadisənin Onun idarəsində reallaşdığını qəbul etsələr, Allah'a itaət etmələrinin lazım olduğunu görəcəklər. Bu həqiqətləri görməzlikdən gəlməyə çalışarkən möminlərin varlığı bütün səylərini boşa çıxarar. Möminlər inkar edənlərə və içində olduqları cəmiyyətə Allah'ın hər şeyin yaradıcısı olduğunu, bütün gücün Allah'a aid olduğunu, dünyadakı həyatın keçici, ölümün isə açıq-aşkar və qaçılmaz bir həqiqət olduğunu, qısacası inkarçıların unutmağa çalışdığı bütün həqiqətləri xatırladarlar. Buna görə, inkarçılar yer üzündə iman edən tək bir insanın belə qalmasını istəməzlər. Elə buna görə də iman edənlərə qarşı düşmən mövqeyi tutarlar.

Əlbəttə, öz ağıllarına görə bu düşmənliyi ifadə etməyin ən asan yollarından biri möminlərə dəyər vermədiklərini göstərməkdir. Halbuki, möminlərin onların dəyərlərinə heç bir şəkildə ehtiyacları yoxdur. Bunu da onlara qarşı kinayəli hərəkətlərlə hiss etdirməyə çalışarlar. Möminlərin iman etməsinə istehza etmək inkarçıların ən çox etdiyi əxlaqsızlıqdır. Quranda bunun bir çox nümunəsindən bəhs edilmişdir:

> **Onlara: "(Bu) insanlar iman gətirdiyi kimi siz də iman gətirin!"– deyildiyi zaman: "Biz də səfehlərin iman gətirdikləri kimi iman gətirək?"– deyirlər. Doğrusu, onlar özləri səfehdirlər, lakin bilmirlər. Onlar möminlərlə rastlaşdıqda: "Biz iman gətirdik!"– deyirlər, öz şeytanları ilə təklikdə qaldıqda isə: "Biz sizinləyik. Biz (möminlərə) ancaq istehza edirik!"– deyirlər. (Bəqərə surəsi, 13-14)**

Ayələrdən göründüyü kimi, inkarçılar danışıqlarında möminlərə aşağı baxdıqlarını ifadə edərlər. Bununla möminlərin şövqünü qırıb gücünü azaldacaqlarını zənn edirlər. Ancaq başqa mövzularda olduğu kimi, burda da yanılırlar. Çünki Allah'a iman edən bir insan şövqsüz

və ümidsiz olmaz. Əksinə, iman edənlərə belə əxlaqsız hərəkətlərə məruz qalmaq böyük şərəfdir və bunlar möminləri daha da şövqləndirən hadisələrdir. Çünki Allah Quranda tarix boyu bütün müsəlmanlara qarşı bu cür münasibətlərin olduğunu xəbər vermişdir. Bunun qarşılığında inananlar da hər dövrdə bu hərəkətlərə səbir göstərdiklərində axirətdə bunun gözəl qarşılığını alacaqlarını bilməyin şövq və sevincini yaşamışlar.

Tarix boyu inkarçıları qıcıqlandıran mövzulardan biri də möminlərin Allah'ın göndərdiyi elçiyə itaəti olmuşdur. Möminlər **"Biz hər bir elçini, Allah'ın izni ilə, ona məhz itaət edilsin deyə göndərdik..." (Nisa surəsi, 64)** ayəsinin tələbi olaraq, Allah'ın elçilərinə və Onun yolunda mübarizə aparan saleh müsəlmanlara böyük hörmət göstərmişlər.

**"Ey iman gətirənlər! Allah'a və Elçisinə itaət edin, həm də özünüzdən olan rəhbərlərə..." (Nisa surəsi, 59)** ayəsinə uyğun olaraq itaət mövzusunda bir-birləri ilə yarışmış və bu mövzuda qəti şəkildə zəiflik göstərməmişlər:

> **Bunlar Allah'ın hüdudlarıdır. Kim Allah'a və Onun Elçisinə itaət edərsə, (Allah) onu altından çaylar axan, içində əbədi qalacaqları cənnət bağlarına daxil edər. Bu, böyük uğurdur. Kim Allah'a və Onun Elçisinə asi olub Onun hüdudlarını aşarsa, (Allah) onu içində əbədi qalacağı (cəhənnəm) oduna vasil edər. Onun üçün alçaldıcı bir əzab vardır. (Nisa surəsi, 13-14)**

Bunun ən əhəmiyyətli nümunələrindən biri də peyğəmbərimiz (s.ə.v) dövründə müsəlman qadınların örtünmə ayələrinin enməsi ilə birlikdə göstərdikləri itaətdir. Allah Quranda örtünmənin mömin qadınları digərlərindən ayıran əhəmiyyətli bir xüsusiyyət olduğunu xəbər vermişdir:

**Ey Peyğəmbər! Zövcələrinə, qızlarına və möminlərin qadınlarına de ki, (naməhrəm yanında) çarşabları ilə örtünsünlər. Bu onların tanınması və onlara əziyyət verilməməsi üçün daha münasibdir. Allah bağışlayandır, rəhmlidir. (Əhzab surəsi, 59)**

"Nur" surəsindəki örtünmə ilə bağlı ayələr hicrətdən sonrakı dövrdə endirilmişdir:

"Şeybə qızı Səfıyə deyir ki: Biz hz. Aişənin yanında olarkən bir neçə xanım qureyşli qadınların vəziyyətindən və fəzilətlərindən danışmışdılar. Bundan sonra hz. Aişə buyurdu ki: "Şübhəsiz ki, qureyşli qadınların üstünlüyü var. Amma Allah'a and içirəm ki, mən ənsarın qadınlarından daha çox Allah'ın kitabını təsdiq edən və Qurana inanan fəzilətli şəxslər görmədim. "Nur" surəsindəki "baş örtülərini yaxalarının üzərlərinə qoysunlar" ayəsi nazil olanda ərləri onların yanlarına getdilər və özlərinə Allah'ın bu mövzuda nazil etdiyi ayəni oxudular. Hər kəs arvadına, qızına, bacısına və yaxınlarına bu ayəni oxuyurdu. İçlərindən baş örtüyünü yaxalarının üzərinə qoymayan olmadı. Allah'ın endirdiyi kitabdakı hökmə inandıqlarından və təsdiq etdiklərindən örtülərinə büründülər..." *(İbni Kəsr, Hədislərlə Qurani-kərim Təfsiri, 11-ci cild, s. 5880)*

Peyğəmbərimiz (s.ə.v) dövründə mömin qadınlar Allah'ın təsəttür mövzusundakı əmrini böyük şövq və istəklə qarşılamış, dərhal itaət etmişlər.

Müsəlmanların bu sarsılmaz itaəti inkar edənləri hər dövrdə çox narahat etmişdir. Çünki onlar daim ən etibarlı, ən çox sözü küçən şəxslərin özləri olmasını istəmişlər. Bu səbəbdən, möminlərin Allah'ın seçdiyi insana itaət etməsi və bu mövzuda heç bir güzəştə getməməsi onların möminlərə düşmən olmasının səbəblərindən biri

olmuşdur. Buna görə, möminlərə və onların itaət etdikləri elçilərə istehza dolu sözlərlə atmacalar atmışlar:

**Onlar dedilər: "Sənə ən rəzil adamlar tabe olduğu halda, biz sənə inanarıqmı?" (Şüəra surəsi, 111)**

**Onun qövmünün kafir zadəganları dedilər: "Biz sənin özümüz kimi sadəcə bir insan hesab edir və içimizdən ancaq düşüncəsiz olan ən rəzil adamların sənə qoşulduğunu görürük. Həmçinin sizin bizdən üstün olduğunuzu da görmürük. Əksinə, biz sizi yalançı hesab edirik". (Hud surəsi, 27)**

Ayələrdə də bildirildiyi kimi, inkar edənlərin ən böyük istəklərindən biri özlərinin ən üstün olmalarıdır. Ancaq onlar özlərini böyük görməklə ağılsızlıq edərlər və ən əhəmiyyətlisi isə qısa dünya həyatındakı mövqe, pul, mal və etibarı sonsuz axirət həyatına dəyişərlər. Bu da onların ağılsızlığının ən böyük dəlillərindən biridir.

# İNKARÇILAR İLK ÖNCƏ PEYĞƏMBƏRLƏRİ HƏDƏF ALIRLAR

Tarix boyunca hər dövrdə inkar edən insanlar olmuş və bu şəxslər Allah'ın dininə və möminlərə qarşı mübarizə aparmışlar. Bu Allah'ın dəyişməz qanunudur. İnkar edənlərin inananlara qarşı istifadə etdiyi mübarizə üsulları məlumdur və bunların ən başlıcalarından biri də məsxərədir. Üstəlik, istehza taktikaları və sözləri də həmişə eyni olur. Bu həqiqət Quranda belə ifadə edilir:

**Firon da, ondan əvvəlkilər də, alt-üst olmuş kəndlər də günah işlətmişdilər. Onlar öz Rəbbinin elçisinə asi oldular, O da onları artan bir əzabla yaxaladı. (Haqqə surəsi, 9-10)**

Ayələrdə diqqət çəkildiyi kimi, əsrlər boyu inkar edənlər həmişə eyni üsyankar rəftarı göstərmişlər. Firon, Əbu Ləhəb, fironun qövmü, Nuh peyğəmbərin (ə.s) qövmü, Ad qövmü, Səmud qövmü, Lut qövmü və digərləri Quranda həmişə peyğəmbərlərə qarşı istifadə etdikləri azğın və məsxərəçi üslubla xatırlanan və sonunda məhv olan qövmlərdəndir. Bu insanlar yalnız peyğəmbərlərə deyil, dinə aid hər şeyə-ibadətlərə, namaza, dinin hökmlərinə lağ etmişlər. Amma, əlbəttə, Quranda xəbər verildiyi kimi, sonda ziyana uğrayan, həlak edilən də özləri olmuşdur.

Keçmiş qövmlərin elçilərinə qarşı olan bu münasibətləri Quranda tez-tez ifadə edilən bir həqiqətdir:

**Vay qulların halına! Onlara elə bir elçi gəlməyib ki, ona istehza etməsinlər. (Yasin surəsi, 30)**

**Onlara elə bir elçi gəlməzdi ki, ona istehza etməsinlər. (Hicr surəsi, 11)**

Göründüyü kimi, peyğəmbərlərə qarşı bu şəkildə nəzakətsiz davranmaq inkar edənlərin nəzərə çarpan xüsusiyyətidir. Hər dövrdə də bunu tətbiq etdikləri aydın olur. Bütün bu qövmlərin təkəbbürlənmələrinin və nəticədə, istehzaya yönəlmələrinin səbəbi isə şeytandır. Şeytan yer üzündə Quran əxlaqının yaşanmasını istəmədiyi üçün insanları əxlaqsızlığa, din əxlaqına zidd işlərə təşviq edir. İstehza da bu çirkin davranışlardan biridir. Buna qarşı peyğəmbərlər haqq dini yaşayan və təbliğ edən insanlardır. Onlar insanları şeytana və onun hiyləli oyunlarına qarşı xəbərdar edən və onlara şeytanın inkarçı sisteminə təslim olmamağı öyrədən şəxslərdir. Bu səbəblə də şeytan inkar edənləri, əvvəlcə, peyğəmbərlərə qarşı çıxmağa yönəldir. İnsanları peyğəmbərlərə qarşı üsyana və məsxərəçi davranışlara təşviq edir. Qövmlərin içində peyğəmbərlərə qarşı mübarizə aparan, onlarla lağ edən insanlar da şeytanın yolu ilə gedən şəxslərdir.

Amma unutmaq olmaz ki, şeytanın bu səyləri heç bir nəticə verməz. Əksinə, inkar edənlərin bu cür davranması, kinayəli sözlər söyləməsi elçilərin axirətdəki dərəcəsini artırar, Allah'ın razılığını və nemətlərini qazanmalarına səbəb olar. Bu mübarək insanlar özlərinə qarşı çirkin hərəkətlərə səbir etdikləri üçün Allah'dan gözəl bir qarşılıq umarlar. Necə ki, haqlının haqsızdan ayrılacağı din günü gəldiyində hər iki tərəf də etdiklərinin qarşılığını alacaqdır. Elçilərə və onlarla birlikdə olan möminlərə axirətdə mükafat verilərkən, dünyada onlara istehza edən inkarçılar isə cəzalandırılacaqlar. Bu son

üçün yalnız Allah'ın onlara təyin etdiyi bir müddət var və bu müddət bitməlidir. Bu, Quranda bildirilən bir həqiqətdir:

**Dünya həyatı kafirlər üçün gözəlləşdirildi. Onlar iman gətirənləri məsxərəyə qoyurdular. Halbuki, müttəqilər qiyamət günü onlardan üstün olacaqlar. Allah istədiyi kəsə hesabsız ruzi verər. (Bəqərə surəsi, 212)**

**Səndən əvvəlki elçilərə də istehza edilmişdi. Mən kafirlərə möhlət verdim, sonra isə onları yaxaladım. (Bir görəydin onları) cəzalandırmağım necə oldu! (Rəd surəsi, 32)**

Ayələrdən aydın olduğu kimi, cahil insanların elçilərlə lağ etməsi Allah'ın Quranda bildirdiyi bir qanundur. Tarix boyunca bütün peyğəmbərlərin başına gələn bu hadisə onların ancaq şövqlərini və mübarizə əzmlərini artırmışdır. Peyğəmbərlər Allah'ın ədalətinə güvəndikləri üçün məsxərəçi inkarçıların axirətdə layiq olduqları qarşılığı alacaqlarından da əmindirlər. Bu səbəbdən, inkar edənlər və onların öndəri olan şeytan heç bir zaman məqsədlərinə çatmaz. Allah Quranda inkarçıların elçilərə qarşı mübarizəsinin onların ağılsız olduqlarını ortaya qoyduğunu belə xəbər vermişdir:

**Biz elçiləri yalnız müjdə verənlər və xəbərdarlıq edənlər kimi göndəririk. Kafirlər isə batil ilə haqqı aradan qaldırmaq üçün mübahisə edirlər. Onlar Mənim ayələrimə və xəbərdar olunduqları şeylərə istehza edirlər. Rəbbinin ayələri yadına salınarkən onlardan üz döndərən, əvvəlcə öz əlləri ilə etdikləri (günahlarını) unudan adamdan daha zalım kim ola bilər? (Quranı) anlamasınlar deyə, Biz onların qəlbinə örtüklər çəkdik, qulaqlarına da tıxac vurduq. Sən onları doğru yola çağırsan da, onlar heç vaxt doğru yola gəlməzlər. (Kəhf surəsi, 56-57)**

Quranda inkarçıların hansı mövzularda belə bir üsluba əl atdığı,

hansı üsullardan istifadə etdiyi də bir çox örnəklə bildirilmişdir. Sonrakı səhifələrdə inkarçıların tarix boyunca Allah'ın elçilərinə qarşı göstərdikləri məsxərəçi mövqe və bunun nəticəsində gördükləri alçaldıcı qarşılıqdan bəhs olunacaq.

## Allah'ın seçdiyi elçini öz düşüncələrinə görə bəyənməmələri

Din əxlaqından uzaq cəmiyyətlərdə insanların dəyər ölçüləri mal, mülk, pul, şöhrət, məqam və mövqe kimi maddi mənfəətlər üzərində qurulmuşdur. Buna görə də həmin cəmiyyətlərə bir elçi göndərildiyində insanların çoxu bu meyarlarla qiymətləndirmə aparırlar. Əgər elçidə sayılan maddi xüsusiyyətləri kafi görməzlərsə, onu Allah'ın seçdiyini, özlərinə yol göstərici olaraq göndərildiyini qəbul etmək istəməzlər. Bu insanı Allah'ın seçməsi, onun təqva sahibi və gözəl əxlaqlı olması onların məntiqləri baxımından əhəmiyyətli olmaz. Elçidəki gözəl, üstün əxlaqı dərk edə bilmədikləri və qürurlu olduqları üçün onun seçilmiş biri olması xoşlarına gəlməz. Onun özlərindən üstün olduğunu, onları doğru yola dəvət etdiyini təsdiqləyib, ona təslim olmaq yerinə üsyankar və məsxərəçi mövqedə olmağı seçərlər. Allah Quranda inkar edənlərin bu mövqeyini belə bildirmişdir:

**Onlar səni gördükdə ancaq sənə lağ edir (və deyirlər:) "Budurmu Allah'ın elçi göndərdiyi kəs? (Furqan surəsi, 41)**

Ayədə göründüyü kimi, bu insanlar elçini öz yanlış düşüncələrinə görə qiymətləndirir və bəyənmirlər. Bu mövzudakı başqa bir ayə isə belədir:

**Kafirlər səni gördükləri zaman sənə ancaq istehza edərək: "Sizin tanrılarınıza tənə vuran budurmu?"– deyirlər. Məhz onlar Rəhmanın öyüd-nəsihətini inkar edirlər. (Ənbiya surəsi, 36)**

Quranda bu mövzu ilə əlaqədar başqa nümunələr də verilmişdir. Hz. Musa (ə.s) fironun qövmünə elçi olaraq göndərildikdə firon və qövmü peyğəmbərlərə istehza etmə yolunu seçmişlər. Bunun səbəbi özlərindən daha kasıb olduğunu düşündükləri Musa peyğəmbərin (ə.s) elçi olaraq seçilməsi və onları haqq dinə dəvət etməsidir. Öz batil dinlərinin dəyişdirilməsinin istənməsi inkarçıların qüruruna toxunmuşdur. Buna görə də tarixdəki bütün inkarçılar kimi onlara göndərilən peyğəmbərlərə lağ etməyə başlamışlar:

**Firon qövmünü çağırıb dedi: "Ey xalqım! Məgər Misir səltənəti və altımdan axan bu çaylar mənim deyilmi? Məgər görmürsünüzmü? Ya da mən bu aciz və az qala (sözünü) belə aydın başa sala bilməyən adamdan daha üstün deyiləmmi? Nə üçün ona qızıl bilərziklər taxılmayıb və onunla birlikdə bir-birinin ardınca mələklər gəlməyib?" (Zuxruf surəsi, 51-53)**

Yuxarıdakı ayələrdə göründüyü kimi, firon bütün inkarçı xüsusiyyətlərə malikdir. Hz. Musanı (ə.s) yenə öz cahil ölçülərinə görə qiymətləndirir, ondakı üstün əxlaqı və Allah'a olan yaxınlığını dərk etmir. Öz sahib olduğu mülkləri sayaraq qövmünə təsir etməyə çalışmış və bu şəkildə də cahiliyyənin azğın dəyərlərini ölçü götürərək öz üstünlüyünü isbat etdiyini zənn etmişdir.

Bu nümunədə də gördüyümüz kimi, inkarçı insanların öz zənlərinə görə, əgər elçilik və ya bir hökm səlahiyyəti veriləcəksə, özləri arasından birinə verilməlidir. Bu səbəblə də peyğəmbərlərə verilənləri qısqanaraq dərhal istehza və təhqir dolu sözlər söyləməyə başlamışlar. Məsələn, "**Zikr aramızdan təkcə onamı verildi? Xeyr, o, yalançıdır, lovğadır!**" **(Qəmər surəsi, 25)** ayəsində olduğu kimi, elçini bəzi çirkin hərəkətlərlə ittiham edirlər. Lakin peyğəmbərlər gözəl əxlaqlı, Allah'ın əmr və qadağalarına qarşı çox diqqətli, çox təvazökar və bütün gücün yalnız Allah'a aid olduğunu bilən insan-

lardır. Belə böhtanlar da onlara həsəd aparan cahiliyyə insanlarının əsassız günahlandırmalarından başqa bir şey deyil.

İnanmayan insanların peyğəmbərlərə atdıqları böhtanlardan biri də dəlilikdir. Bunu da həmişə istehza ilə dilə gətirirlər. Quranda bu mövzuda belə bir nümunə verilmişdir:

**Qövmünün kafir zadəganları dedilər: "Biz səni səfeh sayırıq və həqiqətən də, səni yalançılardan hesab edirik!" O dedi: "Ey qövmüm! Mən heç də səfeh deyiləm. Lakin mən aləmlərin Rəbbi tərəfindən (göndərilmiş) bir elçiyəm. (Əraf surəsi, 66-67)**

Hud peyğəmbərə (ə.s) atılan bu böhtan bütün dövrlərdə Allah'ın elçilərinə atılan bir böhtandır. İnkar edənlərin yuxarıdakı sözlərindəki istehza dərhal diqqət çəkir. Halbuki, elçilər üstün ağılları ilə tanınan insanlardır. İnkarçıların bu iftiralardakı məqsədi qövmlərini onların əleyhinə yönləndirməkdir. Başqa sözlə, elçiyə itaətə maneə olaraq öz mənfəətlərini qorumaqdır. Quranda bu böhtanın digər peyğəmbərlərə atıldığına dair nümunələr var:

**(Firon) dedi: "Sizə göndərilmiş bu elçi, sözsüz ki, dəlidir!" (Şüəra surəsi, 27)**

**"Bu ancaq cinli bir adamdır. Odur ki, ona münasibətdə bir müddət gözləyin!" (Muminun surəsi, 25)**

Bu nümunələr onu göstərir ki, elçilərdən və ya möminlərdən birinə qarşı dəlilik iddiasının olması, əslində, bunun keçmişdə bütün peyğəmbərlərə edilmiş böhtan və məsxərə olması baxımından böyük şərəfdir. İnkarçılar bu böhtanları ilə möminlərin gücünü azalda biləcəklərini, onların şövqlərini qıra biləcəklərini, etdikləri xeyirlərə mane ola biləcəklərini zənn edirlər. Halbuki, möminlərə lağ edilməsinin mənası və onlarda meydana gətirdiyi təsir tam fərqlidir. Cahil bir insan ona lağ ediləndə narahat olar. Möminlər isə tarix boyunca

bütün möminlərə və elçilərə deyilən sözlərin özlərinə də deyilməsinin özlərinin doğru yolda olduqlarını bir daha göstərdiyini düşünər və buna görə də fəxr edərlər. Bundan başqa, inkarçıların bu düşüncəsizliyi və əxlaqsızlığı onların gücünü artırar və din əxlaqını təbliğ etmə baxımından daha şövqlü və qərarlı olmalarına səbəb olar.

### Elçinin və möminlərin Quran əxlaqını yaşamalarına lağ etmələri

Möminlər Allah'ın əmr və qadağalarına görə hərəkət edərkən inkarçılar tam tərsinə, nəfslərinin istiqamətləndirdiyi şəkildə yaşayarlar. Nəfs isə gözəl əxlaqlı olmağı, iffətli, namuslu, dürüst, səmimi, ədalətli, təmiz, şəfqətli, dürüst olmağı istəməz. Əksinə, əxlaqsızlığı, yalançı olmağı və hər cür pis əxlaqi xüsusiyyətləri yaşamağı insanlara məqbul göstərər. Bu səbəblə, möminlərin yaxşı və təmiz insan olmaları və bunun üçün göstərdikləri əzmkarlıq inkar edənlərin xoşuna gəlməz. Möminlərin gözəl əxlaqlarına şahid olduqca öz əxlaqlarının pis olduğuna bir daha şahid olarlar. Lakin qürurlarından dolayı belə bir şeyi qəbul etmək istəməzlər. Buna görə, möminlərin də özləri kimi olmalarını istərlər. Onların Quran əxlaqına uyğun hərəkətlərini gördüklərində təhqir və istehza dolu sözlərlə möminlərin gözəl cəhətlərini alçaltmağa çalışarlar. İnkarçıların bu hərəkətləri haqqında Quranda belə bir nümunə verilmişdir:

**Qövmünün cavabı isə ancaq: "Lutun ailəsini kəndinizdən çıxarın. Çünki onlar təmiz qalmaq istəyən adamlardır!"– demələri oldu. (Nəml surəsi, 56)**

Məlum olduğu kimi, Lut peyğəmbərin (ə.s) göndərildiyi qövm cinsi azğınlıqlar yaşayan pozğun qövm idi. Hz. Lut (ə.s) özlərini haqqa, doğruya, gözəl olana və təmizə dəfələrlə çağırdığı halda, bunu rədd etmiş və peyğəmbərlərinə üsyan etmişdilər. Hz. Lut (ə.s) doğruları izah etməyə davam etdiyində isə azğınlıqları daha da artmış,

elçini və möminləri yurdlarından sürgün etmək qərarına gəlmişlər. Bunu edərkən də onların təmiz və iffətli olmalarını məsxərə mövzusu etmişlər. Ancaq bütün digər azğın qövmlərə olduğu kimi, Allah bu qövmə də etdiklərinin qarşılığını vermiş və onları həlak etmişdir. İnkarçıların iftira və məsxərə dolu hərəkətlərinə səbir edən möminləri mükafatlandıracağını müjdələmişdir. Yəni Lut peyğəmbərə (ə.s) və onunla birlikdə iftira və böhtanlara məruz qalan bütün möminlərə gördükləri bu rəftar böyük mükafat olaraq geri dönmüşdür. Özlərini müsəlmanlardan üstün görən bu şəxslərə həqiqi izzət və şərəfin kimə aid olduğunu Allah Quranda belə bildirmişdir:

**Onlar: "Əgər biz Mədinəyə qayıtsaq, ən qüdrətlilər ən alçaqları mütləq oradan çıxardacaqlar!"– deyirlər. Halbuki, qüdrət yalnız Allah'a, Onun Elçisinə və möminlərə məxsusdur, lakin (bunu) münafiqlər bilmirlər. (Munafiqun surəsi, 8)**

**Kim qüdrət (sahibi olmaq) istəsə, (bilsin ki,) qüdrət bütünlüklə ancaq Allah'a məxsusdur. Gözəl söz Ona tərəf yüksəlir və onu ucaldan yaxşı əməldir. Pis əməllər işlədib hiyləgərlik edənləri şiddətli əzab gözləyir. Onların qurduqları hiylələr də boşa çıxacaqdır. (Fatir surəsi, 10)**

## Elçinin etdiklərinə lağ edirlər

İstər inkar edənlər, istərsə də münafiqlər ağıllı olmadıqlarından möminlərin etdiklərini anlamazlar. Dünya işlərindən bəzilərini bildiklərindən dolayı özlərini çox ağıllı zənn edərlər. Dinlə əlaqədar həqiqətləri yanlış bildiklərini qəbul etmək istəməzlər. Din əxlaqından uzaq insanların düşüncəsiz olduqlarının Allah'ın dəyişməyən qanunu olduğunu görə bilməzlər. Aciz durumda qaldıqlarını anlamadıqlarına görə, bəsit davranışlarla özlərini üstün zənn edər və Allah'ın elçilə-

rinə lağ edərlər. Quranda bunun nümunələrinə tez-tez rast gəlmək mümkündür. Məsələn, Şüeyb peyğəmbər (ə.s) göndərildiyi qövmü pis işlərdən çəkinməyə çağırdığı zaman güclü müqavimətlə qarşılaşmış və inkarçıların lağlağı hərəkətlərinə məruz qalmışdı. Əslində, qövmü Şüeyb peyğəmbərin (ə.s) gözəl əxlaqlı bir insan olduğunu çox yaxşı bilirdi. Lakin hz. Şüeyb (ə.s) onların nəfsinə zidd olan bir şey əmr etdiyi üçün dərhal müqavimət göstərmişlər. Lağ etdikləri şey isə peyğəmbərin Allah'a ibadət etməsi idi:

**Onlar dedilər: "Ey Şüeyb! Atalarımızın ibadət etdikləri (tanrılardan), yaxud mallarımızı istədiyimiz kimi istifadə etməkdən vaz keçməyimizi sənə namazınmı əmr edir? Doğrudan da, sən yumşaq xasiyyətlisən, ağıllısan". (Hud surəsi, 87)**

Bu mövzu ilə əlaqədar olaraq Quranda verilən digər nümunə isə Nuh peyğəmbər (ə.s) dövründə yaşanmışdır. Allah hz. Nuha (ə.s) qövmünə gələcək əzabdan qorunması üçün bir gəmi tikməsini əmr etmişdir. Hz. Nuh (ə.s) gəmini tikməyə başladıqda qövmünün inkarçıları onun bu hərəkətinə lağ etməyə başlamışdır:

**Nuha belə vəhy olundu: "Qövmündən, daha əvvəl iman gətirənlər istisna olmaqla, artıq heç kəs iman gətirməyəcək. Elə isə onların etdikləri əməllərə görə kədərlənmə. Gözlərimizin önündə və vəhyimiz üzrə gəmini düzəlt. Zalım olanlardan ötrü Mənə müraciət etmə. Şübhəsiz ki, onlar (suda) batırılacaqlar". (Nuh) gəmini düzəldir, qövmünün zadəganları isə hər dəfə yanından keçdikcə onu ələ salırdılar. O isə deyirdi: "Əgər siz bizi ələ salırsınızsa, biz də sizi, siz bizi ələ saldığınız kimi ələ salacağıq. Siz rüsvayedici əzabın kimə gələcəyini və daimi əzabın kimə üz verəcəyini mütləq biləcəksiniz". (Hud surəsi, 36-39)**

Sonda Allah'ın Nuh peyğəmbərə (ə.s) vədi yerinə yetmiş, Nuh qövmü alçaldıcı əzabla həlak edilmişdir. Bu insanlar dünyada olarkən Allah'ın gücünü qavraya bilməmişlər. Ağılsız olduqlarından Allah'ın əzabını uzaq görmüş və dünyada əldə etdikləri mal və güclə bu əzabdan xilas ola biləcəklərini zənn etmişlər. Bundan ötrü Allah'ın əmrini yerinə yetirən möminlərə lağ etmişlər. Lakin lağ etdikləri şey özlərinə geri dönmüş və inkarçılar etdiklərinin qarşılığını hələ dünyada olarkən almışdılar. Bir də özlərini gözləyən axirət əzabı vardır ki, Allah axirətdəki əzabın dünyadakı ilə müqayisə edilməyəcək qədər şiddətli olduğunu Quranda bir neçə dəfə xəbər vermişdir. Bu da onu göstərir ki, iman edənlərə lağ edənlər etdiklərinin cəzasını mütləq çəkirlər.

### Möcüzə istəyərək çətinlik yaratmaları

İnkar edənlərin elçilərə qarşı rəftarlarından biri də onlardan möcüzə göstərmələrini istəmələridir. İstəklərinin reallaşmasının qeyri-mümkün olduğunu düşündükləri üçün bu yolla elçiləri çətin vəziyyətə sala biləcəklərini güman edirlər. Elçilərin bu tələbləri yerinə yetirə bilməyərək xalqın gözündə alçalacaqlarını zənn edirlər. Bu mövzu ilə əlaqədar Quranda keçən ayələrdən bəziləri belədir:

**Onlar dedilər: "Sən yalnız və yalnız sehrlənmişlərdənsən. Sən də bizim kimi ancaq bir insansan. Biz səni yalançılardan hesab edirik. Əgər doğru danışanlardansansa, göyün bir parçasını üstümüzə endir". (Şüeyb) dedi: "Rəbbim sizin nələr etdiyinizi daha yaxşı bilir". Onlar isə onu yalançı saydılar və buna görə də kölgəli günün əzabı onları yaxaladı. Həqiqətən, o, böyük bir günün əzabı idi. (Şüəra surəsi, 185-189)**

**Kafir olanlar deyirlər: "Niyə ona Rəbbindən bir möcüzə endirilməyib?" De: "Şübhəsiz ki, Allah istədiyini sapdırır.**

**(Tövbə edib Ona) üz tutan kimsəni isə doğru yola yönəldir". (Rəd surəsi, 27)**

Əslində, bu istəklərinin əsl səbəbi Allah'ın seçdiyi insanı bəyənməyən, özlərini üstün görən yanlış düşüncəyə sahib olmalarıdır. İnkarçılar ayələrdə xəbər verildiyi kimi, özlərini peyğəmbərdən daha üstün görmüş, ona istehzalı tələblər irəli sürmüşlər:

**Onlar dedilər: "Bizə yerdən bir bulaq çıxarmayınca sənə iman gətirməyəcəyik və ya ortasından şırıl-şırıl çaylar axıdacağın xurma və üzüm bağın olmayınca, yaxud iddia etdiyin kimi, göyü parça-parça üstümüzə yağdırmayınca və ya Allah'ı və mələkləri qarşımıza gətirməyincə, yaxud qızıldan bir evin olmayınca və ya göyə qalxmayınca (biz sənə inanmayacağıq). Əgər bizə oxuyacağımız bir kitab endirməsən, göyə qalxmağına da inanmayacağıq". De: "Rəbbim pak və müqəddəsdir! Mən isə yalnız elçi (göndərilmiş) bir insanam". İnsanlara doğru yolu göstərən rəhbər gəldiyi zaman onların iman gətirməsinə ancaq: "Allah bir insanımı elçi göndərdi?"– demələri mane oldu. (İsra surəsi, 90-94)**

Belə tələblər və lağlağı hərəkətlər keçmişdə yaşamış və bundan sonra da yaşayacaq bütün inkarçıların ortaq xüsusiyyətləridir. Bunlar Allah'ın Quranda xəbər verdiyi hadisələrdir. Hər dövrdə Allah'ın elçilərinə və dindar insanlara qarşı bu cür mübarizə üsullarından istifadə edilmişdir. Ancaq inkar edənlərin bu səyi heç bir zaman nəticə verməmişdir. Qarşıdakı hissələrdə görəcəyimiz kimi, Allah həmişə inkarçıların planlarını və onları gözlənilməz əzablarla cəzalandırmışdır:

**Əgər onlara gələcək əzabı müəyyən vaxtadək gecikdirsək: "Onu saxlayan nədir?"– deyəcəklər. Xəbəriniz olsun ki,**

**(əzab) onlara gəldiyi gün onu heç nə onlardan dəf edə bilməyəcək və istehza etdikləri (o əzab) onları bürüyəcəkdir. (Hud surəsi, 8)**

**Onlar səndən əzabın tez gəlməsini istəyirlər. Əgər artıq müəyyən etdiyimiz bir vaxt olmasaydı, əzab onlara gələrdi. O (əzab) onlara qəflətən, özləri də hiss etmədən gələcəkdir. Onlar səndən əzabın tez gəlməsini istəyirlər. Şübhəsiz ki, cəhənnəm kafirləri bürüyəcəkdir. O gün əzab onları başlarının üstündən və ayaqlarının altından əhatə edəcəkdir. (Allah) deyəcəkdir: "Etdiyiniz əməllərin (cəzasını) dadın!" (Ənkəbut surəsi, 53-55)**

**Onlar: "Əgər doğru deyirsinizsə, bu vəd nə vaxt olacaq?"– deyirlər. De: "Ola bilsin ki, tələsik istədiyiniz şeyin bir qismi, artıq sizə yaxınlaşmışdır". (Nəml surəsi, 71-72)**

# İNKAR EDƏNLƏRİN İSTEHZALARINA SƏBİR ETMƏK MÖMİNLƏR ÜÇÜN ŞƏRƏFDİR

Kitabın əvvəlindən etibarən tarix boyunca inkar edənlərin iman edənlərə istehzalı yanaşmasından bəhs etdik və onların bu davranışlarının heç bir nəticə verməyəcəyinə də toxunduq. Ancaq bu mövzunu bir az daha da incələməkdə fayda görürük.

Cahil cəmiyyətdən olan bir insan ona lağ edəndə və ya böhtan atanda o, bundan çox kədərlənir. Bunu bilən cahiliyyə cəmiyyəti birisinin şövqünü qırıb, onu zəiflətmək üçün bu üsuldan istifadə edərlər. Belə ki, möminlərə qarşı istehzalı davranışlarının səbəbi də budur. Ancaq bu, əsla mümkün deyildir. Çünki inkarçıların lağlağı hərəkət və sözləri ilə, əsassız ittihamları ilə qarşılaşmaq möminlərin onsuz da gözlədiyi bir vəziyyətdir. İnkarçıların bu şəkildə davranacağı Quranda möminlərə bildirilmiş və möminlər bu vəziyyətə qarşı xəbərdar edilmişlər:

**Siz hökmən malınız və canınızla sınaqdan keçiriləcəksiniz. Sizdən əvvəl kitab verilənlərdən və müşriklərdən bir çox əziyyət verici sözlər eşidəcəksiniz. Əgər səbir edib (Allah'dan) qorxsanız, (bilin ki,) bu, əzmkarlıq (tələb edən) əməllərdəndir. (Ali-İmran surəsi, 186)**

Göründüyü kimi, Allah möminləri belə bir vəziyyətə qarşı qəti olaraq xəbərdar etmişdir. Bu səbəbdən, inkar edənlərin onlara lağ etməsi, möminlərin imanlı olmalarının göstəricisidir. Bu səbəblə, Allah'a iman edən bir insan belə bir hadisə ilə qarşılaşdığında nəinki kədərlənər, əksinə, sevinər və hətta Allah'ın vədi reallaşdı deyə, imanı daha da artar. Yəni inkar edənlərin möminlərə lağ etməsi, zənn edildiyi kimi onların əleyhinə deyil. Əksinə, Allah'ın yaratdığı hər hadisə kimi onların xeyrinədir. Onların əxlaqi üstünlüyünü, imanını və axirətdəki dərəcələrini artıran hadisədir.

Bu halda, möminlər din əxlaqından uzaq insanların istehzalı hərəkətlərinə görə əsla kədərlənməzlər. Bu, onlar üçün bir rəhmətdir və möminlər göstərdikləri səbir sayəsində Allah'ın razılığını və cənnətini ümid edərlər. Başqa bir ayədə Allah möminlərə belə bir vəziyyət qarşısında səbir etməyin lazım olduğunu bildirmişdir:

**(Müşriklərin) dediklərinə səbir et və onlardan xoşluqla uzaqlaş. (Müzzəmmil surəsi, 10)**

Bununla birlikdə möminlərin şövqünü artıran bir başqa mövzu da Allah'ın lağ edənlərə qarşı möminlərə kömək edəcəyini vəd etməsidir. Allah bu həqiqəti **"Sözsüz ki, istehza edənlərə qarşı Biz sənə yetərik" (Hicr surəsi, 95)** ayəsi ilə müjdələmişdir. Şübhəsiz ki, bu, möminlər üçün çox güvən verici bir vəziyyətdir. Quran əxlaqını yaşamayan insanlar möminlərə zərər vermək üçün hər nə etsələr də, məqsədlərinə çata bilməzlər. Etdikləri hər şey möminlərin lehinədir. Çünki bir ayədə belə xəbər verilir:

**Allah kafirlərə möminləri (məğlub etməyə) yol verməyəcəkdir. (Nisa surəsi, 141)**

Allah başqa ayələrdə də möminlərə olan dəstəyini belə xəbər vermişdir:

**... Dində məcburiyyət yoxdur. Artıq doğru yol azğınlıq-**

**dan aydın fərqlənir. Hər kəs tağutu inkar edib Allah'a iman gətirərsə, heç vaxt qırılmayan ən möhkəm dəstəkdən yapışmış olar. Allah eşidəndir, biləndir. Allah iman gətirənlərin himayədarıdır, onları zülmətlərdən nura çıxarır. Kafirlərin dostları isə tağutlardır, onları nurdan zülmətə salarlar. Onlar od sakinləridirlər və orada əbədi qalacaqlar. (Bəqərə surəsi, 256-257)**

Xüsusilə bunu da ifadə etmək lazımdır ki, möminlər inkarçıların hər cür bənzətməsindən uzaq, çox üstün və yüksək əxlaqlı insanlardır. Bu gözəl xüsusiyyətlərinin qarşılığını isə dünyada və axirətdə alarlar. Möminlərə istehza edilməsi isə onların üstünlüyünü, fəaliyyətlərinin gücünü və inkar edənlərin üzərindəki təsirini göstərir. Bu, eyni zamanda, xalq arasında məşhur olan "bar verən ağac daşlanar" sözünün də bir nümunəsidir.

Onların fikri mübarizə gücünü, üstün əxlaqını görən inkarçılar möminlərin yolunu kəsməyə, onları böhtan və yalanlarla ləkələməyə çalışarlar. Çünki möminlərin dünyaya sülh və nizam gətirəcəyini bildikləri üçün özlərinə görə əvvəldən tədbir görüb buna mane olmaq üçün çalışarlar. Məsələn, möminlərin Quran əxlaqını izah etmələrinə, insanları bu mövzuda maarifləndirmələrinə və ya Allah'ın varlıq dəlillərini anlatmalarına lağ edərlər. Bütün bunları etməkdə məqsədləri Allah'ın Quranda bildirdiyi kimi, haqqı batil ilə yenmə istəkləridir (Kəhf surəsi, 56). Ancaq Allah Quranda müsəlmanlara belə müjdə vermişdir:

**De: "Haqq gəldi, batil puç olub getdi. Həqiqətən də batil puçluğa məhkumdur!" (İsra surəsi, 81)**

**Xeyr, Biz haqqı batilin üstünə atarıq və o da onun işini bitirər. Bir anda (batilin) yox olub getdiyini görərsiniz. (Allah'a) aid etdiyiniz sifətlərə görə vay halınıza! (Ənbiya surəsi, 18)**

# ALLAH İNKAR EDƏNLƏRİ DÜNYADA ALÇALDIR

Din əxlaqından uzaq yaşayan insanların dinə və Allah'ın ayələrinə qarşı istehzalı yanaşmaları, göndərilən elçilərə və elçilərin ətrafındakı möminlərə lağ etmələri tarix boyu davam edən bir vəziyyətdir. Allah'ın gücünü və böyüklüyünü təqdir edə bilməyən bu insanlar etdiklərinin qarşılığını mütləq alacaqlarını anlamayaraq həyatlarını davam etdirmişlər. Halbuki, Quranda bu insanların özlərindən uzaq gördükləri əzablarla mütləq qarşılaşacaqları xəbər verilmişdir:

**Onlara haqq gəldikdə onu yalan saydılar. İstehza etdikləri şeyin xəbəri onlara tezliklə çatacaqdır. (Ənam surəsi, 5)**

**(Allah'ın) səndən əvvəlki elçiləri də məsxərəyə qoyulmuşdu. Onlara rişxənd edənləri (həmin o) istehza etdikləri şey məhv etdi. (Ənbiya surəsi, 41)**

**…(Nuh) gəmini düzəldir, qövmünün zadəganları isə hər dəfə yanından keçdikcə onu ələ salırdılar. O isə deyirdi: "Əgər siz bizi ələ salırsınızsa, biz də sizi, siz bizi ələ saldığınız kimi ələ salacağıq. Siz rüsvayedici əzabın kimə gələcəyini və daimi əzabın kimə üz verəcəyini mütləq biləcəksiniz". (Hud surəsi, 38-39)**

Bu insanlar etdikləri günahların qarşılığını, şübhəsiz, axirətdə görəcəklər, ancaq hələ dünyada olarkən də bu qarşılığı görəcəklər. Özləri dinlə, müsəlmanlarla, Allah'ın elçiləri və ayələri ilə lağ edərkən,

əslində, Allah onlara lağ etməkdədir. Allah bu həqiqəti bir ayəsində qəti olaraq xəbər vermişdir:

**Allah da onlara istehza edər və azğınlıqlarını (o qədər) artırar ki, sərgərdan gəzərlər. (Bəqərə surəsi, 15)**

Əslində, bu inkarçı insanlar yuxarıdakı ayələrdə bildirildiyi kimi, özlərinə verilən müddətə aldanaraq çox böyük tələyə düşmüşlər. Həyatları boyunca din əxlaqına, Allah'ın elçilərinə və möminlərə qarşı mübarizə aparmış və bundan ötrü heç bir qarşılıq görməyəcəklərini zənn etmişlər. Halbuki, bu dünyada nə qədər təkəbbürlənsələr də, Allah'ın müəyyən etdiyi vaxtda öləcək və torpağa basdırılacaqlar. Allah özü ilə öyündükləri mallarını yox edəcək, bədənləri isə torpağın altında çürüyəcəkdir. Bütün bunlar qaçılmazdır, onlar da hər insan kimi öləcəklər. Ölümlü olmaları və özlərindən ölümü uzaqlaşdıra bilməmələri, əslində, nə qədər aciz bir vəziyyətdə olduqlarının ən əhəmiyyətli dəlilidir.

Bundan başqa, bu insanlara həyatları boyunca da Allah bir çox çətinlik və bəla verir. Onlar özlərini üstün zənn edərkən qarşılaşdıqları hadisələrlə nə qədər aciz bir qul olduqlarını görürlər. Allah Quranda bu vəziyyətə düşən inkar edənlərlə bağlı bir çox nümunə vermişdir. Sonrakı səhifələrdə Quranda bəhs edilən bu məsxərəçilərdən və uğradıqları sondan danışılacaqdır.

## Məsxərəçiliyin sonu ilə əlaqədar Qurandan nümunələr

Hz. Musa (ə.s) zamanında yaşayan firon məlum olduğu kimi, üsyankarlığı və azğınlığı ilə tarixə keçmiş bir insandır. Onun və ətrafının qüruru ayələrdə belə təsvir edilir:

**Sonra Musanı və qardaşı Harunu ayələrimizlə və açıq-aydın bir dəlillə göndərdik fironun və onun əyanlarının yanına. Onlar isə təkəbbürlük göstərdilər. Çünki onlar öz-**

**lərini yüksək tutan adamlar idilər. (Muminun surəsi, 45-46)**

Firon özü haqqı inkar etdiyi kimi, qövmünü də azdırmaqla məşğul olmuşdu. Musa peyğəmbəri (ə.s) guya hörmətdən salmaq və hər kəsin gözü qarşısında ona lağ etmək üçün xüsusi bir plan hazırlamış, buna baxmayaraq, özü alçalmışdır. Firon sehrbazlarını insanların toplandığı gün hz. Musa (ə.s) ilə qarşı-qarşıya gətirmiş, bu şəkildə, sehrbazların üstün gələcəyini, Musa peyğəmbərin (ə.s) isə alçalacağını zənn etmişdi. Ancaq nəticə gözlədiyi kimi olmamış, Allah hz. Musa (ə.s) vasitəsilə sehrbazların hiyləsini pozaraq həm fironu, həm də yaxın ətrafını alçaltmışdır. Quranda bu hadisə belə izah edilir:

**(Musa) dedi: "Siz atın!" Onlar atdıqda, insanların gözlərini sehrləyib canlarına qorxu saldılar və böyük bir sehr göstərdilər. Biz Musaya: "Əsanı at!"– deyə vəhy etdik. Elə bu an (əsa ilana çevrilib) onların düzəltdikləri şeyləri uddu. Artıq haqq üzə çıxdı, onların etdikləri isə batil oldu. (Əraf surəsi 116-118)**

Quranda fironun hz. Musaya (ə.s) qarşı qurduğu bir çox tələnin də boşa çıxdığı xəbər verilmişdir. Allah fironun sonunu da bütün insanlara bir ibrət olaraq Quranda belə bildirmişdir:

**Biz İsrail oğullarını dənizdən keçirtdik. Firon və onun qoşunu zülm və düşmənçilik məqsədilə onları təqib etdilər. Nəhayət (Firon) (dənizdə) batdığı vaxt dedi: "İsrail oğullarının iman gətirdiklərindən başqa ilah olmadığına inandım. Mən də müsəlmanlardanam!" (Firona deyildi:) "İndimi? Sən ki əvvəllər asilik etmiş və fəsad törədənlərdən olmuşdun. Bu gün sənin bədənini xilas edəcəyik ki, səndən sonra gələnlərə ibrət olasan". Həqiqətən də insanların çoxu ayələrimizdən xəbərsizdir. (Yunis surəsi, 90-92)**

Yuxarıdakı ayələrdən aydın olduğu kimi, firon heç ümid etmədiyi bir sonla qarşılaşmışdır. Qarşısında nəhəng dalğaları gördükdə vəziyyətin ciddiliyini fərq etmiş, Allah'dan başqa İlah olmadığını anlamış və tək sığına biləcəyi gücün Allah olduğunu dərk etmişdir. Belə ki, bütün ömrünü təkəbbür və Allah'a üsyan ilə keçirən firon ilk dəfə o an Allah'a sığınma ehtiyacı duymuşdur. Lakin bunun səmimi təslimiyyət olmadığına, çətin anda göstərilən rəftar olduğuna görə Allah qəbul etməmişdir. Çünki təhlükə və ya çətin anlarda Allah'a sığınmaq və daha sonra əvvəlki nankorluqlarına geri dönmək din əxlaqını yaşamayan insanların əhəmiyyətli bir xüsusiyyətidir. Onlar bütün həyatlarını üsyan içində keçirib, bir bəla ilə qarşılaşdıqları anda tövbə edərək xilas ola biləcəklərini zənn edirlər. Lakin Allah onların bu planlarını boşa çıxarar.

Gücün, qüdrətin, böyüklüyün Allah'a aid olduğunu anlayan fironun vəziyyəti də bundan fərqli deyil. O an təslim olduğunu deməklə bağışlanacağını zənn edən firon çox yanılmışdır. Qurtulacağını ümid edərkən yalnız bədəni ilə xilas olması və bu halı ilə insanlığa ibrət olması özü üçün böyük alçaldılma olmuşdur. Allah onu sonrakı nəsillərə ibrət olması üçün alçaltmışdır. Dünya həyatında Misirin hakimi olan, saraylarda yaşayan, əmrində saysız köləsi və əsgəri olan, böyük güc və zənginlik sahibi fironun bu gücü özünü azğın dalğalardan qurtarmağa çatmamışdır. Bu şəkildə, dinə qarşı istehzalı və laqeyd rəftar göstərməsinin qarşılığını görmüşdür. Bu halı ilə firon lağ edən deyil, lağ edilən mövqeyindədir. Firon və yaxın ətrafının məruz qaldığı son bunun əhəmiyyətli bir göstəricisidir. Ayədə belə buyurulur:

**(Bunların əməli) firon nəslinin və onlardan əvvəlkilərin əməlinə bənzəyir. Onlar Rəbbinin ayələrini yalan hesab etdilər, biz də onları günahlarına görə məhv etdik. Firon nəslini dənizdə qərq etdik. Onların hamısı zalım idi. (Ənfal surəsi, 54)**

Bunun kimi tarixdə azğınlığı ilə bir çox məşhur cəmiyyəti də Allah bənzər vəziyyətə salmışdır. Məsələn, azğınlığı ilə məşhur Ad qövmü Allah'ın göndərdiyi əzabla həlak olmuşdur. Çox təkəbbürlü olan bu insanlar əzabın ardından içi boş xurma kötükləri kimi yerə yıxılmışlar. Bunu xəbər verən ayələrdə belə buyurulur:

**Ad (xalqına) gəlincə, onlar yer üzündə haqsızlıqla təkəbbür göstərib: "Bizdən daha qüvvətli kim ola bilər?"– dedilər. Məgər onları yaradan Allah'ın onlardan daha qüvvətli olduğunu görmürdülərmi? Onlar ayələrimizi, sadəcə, inkar edirdilər. Biz onlara dünya həyatında rüsvayçılıq əzabını daddırmaq üçün uğursuz günlərdə üstlərinə çox soyuq bir külək göndərdik. Axirət əzabı isə daha rüsvayedicidir. Onlara kömək də edilməz. (Fussilət surəsi, 15-16)**

**Ad (tayfası) isə hədsiz soyuq və şiddətli küləklə yox edildi. (Allah) onu yeddi gecə, səkkiz gün fasilə vermədən onların üstündə əsdirdi. (Sən orada olsaydın,) o tayfanı xurma ağacının yıxılmış çürük gövdələri kimi yerə sərilmiş görərdin. (Haqqə surəsi, 6-7)**

Allah inkar edənlərə dünyada müəyyən qədər möhlət verir, ancaq onlar azğınlıq və məsxərələrinə davam etdikləri təqdirdə də bu müddətin bitməsi ilə qarşılığını çox şiddətli şəkildə verir. Xüsusilə də Allah'ın elçilərinə qarşı edilən günahlar mütləq qarşılığını alır. Allah Müntəkim (intiqam alan) ismi ilə elçisinə və möminlərə qarşı edilən bu çirkin rəftarların, məsxərəçi davranışların intiqamını almış və günahkarları cəzalandırmışdır. Allah bir ayədə bu mövzunu belə xəbər verir:

**Səndən əvvəlki elçilərə də istehza edilmişdi. Mən kafirlərə möhlət verdim, sonra isə onları yaxaladım. (Bir görəydin onları) cəzalandırmağım necə oldu! (Rəd surəsi, 32)**

Başqa bir ayədə isə Allah möminlərə lağ edənlərin pis əməllərinin özlərinə mütləq zərər verəcəyini belə xəbər vermişdir:

**Onların etdikləri pis əməllər özlərinin qarşısına çıxacaq, istehza etdikləri onları bürüyəcək. (Casiyə surəsi, 33)**

Bu ana qədər izah edilənlərdən də aydın olur ki, dinə və iman edənlərə qarşı istehza edənlər Allah'ın əzabından uzaq qala bilməzlər. Azğınlıq edən, baş qaldıran, özünü üstün görən hər insan Allah'ın Quranda bildirdiyi kimi, dünyada müxtəlif bəlalarla qarşılıq görər. Üstəlik, bu, yalnız dünya həyatında verilən qarşılıqdır, axirətdə veriləcək qarşılığın daha şiddətli olduğu isə Quranda belə bildirilir:

**Sonra isə Allah'ın ayələrini yalan sayıb onlara lağlağı etməklə pislik göstərənlərin nəsibi lap yaman oldu. (Rum surəsi, 10)**

# İNKAR EDƏNLƏRİN QƏFLƏTDƏ OLDUQLARI BÖYÜK HƏQİQƏT

Əvvəlki hissələrdə vurğuladığımız kimi, inkar edənlərin din əxlaqına və inananlara qarşı məsxərəçi davranmalarının ən əhəmiyyətli səbəblərindən biri hər şeyi dünyəvi meyarlara görə qiymətləndirmələridir. Bunun səbəbi də bütün həyatlarının dünya ilə məhdud olduğunu zənn etmələri və dünyaya həvəslə bağlanmalarıdır. Din əxlaqından uzaq yaşayan insanların bu əhvalı Quranda belə bildirilmişdir:

**Qövmünün kafir olan, axirətə qovuşacaqlarını yalan hesab edən və dünya həyatında firavanlıq nəsib etdiyimiz zadəganları dedilər: "O, sizin kimi sadəcə bir insandır. Yediyinizdən o da yeyir, içdiyinizdən o da içir. Əgər siz özünüz kimi adi bir insana itaət etsəniz, mütləq ziyana uğrayarsınız. O, sizə ölüb torpağa və sür-sümüyə çevrildikdən sonra (dirildilib yenidən) çıxarılacağınızımı vəd edir? Sizə vəd olunan şey çox uzaqdır, çox uzaq! Dünya həyatımızdan başqa heç bir həyat yoxdur; ölüb dirilirik və biz dirildiləcək deyilik. (Muminun surəsi, 33-37)**

Bu həvəs səbəbindən inkar edənlər dünyanı çox yanlış dərk edirlər. Ətraflarında gördükləri şeyləri Allah'dan müstəqil görür, bütün

bunların ancaq Allah'ın diləməsi ilə varlıqlarını davam etdirə bildiklərini qavraya bilmirlər. Allah inkar edənlərin dünya həyatına aid həqiqətləri qavraya bilmədiklərini bir Quran ayəsində belə bildirmişdir:

> **Onlar dünya həyatının görünən tərəfini bilir, axirətdən isə büsbütün qafildirlər. (Rum surəsi, 7)**

İnkar edənlərin həyatları boyunca nəzərə almadıqları çox əhəmiyyətli bir həqiqət var. Onlar bu həqiqətdən xəbərsiz olaraq hər cür əxlaqsızlığı edir, dünyada özlərinə görə mənfəət əldə etməyə çalışır, yalan danışır, dinə qarşı istehza edir, inananlara böhtan atır, onlara zərər verməyə çalışırlar.

Ancaq, əslində, böyük qəflət içindədirlər və bunun şüurunda deyildirlər. Sonrakı səhifələrdə din əxlaqından uzaq insanların şüursuzca, qəflət içində yaşadıqları bu böyük həqiqət izah ediləcəkdir.

# XƏBƏRDARLIQ

Oxuyacağınız bu hissə, həyatın çox əhəmiyyətli bir sirrini izah edir. Maddi dünyaya baxışınızı kökündən dəyişdirəcək bu mövzunu çox diqqətlə və anlayaraq oxumalısınız. Burada izah edilənlər yalnız bir dünyagörüşü, fərqli bir yanaşma və ya hər hansı bir fəlsəfi düşüncə deyil, dinə inanan və inanmayan hər kəsin qəbul edəcəyi, bu gün elmin də sübut etdiyi qəti bir gerçəkdir.

# MADDƏNİN ARDINDAKI SIRR MÖVZUSU VƏHDƏTİ-VÜCUD DEYİL

Maddənin ardındakı sirr mövzusu bəzi şəxslərin etirazlarına səbəb olmuşdur. Sözügedən şəxslər bu mövzunun əsasını səhv anladıqları üçün bu mövzunun vəhdəti-vücud təlimi ilə eyni olduğunu iddia edirlər. Əvvəla, qeyd etmək lazımdır ki, bu əsərlərin müəllifi əhli-sünnə inancına çox bağlıdır və vəhdəti-vücud təliminin tərəfdarı deyil. Bundan əlavə, unutmaq olmaz ki, vəhdəti-vücud təlimi Muhyiddin ibn Ərəbi kimi böyük İslam alimləri tərəfindən müdafiə edilmişdir.

Vəhdəti-vücud düşüncəsini izah edən bir çox məşhur İslam aliminin keçmişdə bu kitablarda verilən bəzi mövzuları düşünərək izah etdikləri doğrudur. Ancaq bu əsərlərdə bəhs edilənlər vəhdəti-vücud düşüncəsi ilə eyni deyildir.

Vəhdəti-vücud düşüncəsinin tərəfdarlarından bir qismi səhv fikirlərə düşərək Qurana və əhli-sünnə inancına zidd olan bəzi iddialar irəli sürmüşlər, məsələn, Allah’ın yaratdığı varlıqları tamamilə yox hesab etmişlər. Əslində isə, maddənin ardındakı sirr mövzusu izah edilərkən qətiyyən belə bir iddia irəli sürülmür. Bu mövzu Allah’ın bütün varlıqları yaratdığını, ancaq yaratdığı varlıqların əslini Allah’ın gördüyünü, insanların isə bu varlıqların beyinlərində əmələ gələn görüntülərini gördüklərini açıqlayır.

Gördüyümüz bütün varlıqlar, dağlar, düzənliklər, çiçəklər, insanlar, dənizlər, qısaca desək, gördüyümüz hər şey Allah'ın Quranda var olduğunu, yoxdan yaratdığını bildirdiyi hər varlıq yaradılmışdır və vardır. Ancaq insanlar bu varlıqların əslini duyğu orqanları yolu ilə görə, hiss edə və ya eşidə bilməzlər. Gördükləri və hiss etdikləri, bu varlıqların beyinlərindəki surətləridir. Bu, elmi həqiqətdir və bu gün başda tibb fakültələri olmaqla, bütün məktəblərdə öyrədilən elmi mövzudur. Hal-hazırda bu yazını oxuyan insan bu yazının əslini görə bilməz, bu yazının əslinə çata bilməz. Bu yazının əslindən gələn işıq insanın gözündəki bəzi hüceyrələr tərəfindən elektrik siqnalına çevrilir. Bu elektrik siqnalı beyinin arxasındakı görmə mərkəzinə ötürülərək mərkəzə xəbərdarlıq edir və insan beyninin arxasında bu yazının görüntüsü əmələ gəlir. Yəni siz bu dəqiqə gözünüzlə önünüzdəki yazını oxumursunuz. Bu yazı sizin beyninizin arxasındakı görmə mərkəzində əmələ gəlir. Sizin oxuduğunuz yazı beyninizin arxasındakı yazı surətidir. Bu yazının əslini isə Allah görür.

Beləliklə, maddənin beynimizdə əmələ gələn xəyal olması onun yox olduğu demək deyil. Ancaq bizə insanın təmasda olduğu maddənin mahiyyəti haqqında məlumat verir ki, bu da maddənin əsli ilə heç bir insanın təmasda olmadığı həqiqətidir.

Bu həqiqət *"İdealizm, Matriks fəlsəfəsi və Maddənin gerçəyi"* adlı kitabımızda belə ifadə edilmişdir:

### Xarici aləmdə maddə var, ancaq biz maddənin əsli ilə təmasda ola bilmərik!

Maddənin xəyal olduğunu demək, maddənin yox olduğu demək deyil. Əksinə, biz görsək də, görməsək də, maddi dünya mövcuddur. Ancaq biz bu dünyanı beynimizin içində bir surət, başqa bir sözlə, hisslərimizin ifadəsi kimi görürük. Ona görə, maddə bizim üçün xəyaldır.

Xarici aləmdəki maddənin varlığını bizdən başqa görən varlıqlar da var. Allah'ın mələkləri, katib kimi təyin etdiyi elçiləri də bu dünyaya şahidlik edirlər.

**Xatırla ki, sağında və solunda təsbit edən iki mələk oturmuşdur! Dediyi hər sözü onun yanında hazır durub gözləyən vardır! (Qaf surəsi, 17-18)**

Hər şeydən önəmlisi budur ki, Allah hər şeyi görür. Bu dünyanı hər cür incəlikləri ilə Allah yaratmışdır və Allah hər şeyi görür. Quran ayələrində belə xəbər verilir:

**... Allah'dan qorxun və bilin ki, Allah, həqiqətən, sizin nə etdiyinizi görəndir! (Bəqərə surəsi, 233)**

**De: "Mənimlə sizin aranızda təkcə Allah'ın şahid olması kifayət edir. Şübhəsiz ki, O, bəndələrindən xəbərdardır, görəndir!" (İsra surəsi, 96)**

Bundan əlavə, unutmaq olmaz ki, Allah bütün hadisələri "Lövhi-məhfuz" adlı kitabda yazmışdır. Biz görməsək də, bunların hamısı Lövhi-məhfuzda var. Hər şeyin Allah qatında Lövhi-məhfuz adlandırılan əsas kitabda qorunduğu belə bildirilir:

**Şübhəsiz ki, o, dərgahımızdakı əsl kitabda mövcuddur. O, çox ucadır, çox hikmətlidir. (Zuxruf surəsi, 4)**

**... Dərgahımızda hifz edən bir kitab vardır! (Qaf surəsi, 4)**

**Göylərdə və yerdə elə bir gizli şey yoxdur ki, açıq-aydın bir kitabda olmasın! (Nəml surəsi, 75)**

Görmə, eşitmə, iyləmə, dad bilmə, toxunma kimi duyğu orqanlarımızın hamısı bir-birlərinə bağlıdır. Xaricdə var olan obyektlərdən gələn təsirlər (səs, qoxu, dad, görünüş, sərtlik və s.) sinirlərimiz vasitəsilə beyindəki duyğu mərkəzlərinə ötürülür. Beyinə çatan təsir-

lərin hamısı elektrik siqnallarından ibarətdir. Məsələn, görmə əməliyyatı əsnasında xarici cisimdən gələn işıq fotonları gözün arxa tərəfindəki retinaya çatır və burada bir əməliyyat nəticəsində elektrik siqnallarına çevrilir. Bu siqnallar sinirlər vasitəsilə beyinin görmə mərkəzinə çatdırılır və biz də bir neçə kub santimetrlik görmə mərkəzində rəngarəng, tərtəmiz, eni, boyu, dərinliyi olan bir dünya görürük.

Eyni sistem digər hisslər üçün də əsaslıdır. Dadlar dilimizdəki bəzi hüceyrələr tərəfindən, qoxular burun epitelindəki hüceyrələr tərəfindən, toxunmağa aid hisslər (sərtlik, yumşaqlıq və s.) dəri altına yerləşdirilmiş xüsusi qəbul edicilər tərəfindən, səslər qulaqdakı xüsusi mexanizm tərəfindən elektrik siqnallarına çevrilərək beyindəki mərkəzlərə göndərilir və o mərkəzlərdə qəbul edilir.

Mövzunu daha da dəqiqləşdirmək üçün belə misallar göstərə bilərik: hal-hazırda bir stəkan qəhvə içdiyinizi düşünək. Əlinizdə tutduğunuz stəkanın sərtliyi və istiliyi dəri altındakı xüsusi qəbul edicilər tərəfindən elektrik siqnallarına çevrilərək beyinə çatdırılır. Eyni zamanda, qəhvəyə aid iti qoxu, onu içdiyimiz anda hiss etdiyiniz acı dad və stəkana baxdığınızda gördüyünüz tünd qəhvə rəngi rənglə əlaqədar duyğu orqanlarınıza aid sinirlər tərəfindən beyinə çatdırılan elektrik cərəyanıdır. Daha sonra masaya qoyarkən stəkanın şüşəyə toxunması ilə çıxan səs də qulağınız tərəfindən qəbul edilib beyinə elektrik siqnalı olaraq göndərilir və bu hisslərin hamısı beyindəki bir-birindən fərqli amma bir-biri ilə ortaq işləyən duyğu mərkəzləri tərəfindən şərh olunur. Siz də bu şərhin bir nəticəsi olaraq bir stəkan qəhvə içdiyinizi düşünürsünüz. Əslində, hər şey beyindəki duyğu mərkəzlərində baş verir.

Şübhəsiz, bu, üzərində incə düşünülməsi lazım olan çox əhəmiyyətli bir həqiqətdir. İndiyə qədər gördüyünüz hər şeyin əsli ilə təmasda olduğunuzu zənn edirsiniz. Halbuki, elmin də göstərdiyi kimi,

duyğu orqanları xaricinə çıxaraq xaricdə var olan obyektlərin əsillərinə çatmaq mümkün deyil.

Burada qısaca yekunlaşdırılan bu mövzu, həyatınızda fərqinə vara biləcəyiniz ən böyük gerçəklərdən biridir.

## Maddənin əsli ilə təmasda ola bilmərik

Bu günə qədər heç bir insan beynindəki hisslərin xaricinə çıxa bilməmişdir. Hər insan beynindəki hüceyrəsinin içində yaşayır və hisslərinin özünə göstərdikləri xaricində heç bir şey yaşaya bilməz. Bu səbəbdən, hisslərinin xaricindəki dünyada nələr olduğunu heç bir zaman bilə bilməz. Bu səbəblə bir insanın maddənin əslini bildiyini deməsi böyük bir ön fikir olar, çünki heç bir insanın buna gətirə biləcəyi tək bir dəlil də yoxdur. İnsan yalnız beynində yaranan xəyal ilə təmasda olar. Məsələn, rəngarəng çiçəklərlə bəzənmiş bir bağçanı gəzən bir insan, əslində, bu bağçanın əslini deyil, beynindəki surətini görür. Ancaq bu bağça o qədər həqiqidir ki, hər insan xəyalında yaranan bu bağçadan həqiqətən varmış kimi eyni zövqü alır. Hətta bu günə qədər milyardlarla insan bu bağça kimi gördüyü hər şeyin əslini gördüyünü zənn etmişdir.

Bunu da ifadə etməliyik ki, texnologiyanın və ya elmin irəliləməsi də bu mövzuda hər hansı bir dəyişikliyə səbəb ola bilməz. Çünki hər bir elmi nailiyyət və ya texnoloji inkişaf yenə insanların beyinlərində meydana gələcək, bu səbəbdən, bu üsulla da xarici dünyaya çatmaq mümkün ola bilməyəcək. Təmasda olduğumuz tək dünya, zehnimizin içində olan, orada çəkilən, səsləndirilən və rəngləndirilən, qısacası, zehnimizdə meydana gələn dünyadır.

Beynimizdə izlədiyimiz bu hisslər bəzən süni bir qaynaqdan da gələ bilər. Bunu belə bir misalla zehnimizdə canlandıra bilərik:

Əvvəl, beyninizi bədəninizin xaricinə çıxarıb, şüşə bir qabın içində süni olaraq yaşatdığımızı düşünək. Bir də yanına hər cür elek-

trik siqnalını qəbul edə bilən bir kompyuter yerləşdirək. Sonra hər hansı bir mühitə aid görünüş, səs, qoxu kimi məlumatların elektrik siqnallarını süni olaraq bu kompyuterdən çıxaraq və yazaq. Bu kompyuteri elektrik kabelləri ilə beyninizdəki qəbul mərkəzlərinə bağlayaq və burada qeydli olan siqnalları beyninizə göndərək. Bu siqnalları qəbul etdikcə beyniniz (siz), bunların qarşılığı olan mühiti görəcək və yaşayacaq.

Bu kompyuterdən beyninizə, öz görünüşünüzə aid elektrik siqnalları da göndərə bilərik. Məsələn, bir masada oturarkən qəbul etdiyiniz bütün görmə, eşitmə, toxunma kimi hisslər elektrik qarşılıqlarını beyninizə göndərdiyimizdə beyniniz özünü ofisində oturan bir iş adamı zənn edəcək. Kompyuterdən gələn siqnallar davam etdikcə də bu xəyali dünya davam edəcək. Yalnız bir beyindən ibarət olduğunu isə heç bir şəkildə anlaya bilməyəcək. Çünki beyinin içində bir dünyanın meydana gəlməsi üçün beyindəki əlaqə mərkəzlərə lazımı siqnalların çatması kifayətdir. Bu siqnallar süni bir qaynaqdan, məsələn, bir qeyd cihazından və ya daha fərqli bir qəbuledicidən gələ bilər.

Məşhur filosof Bertrand Russell bu mövzuda bunları deyir:

> "… Barmaqlarımızı masaya basdığımız zamankı toxunma hissinə gəlincə bu barmaq uclarındakı elektron və protonlar üzərində bir elektrik təsiridir. Müasir fizikaya görə, masadakı elektron və protonların yaxınlığından meydana gəlmişdir. Əgər barmaq uclarımızdakı eyni təsir bir başqa yolla ortaya çıxsaydı, heç bir masa olmadığına baxmayaraq, eyni şeyi hiss edəcəkdik". *(Bertrand Russell, Rölativitenin əlifbası, Qürur nəşrləri, 1974, s. 161-162)*

Hisslərin xarici dünyada var olan əsli ilə təmasda olduğumuzu zənn edərək aldanmağımız çox asandır. Necə ki, bu həqiqəti yuxularımızda tez-tez yaşayırıq. Yuxuda tamamilə gerçək kimi görünən

hadisələri yaşayır, insanlar, obyektlər, mühitlər görürük. Amma hamısı bir hissdən başqa bir şey deyil. Yuxu ilə "həqiqi" dünya arasında isə əsaslı bir fərq yoxdur. Hər ikisi də zehində yaşanır.

### Beynimiz xarici dünyadan ayrıdırmı?

Buraya qədər izah etdiyimiz kimi, xarici dünyanın əsli ilə deyil, yalnız bizə göstərilən hisslərlə təmasda ola biliriksə, bütün bunları gördüyünü, eşitdiyini düşündüyümüz beynimiz nədir? Beynimiz də digər hər şey kimi atomlardan, molekullardan ibarət deyilmi?

Xaricdəki maddənin əslinə çata bilmədiyimiz kimi, beynimizin də əslini bilə bilmərik. Yalnız hissləri bilirik. Çünki, nəticədə, beyin dediyimiz şey də duyğu orqanlarımızla qəbul etdiyimiz bir ət parçasıdır.

O halda, bütün bunları qəbul edən kimdir? Görən, eşidən, hiss edən, iyləyən, dad bilən beyin deyilsə, bəs nədir?

Məhz burada qarşımıza çıxan həqiqət açıq-aşkardır: insan şüur sahibi, görə bilən, hiss edə bilən, düşünə bilən, mühakimə edə bilən bir varlıq olaraq maddəni meydana gətirən atomlardan, molekullardan çox kənar bir varlıqdır. İnsanı insan edən Allah'ın ona verdiyi ruhdur. Əks halda, insanın şüurunu və digər bütün insani qabiliyyətlərini təxminən 1.5 kiloluq, üstəlik, xəyaldan ibarət olan bir ət parçasına vermək çox ağılsızlıq olar. Quranda bu vəziyyət belə izah edilir:

**Hansı ki, yaratdığı hər şeyi gözəl biçimdə yaratmış, insanı ilk olaraq palçıqdan xəlq etmiş, sonra onun nəslini bir damla dəyərsiz sudan əmələ gətirmiş, sonra onu düzəldib müəyyən şəklə salmış və ona Öz ruhundan üfürmüş, sizə qulaqlar, gözlər və ürək vermişdir. Siz necə də az şükür edirsiniz! (Səcdə surəsi, 7-9)**

## Bizə ən yaxın varlıq Allah'dır

Əslini heç bir zaman bilmədiyimiz xarici dünyanı ruhumuza hiss etdirən, daha doğrusu bunları heç dayanmadan yaradan kimdir?

Şübhəsiz, bu problemin cavabı çox açıqdır. İnsana ruhundan üfləyən Allah ətrafımızdakı hər şeyin yaradıcısıdır. Bu hisslərin tək qaynağı da Odur. Allah'ın yaratması xaricində hər hansı bir şeyin varlığı əsas deyil. Allah bir ayəsində hər şeyi davamlı olaraq yaratdığını, yaratmağı dayandırdığı təqdirdə isə gördüyümüz heç bir şeyin varlığını davam etdirə bilməyəcəyini belə xəbər vermişdir:

**Həqiqətən, Allah göyləri və yeri tərpənməsinlər deyə, tutub saxlayır. Əgər tərpənsələr, Ondan başqa onları heç kəs tutub saxlaya bilməz. Həqiqətən də, O, həlimdir, bağışlayandır. (Fatir surəsi, 41)**

İnsan illərdən bəri aldığı təlqinlərin nəticəsi olaraq bu həqiqəti qəbul etmək istəməyə bilər. Amma nə qədər görməzlikdən gəlsə də, eşitmək istəməsə də, həqiqət açıq-aşkardır. İnsana göstərilən bütün hisslər Allah'ın yaratması ilə həyat tapır. Üstəlik, yalnız xarici dünya deyil, insanın özünün etdiyini dediyi şeylər də ancaq Allah'ın diləməsi ilə baş verir. Bir insanın Allah'dan müstəqil hərəkət etməsi, özünə aid bir iradəyə sahib olması kimi bir vəziyyətin olması mümkün deyil. Quranda bu həqiqətə bu ayələrlə diqqət çəkilmişdir:

**Axı sizi də, sizin düzəltdiklərinizi də Allah yaratmışdır. (Saffat surəsi, 96)**

**Atdığın zaman sən atmadın, Allah atdı. (Ənfal surəsi, 17)**

Bütün bunların nəticəsində anlayırıq ki, gerçək mütləq varlıq Allah'dır. İmam Rəbbani kimi böyük İslam alimləri bu həqiqəti ifadə etmək üçün: "Var olan tək mütləq varlıq yalnız Allah'dır, Ondan başqa hər şey kölgə varlıqlardır",- demişdir. Allah göylərdə və yerdə olan hər şeyi əhatə etmişdir. Allah Quran ayələri ilə də hər yerdə ol-

duğunu, hər şeyi əhatə etdiyini xəbər vermişdir:

**Doğrudan da, onlar öz Rəbbi ilə qarşılaşacaqlarına şübhə edirlər. Həqiqətən, O, hər şeyi əhatə edir. (Fussillət surəsi, 54)**

**Məşriq də, məğrib də Allah'ındır! Hansı səmtə yönəlsəniz, Allah'ın üzü orada olar. Həqiqətən, Allah əhatə edəndir, biləndir. (Bəqərə, 115)**

**Göylərdə və yerdə nə varsa, Allah'a məxsusdur. Allah hər şeyi əhatə edir. (Nisa surəsi, 126)**

**Bir zaman Biz sənə: "Rəbbin insanları əhatə etmişdir"– demişdik. (İsra surəsi, 60)**

**Onun kürsüsü göyləri və yeri əhatə edir. Bunları qoruyub saxlamaq Ona ağır gəlmir. O, ucadır, uludur. (Bəqərə surəsi, 255)**

Allah sizi önünüzdən, arxanızdan, sağınızdan, solunuzdan, yəni hər istiqamətdən əhatə etmişdir. Hər an, hər yerdə sizə şahid olan, içinə və xaricinizə tamamilə hakim olan və sizə şah damarınızdan və ürəyinizdən daha yaxın olan yalnız sonsuz qüdrət sahibi Allah'dır.

**Biz ona şah damarından da yaxınıq. (Qaf surəsi, 16)**

**Bilin ki, Allah insanla onun qəlbi arasındadır və siz Onun hüzuruna toplanılacaqsınız. (Ənfal surəsi, 24)**

Məhz inkar edənlər bu mövzuda yanılır və əsli ilə heç bir zaman təmasda ola bilmədikləri dünyanı tək mütləq varlıq zənn edirlər. Onlar dinə və inananlara lağ edərkən və gizlənə bildiklərini zənn edərkən, əslində, Allah onları əhatə etmişdir. Məhz bu, inkar edənlərin qəflətdə olduqları ən böyük həqiqətlərdən biridir.

## Xaricdə mövcud olan maddəyə dair bildiyimiz tək şey bizə hisslərimizdir

Açıq şəkildə göründüyü kimi, "xarici" dünya ilə birbaşa təmasda olmadığımız, xarici dünyanın Allah'ın ruhumuza göstərdiyi surəti ilə təmasda olduğumuz elmi və məntiqi bir həqiqətdir. İnsanlar bunu çox düşünmək istəmirlər.

Bu mövzuda bir az səmimi və cəsur düşünsəniz, evinizin, içindəki əşyalarınızın, yeni aldığınız avtomobilinizin, ofisinizin, ləl-cavahiratlarınızın, bankdakı hesabınızın, yoldaşınızın, uşaqlarınızın, iş yoldaşlarınızın və sahib olduğunuz digər şeylərin də, əslində, gerçəkləri ilə heç bir zaman təmasda olmadığınızı hiss edərsiniz. Ətrafınızda gördüyünüz, eşitdiyiniz, qoxuladığınız, qısacası, beş duyğu orqanınızla qəbul etdiyiniz hər şey bu "nüsxə" dünyaya aiddir. Ən çox sevdiyiniz sənətçinin səsi, oturduğunuz stulun sərtliyi, qoxusu, xoşunuza gedən ətir, sizi isidən Günəş, rəngləri ilə göz oxşayan çiçək, uçan quş, dənizin üzərində sürətlə irəliləyən sürət mühərriki, bol məhsul verən bağçanız, işinizdə istifadə etdiyiniz kompyuter və ya dünyadakı ən keyfiyyətli texnologiyaya sahib musiqi dəstiniz...

Həqiqət budur, çünki dünya yalnız insanı sınamaq üçün yaradılmış bir aləmdir. İnsanlar qısa həyatları boyunca əsla gerçəyinə çata bilməyəcəkləri hisslərlə sınanırlar. Bu qəbul etdiyi hisslər isə bəzəkli və cazibədar göstərilir. Bu həqiqət Quranda belə xəbər verilmişdir:

**Qadınların, uşaqların, yığın-yığın qızıl-gümüşün, yaxşı cins atların, mal-qaranın və əkin yerlərinin verdiyi zövqlərə olan istək insanların gözünə gözəl göstərilmişdir. Bunlar, dünya həyatının keçici zövqüdür, gözəl qayıdış yeri isə Allah dərgahındadır. (Ali-İmran surəsi, 14)**

İnsanların bir çoxu sahib olduğu qızıl, gümüş və s. hər cür zənginliyin təsiri ilə dinlərini bir kənara buraxır, axirəti unudub dünyaya yönəlirlər. "İşim çoxdur", "vaxtım azdır", "sonra edərəm", - deyərək,

dünyanın bərbəzəyinə aldanıb namaz qılmır, mallarını kasıblara vermir, axirəti qazanacaq heç bir ibadəti etmirlər. Əksinə, dünyaya üz tutub onu qazanmağa çalışırlar. Bundan öncə də bildirdiyimiz "**Onlar dünya həyatının görünən tərəfini bilir, axirətdən isə büsbütün qafildirlər. (Rum surəsi, 7)"** ayəsində bu yanlış düşüncə təsvir edilir. Kitabın bu hissəsində izah etdiyimiz həqiqət isə bütün bu həvəs və bağlılıqların mənasız olduğu baxımından çox əhəmiyyətlidir. Çünki bu həqiqətin başa düşülməsi insanların mülklərinin, uşaqlarının, dostlarının və s. həyatda sahib olduğu hər şeyin kölgə varlıq olduğunu göstərir. Bu halda, bütün bunlara sərf edilən vaxt, əmək, əlbəttə ki, mənasızdır.

Belə ki, bəzi insanlar sahib olduqları şeylərlə sanki əsli ilə təmasda olurmuş kimi öyündükləri zaman, əslində, alçalırlar. Öz villasında sıxılan zənginlər, malik olduğu şeyləri hər fürsətdə dilə gətirənlər, hər kəsdən üstün olduğunu düşünənlər, geyimlərini insanlara göstərənlər, həyatını belə həvəslər üzərinə quranlar və bütün bunlarla göstəriş etdiklərini düşünənlər beyinlərindəki görüntü ilə göstəriş etdiklərini bilərkən nə vəziyyətə düşəcəklərini düşünməlidirlər.

Əslində, bunların bənzərini yuxuda da tez-tez görürlər. Yuxuda yüksək mövqesi olur, böyük iş yeri olur, hamının heyran olduğu paltar geyinir və s. Yuxuda sahib olduqları ilə öyünmək onları gülünc vəziyyətə saldığı kimi, dünyada təmasda olduqları görüntülərlə öyünmək də elədir. Yuxuda gördükləri və bu dünyada təmasda olduqları nəticə etibarilə beyindəki görüntüdən ibarətdir. Əlbəttə ki, bu həqiqəti dərindən düşünmək lazımdır. Ayədə də ifadə edildiyi kimi, bu həqiqətin fərqinə varanlar qazanacaq:

> **De: "Rəbbinizdən sizə göz qabağında olan dəlillər gəlmişdir. Kim (onları) görsə, (xeyri) onun özünə, kim kor olsa (zərəri) onun öz əleyhinə olar. (Ənam surəsi, 104)**

Bunun kimi, dünyadakı hadisələrə göstərdikləri reaksiyalar da həqiqəti anladıqlarında insanları utandıracaq. Qəzəblə qovğa edənlər, dələduzluq edənlər, rüşvət alanlar, yalan danışıb insanları incidənlər, onları döyüb-söyənlər, gözü dönmüş təcavüzkarlar, həsəd edənlər və digərləri bunların əsli ilə təmasda olmadıqları bir dünyada etdiklərini fərq etdiklərində rəzil olacaqlar.

Bilmək lazımdır ki, bütün kainatı yaradan və onu hər insana ayrı-ayrı göstərən Allah olduğuna görə, bu dünyadakı bütün mülkün gerçək sahibi də yalnız Allah'dır. Belə ki, bu həqiqət Quranda belə xəbər verilir:

**Göylərdə və yerdə nə varsa, Allah'a məxsusdur. Allah hər şeyi əhatə edir. (Nisa surəsi, 126)**

Əsli ilə təmasda olunmayan həvəslər uğrunda din əxlaqını bir kənara buraxmaq və bunun nəticəsində sonsuz həyatı itirmək çox böyük ağılsızlıqdır. Allah onların bu vəziyyətini belə təsvir edir:

**Onlar, axirətdə özləri üçün oddan başqa heç bir şeyi olmayan kimsələrdir. Onların dünyada gördükləri işlər boşa çıxar və tutduqları əməllər puç olar. (Hud surəsi, 16)**

Ayədə də bildirildiyi kimi, bu insanların həm bütün həvəsləri boşa çıxmış, həm də sahib olduqlarını zənn etdikləri şeylər bu həqiqətin qarşısında əllərindən getmiş, özlərinə bir fayda verməmiş və etibarsız olmuşdur.

Bu mövzuda bu xüsus yaxşı başa düşülməlidir: qarşıdakı həqiqət o demək deyil ki, bütün bu sahib olduğunuz və arzuladığınız zənginlik, uşaqlar, dostlar, məqam-mövqe bir gün yox olacaq və buna görə də heç bir mənası yoxdur. Bu, o deməkdir ki, sahib olduqlarınızın heç birinin əsli ilə təmasda olmursunuz və hər şey beyninizdə izlədiyiniz hisslərdən ibarətdir, Allah sizi bu görüntülərlə sınayır. Diqqət yetirsəniz, ikisinin arasında çox böyük fərq var.

İnsan bu həqiqəti qəbul etmək istəməsə və bütün sahib olduqlarını var qəbul edərək özünü aldatsa belə, nəticədə, öldükdən sonra yenidən dirildiyi zaman, yəni axirətdə hər şey çox dəqiq ortaya çıxacaq. O gün insanın görüş gücü itiləşəcək (Qaf surəsi, 22) və hər şeyi çox daha aydın dərk edəcək. Amma əgər dünyadakı həyatını xəyali məqsədlər uğrunda keçirmişsə, orada heç yaşamamasını diləyəcək, ayədə bildirildiyi kimi: **“Kaş o (ölüm) qəti olaydı! Mal-dövlətim mənə heç bir fayda vermədi. Mülküm də məhv olub getdi!”** - deyərək həlak olacaq. (Haqqə surəsi, 27-29)

Ağıllı bir insana düşən isə bu ən böyük həqiqəti vaxt var ikən qavramağa çalışmaqdır. Əks halda, bütün ömrünü xəyallar uğrunda yaşayıb sonda böyük ziyana düşər. Allah dünyada xəyallar (ya da ilğımlar) arxasınca qaçıb yaradıcımızı unudan bu insanların son vəziyyətini belə bildirir:

**Kafirlərin əməlləri səhradakı ilğıma bənzəyir ki, susamış kimsə onu su hesab edər. Ona yaxınlaşdıqda isə onun heç nə olduğunu görər. O, öz yanında Allah’ı tapar. O da onun cəzasını verər. Allah tez haqq-hesab çəkəndir. (Nur surəsi, 39)**

## İnkar edənlər tarixin ən böyük tələsinə düşüblər

Maddənin əsli ilə təmasda olmadığımız həqiqəti müasir elm tərəfindən isbat edilmiş və çox açıq şəkildə ortaya qoyulmuşdur. İnkar edənlər kor-koranə inandıqları, bel bağladıqları, güvəndikləri maddi dünyanın, əslində, heç bir zaman çata bilməyəcəklərini görür və buna qarşı heç bir şey edə bilmirlər.

İnsanlıq tarixi boyunca inkarçı zehniyyət həmişə var olmuş və onlar müdafiə etdikləri fəlsəfədən əmin şəkildə özlərini yaradan Allah’a baş qaldırmışlar. Ortaya atdıqları elmdən kənar ssenariyə görə, maddə əzəli və əbədi idi və bütün bunların bir yaradıcısı ola bilməzdi. Onlar yalnız qürurlarından dolayı Allah’ı rədd edərkən tə-

masda olduqlarını zənn etdikləri maddənin ardına sığınmışlar. Bu fəlsəfədən elə əmin idilər ki, heç bir zaman bunun əksini isbat edəcək bir izah gətirilə bilməyəcəyini düşünürdülər.

Halbuki, maddənin əsli ilə əlaqədar olaraq bu kitabda izah edilən həqiqətlər onları böyük qarışıqlığa salmışdır. Çünki burada izah edilənlər fəlsəfələrini yox etmişdir. Bütün düşüncələrini, həyatlarını, kibir və inkarlarını üzərinə qurduqları maddə əllərindən bir göz qırpımında uçub getmişdir.

Allah'ın bir ismi, inkarçılara tələ qurmasıdır. **"... Bir zaman kafirlər səni həbs etmək, öldürmək və ya (yurdundan) qovmaq üçün sənə qarşı hiylə qururdular. Onlar hiylə işlətdilər, Allah da hiylə işlətdi. Allah hiylə işlədənlərin ən yaxşısıdır.** (Ənfal surəsi, 8) ayəsi ilə bu həqiqət məhz belə bildirilir.

Məhz Allah dünyanı mütləq varlıq zənn etdirərək inkar edənləri tələyə salmış və onları tarixdə bənzəri görülməmiş şəkildə kiçiltmişdir. Malı, mülkü, mövqeni, içində olduqları cəmiyyəti, bütün dünyanı mütləq varlıq zənn etmişlər, üstəlik, bunlara inanaraq Allah'a qarşı böyüklənmişlər. Lovğalanıb Allah'a üsyan etmiş və inkar etmişlər. Bunları edərkən güc aldıqları tək şey maddənin mütləq olması inancı olmuşdur. Amma elə bir vəziyyətə düşüblər ki, Allah'ın özlərini ətraflı əhatə etdiyini heç düşünməmişlər.

Bu, bəlkə də tarixin gördüyü ən böyük məğlubiyyətdir. İnkar edənlər dinə və iman edənlərə lağ edərkən aldanmış, Allah'a qarşı çirkin cəsarət göstərdiklərinə görə məğlub olmuşlar.

**Yoxsa bir hiylə qurmaq istəyirlər? Amma kafirlər özləri o hiylənin qurbanı olacaqlar. (Tur surəsi, 42)**

**Beləliklə, hər bir ölkədə oranın günahkarlarını başçılar təyin etdik ki, onlar orada yaramaz işlər görsünlər. Halbuki, onlar o yaramaz işləri yalnız özlərinə qarşı edirlər və hiss etmirlər. (Ənam surəsi, 123)**

Bu ayə yaradıcımız olan Allah'a baş qaldıran inkarçıların düşüncəsiz olduqlarından və qarşılaşacaqları sondan xəbər verir.

İnkarçılar tələ qurmağa cəhd edərkən ayədəki "hiss etmirlər" ifadəsi ilə açıqlandığı kimi, əhəmiyyətli bir həqiqətin fərqində deyillər: gördükləri bütün hadisələrin, əslində, zehinlərində reallaşdığını və qurduqları tələlərin də zehinlərində olduğu həqiqətini... Bunu anlamadıqlarına görə, Allah'la tək olduqlarını unudub özləri hiyləyə düşmüşlər.

Hər dövrdə Allah inkar edənlərin bütün hiylələrini boşa çıxarmışdır. Allah **"... heç şübhəsiz, şeytanın hiyləli-nizamı çox zəifdir"** (Nisa surəsi, 76) ayəsi ilə bu hiylələrin boşa çıxacağını xəbər vermişdir. Möminləri də "... **Onların qurduqları hiylə sizə heç bir zərər verə bilməz..."** (Ali-İmran surəsi, 120) ayəsi ilə müjdələmişdir.

Allah başqa bir ayədə: "**Kafirlərin əməlləri səhradakı ilğıma bənzəyir ki, susamış kimsə onu su hesab edər. Ona yaxınlaşdıqda isə onun heç nə olduğunu görər. O, öz yanında Allah'ı tapar", -** deyə xəbər verir (Nur surəsi, 39). İnkarçı düşüncə bu ayədə işarə edildiyi kimi, üsyançılara və dünya həyatını dinə lağ edərək keçirənlərə ilğım meydana gətirər. Ona güvənib əllərini uzatdıqlarında bu fəlsəfənin hiylə olduğunu anlayarlar. Allah onları belə bir ilğımla aldatmış, maddəni mütləq varlıq kimi göstərmişdir. "Böyük" insanlar, professorlar, astronomlar, bioloqlar, fiziklər, vəzifə və mövqeləri hər nə olursa olsun, maddəni özlərinə saxta ilah etdiklərinə görə bu oyuna gəlmiş, uşaq kimi aldanıb alçalmışlar. Heç bir zaman əslinə çata bilmədikləri maddəni mütləq sanaraq onun üzərinə fəlsəfələrini, ideologiyalarını qurmuş, haqqında ciddi müzakirələr etmiş, təhqiramiz izahlar vermişlər. Bütün bunlardan ötrü də özlərini çox ağıllı hesab etmişlər. Kainatın həqiqəti haqqında fikir irəli sürəcəklərini düşünmüş və ən əhəmiyyətlisi öz məhdud ağılları ilə Allah'ı şərh edə

biləcəklərini sanmışlar. Allah onların içinə düşdüyü bu vəziyyəti bir ayədə belə bildirir:

**Onlar hiylə qurdular, Allah da hiylə qurdu. Allah hiylə quranların ən yaxşısıdır. (Ali-İmran surəsi, 54)**

Dünyada bəzi tələlərdən xilas olmaq mümkün ola bilər. Ancaq Allah'ın inkar edənlərə qurduğu bu tələ elə möhkəmdir ki, əsla qurtuluş imkanları qalmamışdır. Nə etsələr də, kimə müraciət etsələr də, özlərinə Allah'dan başqa xilas edən köməkçi tapa bilməzlər.

**Onlar Allah'dan başqa özlərinə nə bir himayədar, nə də bir yardımçı tapacaqlar. (Nisa surəsi, 173)**

Şübhəsiz, bu həqiqəti dərk etmək azğın inkarçılar üçün ən dəhşət verici hadisədir. Çünki çox inandıqları maddənin özlərindən aşılmaz sərhədlə ayrılması onlar üçün hələ dünyada ikən ölüm hökmündədir.

Bu həqiqətlə birlikdə bir Allah, bir də özləri qalmışdır. Belə ki, Allah "**Məni yaratdığım kimsə ilə tək burax"** (Müddəssir surəsi, 11) ayəsi ilə hər insanın Öz qatında, əslində, tənha olduğu həqiqətinə diqqət çəkmişdir. Bu fövqəladə həqiqət bir çox ayə ilə xəbər verilmişdir:

**Hüzurumuza ilk dəfə sizi xəlq etdiyimiz kimi tək-tənha, həm də sizə verdiyimiz (nemətləri) arxanızda qoyub gəldiniz. (Ənam surəsi, 94)**

**Onların hər biri qiyamət günü Onun hüzuruna tək-tənha gələcək. (Məryəm surəsi, 95)**

Bu ayələrdə izah edilən həqiqətin bir mənası da budur: maddəni ilah edənlər, dini inkar edərək Allah'ın ayələrinə lağ edənlər, Allah'dan gəlmiş və yenə Ona dönmüş, ya da dönməyi gözləyirlər. Onlar istəsələr də, istəməsələr də, Allah'a təslim olmuşlar. İndi hər kəs kimi hesab gününü gözləyirlər və o gün hamısı tək-tək sorğuya çəkiləcəklər. Anlamaq istəməsələr də...

## NƏTİCƏ

İnkarçılar çox əhəmiyyətli bir həqiqəti də bilməlidirlər: onlar iman edənlərə lağ edərkən və ya müxtəlif əxlaqsız hərəkətlərlə onlara zərər verməyə çalışarkən, əslində, Allah'ın onlara yazdığı qədərə təslim olmuşlar. İstifadə etdikləri istehzalı hər söz, çirkin hər baxış, zehinlərindən keçən inkar dolu hər düşüncə, qurduqları hər plan Allah'ın təyin etdiyi qədərin bir parçasıdır. İnkarçılar şüurunda olmasalar da, Allah'a boyun əymişlər və Allah'ın əmrinə uyğun olaraq dünyada möminlərə xidmət edirlər. Din əxlaqını yaşayan insanlara lağ edərkən inananlar bu hərəkətlərə qarşı səbir göstərir və Allah'a olan bağlılıqları səbəbindən şərəfli bir mövqeyə, Allah'ın sonsuz gözəllikdəki cənnətlərinə layiq görülürlər.

İnkarçılar isə heç bir zaman əslinə çata bilmədikləri dünyanın əsli ilə təmasda olduqlarını zənn edərək alçalırlar. Bir gün eynilə yuxudan oyanan kimi oyanacaq və qəflətən bu böyük həqiqəti görəcəklər. Yer üzündə demək olar ki, bir göz qırpımı qədər qaldıqlarını anlayacaq və içində olduqları inkarın peşmançılığını yaşayacaqlar. Hesab günündə o günə qədər söylədikləri istehzalı sözlər, kinayəli baxışlar, məsxərəçi hərəkətlər bir-bir qarşılarına çıxarılacaq. Hətta öz bədən üzvləri də əleyhlərinə şahidlik edəcək. Allah bu həqiqəti Quranda belə xəbər vermişdir:

**O gün, öz dilləri, əlləri və ayaqları əleyhlərində şahidlik edəcəklər. O gün Allah layiq olduqları cəzanı əskiksiz verəcək və onlar da Allah'ın, heç şübhəsiz, haqq olduğunu biləcəklər. (Nur surəsi, 24-25)**

# MƏSXƏRƏÇİ İNSANLARIN AXİRƏTDƏ GÖRƏCƏKLƏRİ QARŞILIQ

Dinlərini oyun və əyləncə mövzusu edən, müqəddəs dəyərlərə qarşı ağılsız şəkildə lağ edən insanların görəcəkləri qarşılıq yalnız dünyadakılarla bitməz. Quranda bildirildiyi kimi, onları əsl axirət qarşılığı gözləyir. Allah möminləri necə cənnətlə müjdələyirsə, eyni şəkildə, inkarçıları da əzabla təhdid edir.

Hər kəsin dünya həyatında etdiklərinə görə bir-bir hesaba çəkiləcəyi din günü gəldikdə bu insanlar, əlbəttə, böyük peşmançılıq yaşayacaq və dünyada olarkən etdikləri günahların qarşılığını da mütləq alacaqlar. Bax, o gün əsl özləri lağ ediləcək vəziyyətə düşəcəklər. Çünki onlar bu günləri ilə qarşılaşacaqlarına inanmamış, üsyan etməyə davam etmişlər. Lakin artıq qaça biləcəkləri yer yoxdur. Alçaldıcı əzab özlərini gözləməkdədir. Bunun səbəbi dünyada olarkən Allah'ın ayələrinə istehza etmələridir. Ancaq cəhənnəmdə qarşılaşacaqları vəziyyətə görə, əslində, onların özünə lağ etmək lazımdır. Quranda onların bu vəziyyəti belə bildirilir:

**O, ayələrimizdən bir şey öyrəndiyi zaman ona lağ edir. Məhz belələri üçün alçaldıcı bir əzab vardır. Qarşıda onları cəhənnəm gözləyir. Nə qazandıqları şeylər, nə də Allah'dan başqa tutduqları himayəçilər onları qurtara bi-**

**ləcəklər. Onları böyük bir əzab gözləyir. (Casiyə surəsi, 9-10)**

Göründüyü kimi, dünyada olarkən çirkin cəsarətlə dinə lağ etməyə çalışan bu insanlar fərqində olmadan böyük bir tələyə düşürlər. Onlar üçün əzab hazırlanmış və Allah dünyada olarkən etdikləri hər şeyi öz əleyhlərinə çevirmişdir. Din və möminlərə lağ etməklə etdikləri pisliklər özlərinə qayıtmışdır. Beləliklə, üstün olmaq istəyərkən və böyüklük iddiasında ikən alçaldıcı vəziyyətə düşmüşlər. Allah bir çox Quran ayəsi ilə bu acı sonu insanlara xatırlatmışdır:

**Onların qazandıqları pis əməllər öz qarşılarına çıxacaq və istehza etdikləri onları bürüyəcəkdir. (Zumər surəsi, 48)**

**Onlara törətdikləri əməllərin pis cəzası nəsib oldu və istehza etdikləri onları ağuşuna aldı. (Nəhl surəsi, 34)**

Dünyada Allah'ın ayələrinə, elçilərinə və möminlərə lağ edənlər etdiklərinin qarşılığı olaraq cəhənnəm atəşi ilə əhatə olunacaqlar. Beləliklə, dinə qarşı göstərdikləri istehzalı rəftarın acı qarşılığını görəcəklər. İbrət verici bir başqa mövzu isə bu insanlar üçün hazırlanan cəhənnəm əzabının sonsuz olmasıdır. Çünki onlar axirəti və hesab gününü görməzlikdən gəlib unutduqları kimi, din günü gəldiyində də onlar unudulacaq və Allah'ın rəhmətindən uzaq olacaqlar. Şübhəsiz, bu, bir insanın qarşılaşa biləcəyi ən qorxunc aqibətdir. Bu həqiqət Quranda belə izah edilir.

**Onların etdikləri pis əməllər özlərinin qarşısına çıxacaq, istehza etdikləri onları bürüyəcək və (onlara) deyiləcəkdir: "Siz bu gününüzlə qarşılaşacağınızı unutduğunuz kimi, Biz də bu gün sizi unudacağıq. Sizin sığınacaq yeriniz cəhənnəmdir. Sizin köməkçiləriniz də olmayacaqdır. Bu ona görədir ki, siz Allah'ın ayələrini məsxərəyə qoyur-**

**dunuz və dünya həyatı sizi aldatmışdı". Bu gün onlar oradan çıxarılmayacaq və onlardan tövbə etmələri tələb olunmayacaqdır. (Casiyə surəsi, 33-35)**

## Möminlər də axirətdə inkarçılara lağ edəcəklər

Bu hissəyə qədər inkarçıların, müşriklərin, münafiqlərin və ya din əxlaqını yaşamayan insanların təkəbbürləri səbəbindən dinə, elçilərə və möminlərə lağ etdiklərindən və bunu vərdiş halına gətirdiklərindən danışıldı. Həqiqətən də tarix boyunca cahiliyyə insanları möminlərə çətinlik vermək, onların şövqlərini qırmaq, mübarizələrində onlara mənfi təsir etmək məqsədi ilə məsxərəyə əl atmışlar. Ancaq onların nəzərə almadıqları əhəmiyyətli bir həqiqət vardır. Zamanı gəldiyində möminlər də onlara lağ edəcəklər.

Bütün insanların dünyada etdikləri ilə sorğu-sual ediləcəyi hesab günü reallaşacaq qəti bir vəddir. O gün heç bir insana geri qayıtma imkanı yoxdur və hər kəs etdiklərinin qarşılığını mütləq alacaqdır. Bax, o gün gəldikdə Allah'a və elçisinə bağlı olan, onların göstərdiyi yolla gedənlər, yəni möminlər, Allah'ın onlar üçün yaratdığı nemətlərlə dolu cənnətə girəcəklər və Allah'ın diləməsi xaricində sonsuza qədər orada qalacaqlar. Allah'a və elçisinə üsyan edən, Onun dini və elçilərinə lağ edən, inananları istehzalı sözlərlə və təhqirlərlə incitməyə çalışanlar isə hər cür əzabın mövcud olduğu cəhənnəmə girəcəklər və bütün zaman boyunca onun içində qalacaqlar. Bu səbəbdən, o gün möminlərin inkarçılara lağ edəcəyi gün olacaqdır. Çünki onlar möminlərə lağ edərkən bu etdiklərinə görə hesab verəcəklərini və bunun nəticəsində sonsuza qədər cəzalandırılacaqlarını düşünməmişlər. Yalnız dünya həyatını yaşayacaqlarını, təkrar dirilməyəcəklərini zənn etmiş, axirətin varlığını ya inkar etmiş, ya da uzaq görmüşlər. Bunlara görə cəza alacaqlarını isə heç ağıllarına belə gətirməmişlər. Özlərinə deyiləndə də buna lağ etmişlər. Bununla da

qalmamış, din əxlaqını yaşayan, Allah'a təslim olan, Qurandakı gözəl əxlaqı mənimsəyən insanlara əks cəbhə almış, hər fürsətdə onları kinayəli ifadələrlə təhqir etmişlər. Lakin axirət günü gəldikdə möminlərin doğru yolda olduqları aydın olacaq, əsl məsxərə mövzusu olanların isə inanmayanlar olduğu ortaya çıxacaqdır. Çünki bu şəkildə davranaraq yalnız özlərinə pislik etmiş və sonsuz həyatlarını məhv etmişlər.

Allah'ın cəhənnəmdə verəcəyi əzab çox şiddətli olacağı üçün daha əvvəl yaşamadıqları çətinliklər və əzablar onları gözləyir. Buna qarşı möminlər isə bənzəri görülməmiş bir gözəllik və nemətlə mükafatlandırılacaqlar. İnkarçıların dünyada lağ etdikləri o insanlar sonsuza qədər nemət yurdu olan cənnətlərdə qarşılanacaqlar. Hər iki tərəf də bir-birini görəcək və Allah'ın ədalətinə şahid olacaqlar. Quranda o mühit belə təsvir edilmişdir:

**Bu gün məhz iman gətirənlər kafirlərə güləcəklər. Onlar taxtlar üstündə baxacaqlar. Kafirlər törətdiklərinin cəzasını aldılarmı?! (Mutəffifin surəsi, 34-36)**

Ancaq bir daha ifadə etmək lazımdır ki, o gün Allah'ın ədaləti tam təcəlli edəcəkdir. Çünki Allah bu insanlara dünyada öyüd ala biləcəkləri qədər möhlət vermiş, onları axirətin və hesab gününün yaxınlığı ilə xəbərdar etmişdir. Ancaq onlar buna baxmayaraq, vicdanlı davranmamış və məsxərəyə davam etmişlər. Quranda bu həqiqət belə xəbər verilir:

**Sizə vermədiyimiz imkanları Biz onlara vermişdik. Onlara qulaq, göz və qəlb vermişdik. Lakin nə qulaqları, nə gözləri, nə də qəlbləri onlara heç bir fayda vermədi. Çünki onlar Allah'ın ayələrini inkar edirdilər. Onları ələ saldıqları bürüdü. (Əhqaf surəsi, 26)**

Göründüyü kimi, özlərinə dünyada bir çox fürsətlər verilən bu insanlar bundan yaxşı istifadə etmədikləri və məsxərəçi rəftarlarına

davam etdikləri üçün bu vicdansızlıqlarının cəzasını çəkməyə məhkumdurlar.

Möminlərə lağ edən bu insanlar axirətdə möminləri görüb çox böyük çaşqınlıq yaşayacaqlar. Özləri etdiklərinə görə cəhənnəmə göndərilərkən dünyada olarkən səhv yolda olduqlarını zənn etdikləri möminləri də orada görmək istəyəcəklər və o an yanıldıqlarının fərqinə varacaqlar. Onlar möminlərə gülərkən, onlara lağ edərkən bir anda özləri alçaq vəziyyətə düşmüş və lağ ediləcək hala gələcəklər. Aşağıdakı ayədə onların bu əzablı vəziyyəti belə izah edilir:

**(Günahkarlar) deyəcəklər: "Bizə nə olub ki, pis adamlar saydığımız kişiləri burada görmürük? Biz onları məsxərəyə qoyurduq. Nə isə onlar gözə dəymirlər?" Şübhəsiz ki, bu, od sakinlərinin bir-biri ilə höcətləşməsi bir həqiqətdir. (Sad surəsi, 62-64)**

Möminlərin cənnətdə olması inkar edənlərə böyük bir zərbədir. Çünki cənnət Allah'ın möminlər üçün hazırladığı, içində sonsuza qədər yaşanacaq olan mükəmməl bir mühitdir. Orada nemətlərin hər çeşidi var. Bu fövqəladə mühit inkarçılara göstərildikdə, möminlərin belə gözəl bir yerdə qarşılanması onları çaşqın hala salar. Halbuki, hər kəs yalnız dünya həyatında etdiyinin qarşılığını almışdır. Allah Quranda haqlının haqsızdan ayrılacağı o böyük günü belə təsvir edir:

**Zalımların qazandıqları özlərinə qarşı çevrildikdə onları bunun qorxusundan titrəyən görəcəksən. İman gətirib yaxşı işlər görənlər isə cənnət bağçalarında (məskunlaşacaqlar). Rəbbinin yanında onlar üçün istədikləri hər şey hazırlanmışdır. Böyük lütfkarlıq da elə budur. (Şura surəsi, 22)**

Beləliklə, Allah zamanı gəldiyi zaman həm dünya həyatında möminlərlə lağ edən inkarçılara etdiklərinin qarşılığını verir, həm də

möminləri səbir etdikləri üçün mükafatlandırır. Allah Quranda bu həqiqəti belə bildirir:

**Tərəziləri yüngül gələnlər isə özlərini ziyana uğradanlardır. (Onlar) cəhənnəmdə əbədi qalacaqlar. Od onların üzünü yandıracaq. Onlar orada qıc olmuş vəziyyətdə qalacaqlar. Məgər Mənim ayələrim sizə oxunmurdumu, siz də onları yalan hesab etmirdinizmi? Onlar deyəcəklər: "Ey Rəbbimiz! Bədbəxtliyimiz bizə üstün gəldi və biz doğru yoldan azan bir camaat olduq. Ey Rəbbimiz! Bizi oradan çıxart! Əgər bir də qayıtsaq, həqiqətən də zalım olarıq". (Allah) buyuracaq: "Orada alçalmış vəziyyətdə qalın və Mənə heç nə deməyin! Həqiqətən, qullarımdan bir zümrə var idi ki, onlar: "Ey Rəbbimiz! Biz iman gətirdik. Bizi bağışla, bizə rəhm et! Sən rəhm edənlərin ən yaxşısısan!"– deyirdilər. Siz isə onları məsxərəyə qoyurdunuz. Sonda bu (məsxərə) Məni yada salmağı belə sizə unutdurdu. Siz onlara gülürdünüz. Bu gün Mən səbir etdiklərinə görə onları mükafatlandırdım. Şübhəsiz ki, uğur qazananlar da onlardır!" (Muminun surəsi, 103-111)**

# NƏTİCƏ

Kitab boyunca izah edilənlərdən aydın olur ki, istehza Allah'ın razı olmadığı, möminlərin çəkindiyi və inkar edənlərə xas davranış formasıdır. Ancaq Quran əxlaqını yaşamayıb cahiliyyə əxlaqını seçən insanlar, bu səbəbdən, özlərini çıxılmaz hala salırlar. Hər an lağ edilmə, alçaldılma, insanların kinayə dolu baxışlarına məruz qalma kimi qorxularla yaşayırlar. Belə bir mühitdən gerçək mənada xilas ola bilmələrinin tək yolu isə Allah'dan qorxub çəkinmək və Onun əmr etdiyi Quran əxlaqını yaşamaqdır.

Bu kitabda toxunulan mövzulardan bir başqası da cahiliyyə cəmiyyəti insanlarının dinə və möminlərə qarşı istehza etmələridir. İnkarçılar bu rəftarları ilə özlərini ucaltdıqlarını və buna görə hər hansı bir zərər görməyəcəklərini zənn edə bilərlər. Lakin kitab boyunca izah edildiyi kimi, Allah'ın dininə, elçilərinə və möminlərə qarşı istehza edənlər bilməlidirlər ki, bu çirkin hərəkətlərə son verib tövbə etmədikləri təqdirdə, dünyada və axirətdə bunun qarşılığını mütləq alacaqlar. Üstəlik, bu, şiddətli bir qarşılıq olacaq. Din əxlaqından uzaq insanlar Allah'ın özlərini hər an eşitdiyini və hər an gördüyünü unutmamalıdırlar. Onlar istehzalı söz işlədərkən və ya ürəklərindən kinayə dolu düşüncə keçirərkən Allah onlara şahiddir və bütün sözləri, davranışları və düşüncələri hesab günü onlara göstəriləcəkdir:

**Məgər, Allah'ın göylərdə və yerdə olan hər şeyi bildiyini görmürsən? Üç nəfərin arasında gedən elə bir xəlvəti söh-**

**bət yoxdur ki, dördüncüsü, beş nəfərin də altıncısı O olmasın. İstər bundan az, istərsə də çox olsunlar – harada olursa olsunlar, (Allah) onların yanındadır. Sonra qiyamət günü onlara nə etdiklərini xəbər verəcəkdir. Allah hər şeyi bilir. (Mübarizə surəsi, 7)**

Nəticə etibarilə, ən ağıllı davranış bu pis əxlaqdan dərhal çəkinmək və tövbə edərək bir daha dönməməkdir. Ən gözəl davranış isə Allah'a təslim olmaq, Onun dinini yaşamaq və gözəl əxlaqlı olmaqdır. Belə edənlər, şübhəsiz ki, dünyada və axirətdə qazanclı olacaqlar. Çünki Allah saleh əməl sahibi olan qullarına gözəlliyi vəd etmişdir. Ayələrdə belə buyurulur:

**Şübhəsiz ki, müttəqilər cənnət bağlarında və bulaqlar başında olacaqlar, öz Rəbbinin onlara verdiyini alacaqlar. Həqiqətən, onlar bundan əvvəl yaxşı iş görən adamlar olmuşdular. (Zariyat surəsi, 15-16)**

**Göylərdə və yerdə nə varsa, Allah'ındır. (Bu, Allah'ın) pislik edənlərə əməllərinin cəzasını verməsi, yaxşılıq edənləri isə ən gözəli ilə mükafatlandırması üçündür. (Nəcm surəsi, 31)**

# ƏLAVƏ BÖLMƏ
# TƏKAMÜL YALANI

Darvinizm, yəni təkamül nəzəriyyəsi yaradılış həqiqətini inkar etmək məqsədilə irəli sürülmüş, ancaq uğursuzluqla nəticələnmiş elmdən kənar cəfəngiyatdan başqa bir şey deyil. Canlıların cansız maddələrdən təsadüfən əmələ gəldiyini iddia edən bu nəzəriyyə kainatda və canlılarda çox möcüzəvi nizam olduğunun elm tərəfindən sübut edilməsi ilə və təkamül prosesinin əsla baş vermədiyini göstərən 350 milyona yaxın fosilin tapılması ilə süqut etmişdir. Beləliklə, Allah'ın bütün kainatı və canlıları yaratdığı elm tərəfindən də sübut edilmişdir. Bu gün təkamül nəzəriyyəsini dirçəltmək üçün dünya səviyyəsində aparılan təbliğat sadəcə elmi həqiqətlərin təhrif olunmasına, tərəfli şərhinə, elm adı altında söylənilən yalan və saxtakarlıqlara əsaslanır.

Ancaq bu təbliğat həqiqəti gizlətmir. Təkamül nəzəriyyəsinin elm tarixində ən böyük xəta olması son 20-30 il ərzində elm dünyasında getdikcə daha ucadan dilə gətirilir. Xüsusilə 1980-ci illərdən sonra aparılan tədqiqatlar darvinist iddiaların tamamilə səhv olduğunu üzə çıxarmış və bu həqiqət bir çox elm adamı tərəfindən dilə gətirilmişdir. ABŞ-da biologiya, biokimya, paleontologiya kimi fərqli sahələrlə məşğul olan bir çox elm adamı darvinizmin əsassızlığını görür, canlıların mənşəyini artıq yaradılışla açıqlayırlar.

Təkamül nəzəriyyəsinin süqutundan və yaradılış dəlillərindən

digər bir çox əsərimizdə bütün elmi təfərrüatları ilə bəhs etmişik və etməyə davam edirik. Ancaq əhəmiyyəti baxımından mövzudan burada da bəhs etməkdə fayda var.

## Darvini məhv edən çətinliklər

Təkamül nəzəriyyəsi tarixi qədim yunanlara gedib çıxan bir təlim olmasına baxmayaraq, XIX əsrdə hərtərəfli şəkildə irəli sürüldü. Nəzəriyyəni elm dünyasının gündəminə gətirən ən mühüm irəliləyiş Çarlz Darvinin 1859-cu ildə nəşr edilən "Növlərin mənşəyi" adlı kitabı idi. Darvin bu kitabda dünyadakı müxtəlif canlı növlərini Allah'ın ayrı-ayrı yaratdığına qarşı çıxırdı. Darvinin fikrincə, bütün növlər ortaq əcdaddan törəmiş və zaman ərzində kiçik dəyişikliklərlə müxtəlifləşmişdilər.

Darvinin nəzəriyyəsi heç bir konkret elmi tapıntıya əsaslanmırdı; özünün də qəbul etdiyi kimi, sadəcə bir məntiq yeritmə idi. Hətta Darvin kitabındakı "Nəzəriyyənin qarşısında duran çətinliklər" başlıqlı uzun bölmədə etiraf etdiyi kimi, nəzəriyyə bir çox mühüm suala cavab verə bilmirdi.

Darvin nəzəriyyəsinin qarşısındakı çətinliklərə inkişaf edən elmin üstün gələcəyinə, yeni elmi kəşflərin nəzəriyyəsini gücləndirəcəyinə ümid edirdi. Bunu kitabında tez-tez bildirirdi. Ancaq inkişaf edən elm Darvinin ümidlərinin tam əksinə, nəzəriyyənin əsas iddialarını bir-bir əsassız qoydu.

Darvinizmin elm qarşısındakı məğlubiyyətini üç əsas başlıq altında təhlil etmək olar:

Nəzəriyyə həyatın yer üzündə ilk dəfə necə ortaya çıxdığını əsla açıqlaya bilmir.

Nəzəriyyənin irəli sürdüyü təkamül mexanizmlərinin, əslində, təkamül xarakterinə malik olduğunu göstərən heç bir elmi tapıntı yoxdur.

Fosillər təkamül nəzəriyyəsinin iddialarının tam əksini göstərir. Bu bölmədə bu üç əsas başlığı əsaslı təhlil edəcəyik.

## Keçilməz ilk pillə: həyatın mənşəyi

Təkamül nəzəriyyəsi bütün canlı növlərinin bundan təxminən 3.8 milyard il əvvəl dünyada fantastik şəkildə təsadüfən meydana gələn bircə canlı hüceyrədən törədiklərini iddia edir. Bircə hüceyrənin milyonlarla kompleks canlı növünü necə əmələ gətirməsi və əgər həqiqətən bu cür təkamül baş vermişsə, nə üçün izlərinin fosillərdə tapılmadığı nəzəriyyənin açıqlaya bilmədiyi suallardandır. Ancaq bütün bunlardan əvvəl iddia edilən təkamül prosesinin ilk pilləsi üzərində dayanmaq lazımdır. Həmin ilk hüceyrə necə ortaya çıxmışdır?

Təkamül nəzəriyyəsi cahilliklə yaradılışı inkar etdiyinə görə, həmin ilk hüceyrənin heç bir plan və nizam olmadan təbiət qanunları çərçivəsində təsadüfən meydana gəldiyini iddia edir. Yəni bu nəzəriyyəyə əsasən, cansız maddə kortəbii təsadüflər nəticəsində ortaya canlı hüceyrə çıxarmalıdır. Ancaq bu, məlum olan ən təməl biologiya qanunlarına zidd iddiadır.

## Həyat həyatdan gəlir

Darvin kitabında həyatın mənşəyindən heç bəhs etməmişdi. Çünki onun dövründəki ibtidai elm anlayışı canlıların çox sadə quruluşa malik olduqlarını fərz edirdi. Orta əsrlərdən bəri "spontane generation" adlı nəzəriyyəyə əsasən, cansız maddələrin təsadüfən birləşərək canlı varlıq əmələ gətirməsinə inanırdılar. Bu dövrdə həşəratların yemək artıqlarından, siçanların da buğdadan əmələ gəlməsi geniş yayılmış düşüncə idi. Bunu sübut etmək üçün qəribə təcrübələr aparılmışdı. Çirkli əsginin üstünə bir az buğda qoyulmuş və bir müddət sonra bu qarışıqdan siçanların əmələ gəlməsini gözləmişdilər.

Ətin qurdlanması da həyatın cansız maddələrdən törədiyinə dəlil

hesab edilirdi. Lakin daha sonra məlum olacaqdı ki, ətin üstündəki qurdlar öz-özlərindən əmələ gəlmirlər, milçəklərin gətirib qoyduğu gözlə görülməyən sürfələrdən çıxırdılar. Darvin "Növlərin mənşəyi" adlı kitabını yazdığı dövrdə isə bakteriyaların cansız maddədən əmələ gəlməsi inancı elm dünyasında geniş şəkildə qəbul edilirdi.

Lakin Darvinin kitabının nəşr edilməsindən beş il sonra məşhur fransız bioloq Lui Paster təkamülə əsas verən bu inancı qəti şəkildə təkzib etdi. Paster apardığı uzun elmi fəaliyyət və təcrübələrdə gəldiyi nəticəni belə şərh etmişdi:

> "Cansız maddələrin həyatı əmələ gətirməsi iddiası artıq qəti şəkildə tarixə gömülmüşdür". *(Sidney Fox, Klaus Dose, Molecular Evolution and The Origin of Life, New York: Marcel Dekker, 1977, səh. 2)*

Təkamül nəzəriyyəsinin tərəfdarları Pasterin kəşflərinə uzun müddət qarşı çıxdılar. Ancaq inkişaf edən elm canlı hüceyrəsinin mürəkkəb quruluşunu üzə çıxardıqca həyatın öz-özünə əmələ gəlməsi iddiasının əsassızlığı daha da açıq şəkil aldı.

### XX əsrdəki nəticəsiz səylər

XX əsrdə həyatın mənşəyi mövzusunu tədqiq edən ilk təkamülçü məşhur rus bioloq Aleksandr Oparin oldu. Oparin 1930-cu illərdə irəli sürdüyü bəzi tezislərlə canlı hüceyrəsinin təsadüfən meydana gələ biləcəyini sübut etməyə çalışdı. Ancaq bu fəaliyyətlər uğursuzluqla nəticələnəcək və Oparin bu etirafı etməli olacaqdı:

> "Təəssüf ki, hüceyrənin mənşəyi təkamül nəzəriyyəsinin tamamilə əhatə edən ən qaranlıq nöqtədən ibarətdir". *(Alexander I. Oparin, Origin of Life, (1936) New York, Dover Publications, 1953 (Reprint), səh. 196)*

Oparinin yolunu davam etdirən təkamülçülər həyatın mənşəyi problemini həll etmək üçün təcrübələr aparmağa çalışdılar. Bu təc-

rübələrin ən məşhuru amerikalı kimyaçı Stenli Miller tərəfindən 1953-cü ildə aparıldı. Miller ibtidai atmosferdə mövcud olduğunu iddia etdiyi qazları bir təcrübədə birləşdirdi və bu qarışığa enerji verərək zülalları təşkil edən bir neçə üzvi molekul (amin turşusu) sintezlədi.

O illərdə təkamüllə bağlı mühüm mərhələ kimi tanıdılan bu təcrübənin əsassız olduğu və təcrübədə tətbiq edilən atmosferin yer şərtlərindən çox fərqli olduğu sonrakı illərdə üzə çıxacaqdı. *(“New Evidence on Evolution of Early Atmosphere and Life”, Bulletin of the American Meteorological Society, c. 63, Kasım 1982,* səh. 1328-1330)

Uzun sükutdan sonra Millerin özü də tətbiq etdiyi atmosfer mühitinin həqiqi olmadığını etiraf etdi. *(Stanley Miller, Molecular Evolution of Life: Current Status of the Prebiotic Synthesis of Small Molecules, 1986, səh. 7)*

Həyatın mənşəyi problemini açıqlamaq üçün XX əsr boyu göstərilən bütün təkamülçü səylər uğursuzluqla nəticələndi. San Diyeqo Skrips İnstitutundan məşhur geokimyaçı Cefri Bada təkamülçü “Earth” jurnalında 1998-ci ildə dərc edilən bir məqalədə bu həqiqəti belə qəbul edir:

> “Bu gün XX əsri arxada qoyarkən hələ də XX əsrin başlanğıcındakı ən böyük həll edilməmiş problemlə qarşı-qarşıyayıq: həyat yer üzündə necə başlayıb”. *(Jeffrey Bada, Earth, Şubat 1998, səh. 40)*

## Həyatın kompleks quruluşu

Təkamülçülərin həyatın mənşəyi ilə bağlı bu qədər çıxılmaz vəziyyətə düşməsinin başlıca səbəbi ən sadə hesab etdikləri canlıların bu qədər mürəkkəb quruluşa malik olmasıdır. Canlı hüceyrəsi insanın hazırladığı bütün texnoloji məhsullardan daha mürəkkəbdir. Belə ki,

bu gün dünyanın ən qabaqcıl laboratoriyalarında belə cansız maddələr birləşdirilərək nəinki canlı hüceyrə, hətta hüceyrəyə aid bircə zülal da hasil etmək mümkün deyil.

Bir hüceyrənin meydana gəlməsi üçün lazımlı şərtlər əsla təsadüflərlə açıqlanmayacaq qədər çoxdur. Lakin bunu açıqlamağa heç ehtiyac yoxdur. Təkamülçülər hələ hüceyrə səviyyəsinə çatmadan çıxılmaz vəziyyətə düşürlər. Çünki hüceyrənin əsasını təşkil edən zülalların təsadüfən sintezlənmə ehtimalı riyazi cəhətdən sıfırdır.

Bunun ən əsas səbəbi budur ki, bir zülalın əmələ gəlməsi üçün başqa zülallar da olmalıdır. Bu səbəb bir zülalın təsadüfən əmələgəlmə ehtimalını tamamilə aradan qaldırır. Ona görə, təkcə bu fakt təkamülçülərin təsadüf iddiasını təkzib etmək üçün kifayətdir. Mövzunun əhəmiyyətini qısaca açıqlayaq:

- **Fermentlər olmasa, zülal sintezlənə bilməz, fermentlər də zülaldır.**
- **Bircə zülalın sintezlənməsi üçün 100-ə yaxın hazır zülal olmalıdır. Ona görə, zülalların olması üçün zülallar lazımdır.**
- **Zülalları sintezləyən fermentləri DNT hazırlayır. DNT olmasa, zülal sintezlənə bilməz. Ona görə, zülalların əmələ gəlməsi üçün DNT də lazımdır.**
- **Zülal sintezləmə prosesində hüceyrədəki bütün orqanoidlərin mühüm funksiyaları var. Yəni zülalların əmələ gəlməsi üçün tam funksional hüceyrə bütün orqanoidləri ilə birlikdə mövcud olmalıdır.**

Hüceyrənin nüvəsində yerləşən, genetik məlumat daşıyan DNT molekulu isə informasiya bankıdır. İnsan DNT-sindəki informasiyanı kağıza köçürmək istəsək, hər biri 500 səhifədən ibarət 900 cildlik kitabxana ortaya çıxar.

Burada çox maraqlı dilemma da var: DNT ancaq bir sıra xüsusi zülalların (fermentlərin) köməyi ilə qoşalaşa bilər. Amma bu fermentlər

də ancaq DNT-dəki informasiya əsasında sintezlənir. Bir-birlərindən asılı olduqlarına görə, DNT-nin qoşalaşması üçün ikisi də eyni anda mövcud olmalıdır. Bu isə həyatın öz-özünə meydana gəlməsi ssenarisini çıxılmaz vəziyyətə salır. San Diyeqo Kaliforniya Universitetindən məşhur təkamülçü prof. Lesli Orcel "Scientific American" jurnalının 1994-cü il oktyabr sayında bu həqiqəti belə etiraf edir:

> "Olduqca kompleks quruluşa malik olan zülalların və nuklein turşularının (RNT və DNT) eyni yerdə və eyni zamanda təsadüfən əmələ gəlmələri həddindən artıq ehtimaldan kənardır. Ancaq bunların biri olmadan digərini əldə etmək də mümkün deyil. Ona görə, insan məcburən həyatın kimyəvi yollarla meydana gəlməsinin tamamilə qeyri-mümkün olduğu nəticəsinə gəlir". *(Leslie E. Orgel, The Origin of Life on Earth, Scientific American, c. 271, Ekim 1994, səh. 78)*

Şübhəsiz ki, əgər həyatın kortəbii təsadüflərlə öz-özünə meydana gəlməsi mümkün deyilsə, onda həyatın yaradıldığı qəbul edilməlidir. Bu həqiqət əsas məqsədi yaradılışı inkar etmək olan təkamül nəzəriyyəsini açıq-aydın əsassız edir.

## Təkamülün xəyali mexanizmləri

Darvinin nəzəriyyəsini əsassız edən ikinci əsas cəhət nəzəriyyənin təkamül mexanizmləri kimi irəli sürdüyü iki anlayışın da, əslində, heç bir təkamül gücünə malik olmamasıdır.

Darvin irəli sürdüyü təkamül iddiasını tamamilə təbii seleksiya mexanizmi ilə əlaqələndirmişdi. Bu mexanizmə verdiyi əhəmiyyət kitabının adından da açıq şəkildə başa düşülür: "Növlərin mənşəyi, təbii seleksiya yolu ilə..."

Təbii seleksiya təbii seçmə deməkdir, təbiətdəki həyat uğrunda mübarizədə təbii şərtlərə uyğun və güclü canlıların həyatda qalacağı düşüncəsinə əsaslanır. Məsələn, yırtıcı heyvanlar tərəfindən təhlü-

kəyə məruz qalan bir maral sürüsündə daha sürətlə qaçan marallar həyatda qalacaq. Beləliklə, maral sürüsü sürətlə qaçan və güclü fərdlərdən ibarət olacaq. Amma bu mexanizm maralların təkamül keçirməsinə səbəb olmaz, onları başqa bir canlı növünə, məsələn, atlara çevirməz.

Ona görə, təbii seçmə mexanizmi heç bir təkamül gücünə malik deyil. Darvin də bu həqiqəti anlamışdı və "Növlərin mənşəyi" adlı kitabında: **"Faydalı dəyişikliklər baş vermədikcə təbii seçmə heç bir şey edə bilməz"**, - demək məcburiyyətində qalmışdı. *(Charles Darwin, The Origin of Species: A Facsimile of the First Edition, Harvard University Press, 1964, səh. 184)*

### Lamarkın təsiri

Bəs bu faydalı dəyişikliklər necə baş verə bilərdi? Darvin öz dövrünün ibtidai elm anlayışı çərçivəsində bu suala Lamarka əsaslanaraq cavab verməyə çalışmışdı. Darvindən əvvəl yaşamış fransız bioloq Lamarka görə, canlılar həyatları boyu keçirdikləri fiziki dəyişiklikləri sonrakı nəslə ötürürlər, nəsildən-nəslə toplanan bu xüsusiyyətlər nəticəsində yeni növlər meydana gəlir. Məsələn, Lamarkın fikrincə, zürafələr ceyranlardan törəyiblər, hündür ağacların yarpaqlarını yeməyə çalışarkən nəsildən-nəslə boyunları uzanmışdır.

Darvin də buna bənzər misallar çəkmiş, məsələn, "Növlərin mənşəyi" kitabında qida tapmaq üçün suya girən bəzi ayıların tədricən balinalara çevrildiyini iddia etmişdi. *(B. G. Ranganathan, Origins?, Pennsylvania: The Banner Of Truth Trust, 1988.)*

Lakin Mendelin kəşf etdiyi və XX əsrdə inkişaf edən genetika elmi ilə qəti şəkildə sübut edilən genetika qanunları qazanılmış xüsusiyyətlərin sonrakı nəsillərə ötürülməsi əfsanəsini məhv etdi. Beləliklə, təbii seçmə "təkbaşına" və tamamilə təsirsiz mexanizm olaraq qaldı.

**Neodarvinizm və mutasiyalar**

Darvinistlər isə bu vəziyyətə bir çıxış yolu tapmaq üçün 1930-cu illərin sonlarında müasir sintetik nəzəriyyəni və ya daha geniş yayılmış adı ilə neodarvinizmi ortaya atdılar. Neodarvinizm təbii seçmənin yanına faydalı dəyişiklik səbəbi kimi mutasiyaları, yəni canlıların genlərində radiasiya kimi xarici amillər və ya transkripsiya xətaları nəticəsində əmələ gələn pozulmaları əlavə etdi. Bu gün də elmi cəhətdən əsassız olduğunu bilmələrinə baxmayaraq, darvinistlər neodarvinist modeli müdafiə edirlər. Nəzəriyyə yer üzündəki milyonlarla canlı növünün, onların qulaq, göz, ağciyər, qanad kimi saysız-hesabsız mürəkkəb orqanlarının mutasiyalara, yəni genetik pozulmalara əsaslanan bir proses nəticəsində əmələ gəldiyini iddia edir. Amma nəzəriyyəni çarəsiz qoyan bir açıq elmi həqiqət var: mutasiyalar canlıları təkmilləşdirmirlər, əksinə, hər zaman canlılara zərər verirlər.

Bunun səbəbi çox sadədir: DNT çox mürəkkəb quruluşa malikdir. Bu molekula olan hər hansı təsadüfi təsir ancaq zərər verir. Amerikalı genetik B.G. Ranqanatan bunu belə açıqlayır:

> "Mutasiyalar kiçik, təsadüfi və zərərlidirlər. Çox nadir meydana gəlirlər və ən yaxşı halda təsirsizdirlər. Bu üç xüsusiyyət mutasiyaların təkamül xarakterli təsir meydana gətirməyəcəyini sübut edir. Yüksək dərəcədə xüsusiləşmiş orqanizmdə meydana gələn təsadüfi dəyişiklik ya təsirsiz, ya da zərərli olur. Bir qol saatında meydana gələn təsadüfi dəyişiklik qol saatını təkmilləşdirməz. Ona böyük ehtimalla zərər verər və ya ən yaxşı halda təsir etməz. Bir zəlzələ bir şəhəri daha yaxşı hala salmaz, onu məhv edər". *(Charles Darwin, The Origin of Species: A Facsimile of the First Edition, Harvard University Press, 1964, səh. 179)*

Bu günə qədər heç bir faydalı, yəni genetik məlumatı təkmilləş-

dirən mutasiya müşahidə edilməyib. Bütün mutasiyaların zərərli olması aşkar edilib. Aydın olmuşdur ki, təkamül nəzəriyyəsinin təkamül mexanizmi kimi göstərdiyi mutasiyalar, əslində, canlıları sadəcə məhv edən, şikəst edən genetik hadisələrdir (insanlarda mutasiyanın ən çox rast gəlinən təsiri xərçəngdir). Əlbəttə, məhvedici mexanizm təkamül mexanizmi ola bilməz. Təbii seçmə isə Darvinin də qəbul etdiyi kimi, tək başına heç bir şey edə bilməz. Bu həqiqət bizə təbiətdə heç bir təkamül mexanizminin olmadığını göstərir. Təkamül mexanizmi olmadığına görə, təkamül deyilən xəyali proses də baş verməyib.

### Fosillər: ara-keçid formalardan əsər-əlamət yoxdur

Təkamül nəzəriyyəsinin iddia etdiyi prosesin baş vermədiyinin ən açıq göstəricisi isə fosillərdir.

Təkamül nəzəriyyəsinə görə, bütün canlılar bir-birlərindən törəyiblər. Əvvəlcədən mövcud olan bir canlı növü zaman ərzində digərinə çevrilmiş və bütün növlər bu şəkildə əmələ gəlmişlər. Nəzəriyyəyə əsasən, bu çevrilmə yüz milyon illər davam edən uzun dövrü əhatə etmiş və mərhələ-mərhələ irəliləmişdir. Bu təqdirdə iddia edilən uzun çevrilmə prosesi zamanı saysız-hesabsız ara növlər əmələ gəlməli və yaşamalıdırlar.

Məsələn, keçmişdə balıq xüsusiyyətlərini daşımalarına baxmayaraq, bir tərəfdən də bəzi sürünən canlı xüsusiyyətlərini qazanmış yarı-balıq, yarı-sürünən canlılar yaşamalıdır və ya sürünən xüsusiyyətlərini daşıyan, bir tərəfdən də bəzi quş xüsusiyyətləri qazanmış sürünən quşlar ortaya çıxmalıdır. Bunlar bir keçid prosesində olduqları üçün şikəst, yarımçıq, qüsurlu canlılar olmalıdır. Təkamülçülər keçmişdə yaşadığına inandıqları bu nəzəri məxluqları "ara-keçid forması" adlandırırlar.

Əgər, həqiqətən, bu cür canlılar keçmişdə yaşayıbsa, onların sayı və növü milyonlarla, hətta milyardlarla olmalıdır və bu əcaib canlı-

ların qalıqlarına mütləq fosil izlərində rast gəlinməlidir. Darvin "Növlərin mənşəyi"ndə bunu belə açıqlamışdır:

"Əgər nəzəriyyəm doğrudursa, növləri bir-birilə əlaqələndirən saysız-hesabsız ara-keçid növləri keçmişdə mütləq yaşamalıdır... Onların yaşadığının dəlilləri də sadəcə fosil qalıqları arasında tapıla bilər". *(Charles Darwin, The Origin of Species, səh. 172, 280)*

Ancaq bu sətirləri yazan Darvin ara-keçid formaların heç cür tapılmadığını bilir və bunun nəzəriyyəsi üçün böyük problem olduğunu görürdü. Ona görə, "Növlərin mənşəyi" kitabının "Nəzəriyyənin qarşısında duran çətinliklər" (Difficulties on Theory) adlı bölməsində belə yazmışdı:

"Əgər, həqiqətən, növlər digər növlərdən yavaş dəyişikliklərlə törəyibsə, nə üçün saysız-hesabsız ara-keçid formasına rast gəlmirik? Nə üçün bütün təbiət qarmaqarışıq vəziyyətdə deyil, məhz yerli-yerindədir? Saysız-hesabsız ara-keçid forması olmalıdır, bəs nə üçün yer üzünün çoxsaylı təbəqələrində onları tapmırıq?... Nə üçün hər geoloji forma və hər təbəqə belə qalıqlarla dolu deyil?" *(Charles Darwin, The Origin of Species, səh. 172, 280)*

## Darvinin puç olan ümidləri

Ancaq XIX əsrin ortasından indiyə qədər dünyanın hər tərəfində qızğın fosil araşdırmaları aparılmasına baxmayaraq, ara-keçid formalarına rast gəlinməmişdir. Aparılan qazıntı işlərində və tədqiqatlarda əldə edilən bütün tapıntılar təkamülçülərin gözlədiklərinin əksinə, canlıların yer üzündə birdən-birə, tam və qüsursuz formada ortaya çıxdıqlarını göstərmişdir.

Məşhur ingilis paleontoloq Derek V. Eycer təkamülçü olmasına baxmayaraq, bu həqiqəti belə etiraf edir:

“Problemimiz budur: fosilləri hərtərəfli tədqiq etdikdə növlər və ya siniflər səviyyəsində belə daima eyni həqiqətlə qarşılaşırıq; mərhələli təkamüllə təkmilləşən deyil, birdən-birə yer üzündə əmələ gələn qruplar görürük”. *(Derek A. Ager, “The Nature of the Fossil Record”, Proceedings of the British Geological Association, c. 87, 1976, səh. 133)*

Yəni fosil qeydlərində bütün canlı növləri aralarında heç bir keçid forması olmadan, tam formada ani surətdə ortaya çıxırlar. Bu, Darvinin fikirlərinin tam əksidir. Habelə, bu, canlı növlərinin yaradıldıqlarını göstərən çox güclü dəlildir. Çünki bir canlı növünün heç bir əcdadı olmadan, bir anda və qüsursuz şəkildə ortaya çıxmasının tək açıqlaması var: o növ yaradılmışdır. Bu həqiqət məşhur təkamülçü bioloq Duqlas Futuyma tərəfindən də qəbul edilir:

> “Yaradılış və təkamül yaşayan canlıların mənşəyi haqqında iki yeganə açıqlamadır. Canlılar dünyada ya tamamilə mükəmməl və tam formada ortaya çıxmışlar, ya da belə olmamışdır. Əgər belə olmamışdırsa, bir dəyişiklik prosesi nəticəsində özlərindən əvvəl mövcud olan bəzi canlı növlərindən təkamül keçirərək meydana gəlməlidirlər. Amma əgər tam və mükəmməl formada ortaya çıxıblarsa, onda sonsuz güc sahibi olan bir ağıl tərəfindən yaradılmışlar”. *(Douglas J. Futuyma, Science on Trial, New York: Pantheon Books, 1983. Səh. 197)*

Fosillər isə canlıların yer üzündə tam və mükəmməl formada ortaya çıxdıqlarını göstərir. Yəni “növlərin mənşəyi” Darvinin hesab etdiyinin əksinə, təkamül deyil, yaradılışdır.

### İnsanın təkamülü nağılı

Təkamül nəzəriyyəsinin tərəfdarlarının ən çox gündəmə gətirdikləri məsələ insanın mənşəyidir. Bununla bağlı darvinist iddia bu gün yaşayan müasir insanın meymunabənzər məxluqlardan törədi-

yini zənn edir. 4-5 milyon il əvvəl başladığı fərz edilən bu prosesdə müasir insan ilə əcdadları arasında bəzi ara-keçid formaların yaşadığı iddia edilir. Əslində, tamamilə fantastik olan bu ssenaridə dörd əsas kateqoriya var:

*Australopithecus*

*Homo habilis*

*Homo erectus*

*Homo sapiens*

Təkamülçülər insanların ilk "meymunabənzər əcdadları"na "cənub meymunu" mənasını verən "Australopithecus" adını veriblər. Bu canlılar, əslində, nəsli kəsilmiş meymun növüdür. Lord Solli Zukerman və prof. Çarlz Oksnard kimi İngiltərə və ABŞ-dan iki məşhur anatomun *australopithecus* nümunələri üzərində apardığı hərtərəfli araşdırmalar bu canlıların sadəcə nəsli kəsilmiş meymun növünə aid olduqlarını və insanlarla heç bir bənzərlik təşkil etmədiklərini göstərmişdir. *(Charles E. Oxnard, "The Place of Australopithecines in Human Evolution: Grounds for Doubt", Nature, c. 258, səh. 389)*

Təkamülçülər insanın təkamülünün sonrakı mərhələsini də "homo", yəni insan kimi təsnif edirlər. İddiaya əsasən, homo sırasındakı canlılar *australopithecus*lardan daha çox inkişaf ediblər. Təkamülçülər bu fərqli canlılara aid fosilləri ardıcıl düzərək fantastik təkamül sxemi qururlar. Bu sxem xəyalidir, çünki bu fərqli siniflərin arasında təkamül xarakterli əlaqə olması əsla sübut edilə bilməmişdir. Təkamül nəzəriyyəsinin XX əsrdəki ən mühüm tərəfdarlarından biri olan Ernst Mayr: "*Homo sapiens*ə uzanan zəncir halqası, əslində, itib", - deyərək bunu qəbul edir. *(J. Rennie, "Darwin's Current Bulldog: Ernst Mayr", Scientific American, Aralık 1992)*

Təkamülçülər "*ausrtalopithecus* > *homo habilis* > *homo erectus* > *homo sapiens*" ardıcıllığını qurarkən bu növlərin hər birinin daha sonrakının əcdadı olmasını irəli sürürlər. Lakin paleoantropoloqların

son kəşfləri *australopithecus*, *homo habilis* və *homo erectus*un dünyanın müxtəlif bölgələrində eyni dövrlərdə yaşadıqlarını göstərir. *(Alan Walker, Science, c. 207, 1980, s. 1103; A. J. Kelso, Physical Antropology, 1. baskı, New York: J. B. Lipincott Co., 1970, s. 221; M. D. Leakey, Olduvai Gorge, c. 3, Cambridge: Cambridge University Press, 1971, səh. 272)*

Habelə, *homo erectus* sinfinə aid olan insanların bir qismi çox müasir dövrlərə qədər yaşayıblar, *homo sapiens neandertalensis* və *homo sapiens sapiens* (insan) ilə eyni mühitdə birlikdə mövcud olmuşlar. *(Time, noyabr 1996)*

Bu isə, əlbəttə, bu siniflərin bir-birilərinin əcdadı olduqları iddiasının əsassızlığını açıq şəkildə ortaya qoyur. Harvard Universitetinin paleontoloqlarından Stiven Cey Quld, təkamülçü olmasına baxmayaraq, darvinist nəzəriyyənin düşdüyü bu çıxılmaz vəziyyəti belə açıqlayır:

> "Əgər bir-biri ilə paralel şəkildə yaşayan üç müxtəlif hominid (insanabənzər) sxemi varsa, onda bizim soy ağacımıza nə oldu? Aydındır ki, bunların biri digərindən törəyə bilməz. Habelə, biri digəri ilə müqayisə edildikdə təkamül xarakterli inkişaf meyli göstərmirlər". *(S. J. Gould, Natural History, c. 85, 1976, səh. 30)*

Qısaca desək, KİV-də və ya dərsliklərdə verilən bir cür fantastik yarı-meymun yarı-insan canlıların rəsmləri ilə, yəni sırf təbliğat yolu ilə dirçəldilməyə çalışılan insanın təkamülü ssenarisi heç bir elmi əsası olmayan nağıldan ibarətdir. Bu mövzunu uzun illər tədqiq edən, xüsusilə *australopithecus* fosilləri üzərində 15 il araşdırma aparan İngiltərənin ən məşhur və hörmətli elm adamlarından biri olan Lord Solli Zukerman təkamülçü olmasına baxmayaraq, meymunabənzər canlılardan insana uzanan nəsil ağacı olmadığı nəticəsinə gəlmişdir.

Zukerman maraqlı elm şkalası da qurmuşdur. Elmi hesab etdiyi

elm sahələrindən elmdən kənar qəbul etdiyi elm sahələrinə qədər şaxəli cədvəl çəkmişdir. Zukermanın bu cədvəlində ən elmi, yəni konkret faktlara əsaslanan elm sahələri kimya və fizikadır. Cədvəldə bunlardan sonra bioloji elmlər, daha sonra sosial fənlər gəlir. Şaxələnmənin ən kənar ucunda, yəni elmdən kənar hesab edilən hissədə isə Zukermanın fikrincə telepatiya, altıncı hiss kimi hissin fövqündə olan qavrama anlayışları və bir də insanın "təkamülü" yerləşir! Zukerman şaxələnmənin bu ucunu belə açıqlayır:

> "Obyektiv reallıq sahəsindən çıxıb bioloji elm fərz edilən bu sahələrə, yəni hissin fövqündə olan qavramaya və insanın fosil tarixinin şərh edilməsinə daxil olduqda, təkamül nəzəriyyəsinə inanan bir şəxs üçün hər şeyin mümkün olduğunu görürük. Belə ki, nəzəriyyələrinə qəti şəkildə inanan bu şəxslərin ziddiyyətli bəzi rəyləri eyni anda qəbul etmələri belə mümkündür". *(Solly Zuckerman, Beyond The Ivory Tower, New York: Toplinger Publications, 1970, səh. 19)*

İnsanın təkamülü nağılı da nəzəriyyələrinə kor-koranə inanan bir sıra insanların tapdıqları bəzi fosillər haqqında qabaqcadan rəy verərək şərh etmələrindən ibarətdir.

## Darvin formulu!

İndiyə qədər təhlil etdiyimiz bütün dəlillərlə yanaşı, istəyirsinizsə, təkamülçülərin necə cəfəng inanca malik olduqlarına bir də uşaqların belə anlayacağı qədər açıq misalla baxaq.

Təkamül nəzəriyyəsi canlıların təsadüfən əmələ gəldiyini iddia edir. Ona görə, bu iddiaya əsasən, cansız və şüursuz atomlar birləşərək əvvəlcə hüceyrəni əmələ gətirmiş və sonra eyni atomlar birləşərək digər canlıları və insanı meydana gətirmişlər. İndi düşünək, canlıların əsasını təşkil edən karbon, fosfor, azot, kalium kimi elementləri birləşdirdikdə bir yığın əmələ gəlir. Bu atom yığını hansı

prosesdən keçirilsə də, bircə canlı belə əmələ gətirməz. İstəyirsinizsə, bununla bağlı bir təcrübə keçirək və təkamülçülərin, əslində, müdafiə etdikləri, amma ucadan söyləyə bilmədikləri iddianı onların adından "Darvin formulu" adı ilə nəzərdən keçirək:

Təkamülçülər çoxlu sayda böyük çənin içinə canlıların əsasını təşkil edən fosfor, azot, karbon, oksigen, dəmir, maqnezium kimi elementlərdən bol miqdarda qoysunlar. Hətta normal şərtlərdə mövcud olmayan, ancaq bu qarışığın içində lazımlı bildikləri maddələri də bu çənlərə əlavə etsinlər. Qarışıqların içinə istədikləri qədər amin turşusu, istədikləri qədər də zülal doldursunlar. Bu qarışıqlara istədikləri nisbətdə temperatur və rütubət versinlər. Bunları istədikləri ən yaxşı texnoloji cihazlarla qarışdırsınlar. Çənlərin başında nəzarətçi kimi dünyanın qabaqcıl elm adamlarını qoysunlar. Bu mütəxəssislər atadan oğula, nəsildən-nəslə ötürülərək növbə ilə milyardlarla, hətta trilyonlarla il fasiləsiz çənlərin başında gözləsinlər. Bir canlının əmələ gəlməsi üçün hansı şərtlərin mövcud olmasını lazım bilirlərsə, hamısını tətbiq etsinlər. Ancaq nə etsələr də, o çənlərdən əsla bir canlı çıxara bilməzlər. Zürafələri, aslanları, arıları, bülbülləri, tutuquşuları, atları, delfinləri, gülləri, səhləb çiçəklərini, zanbaqları, qərənfilləri, bananları, portağalları, almaları, xurmaları, pomidorları, qovunları, qarpızları, əncirləri, zeytunları, üzümləri, şaftalıları, tovuz quşlarını, qırqovulları, rəngarəng kəpənəkləri və bunlar kimi milyonlarla canlı növündən heç birini əmələ gətirə bilməzlər. Nəinki burada sadaladığımız bir neçə canlını, bunların bircə hüceyrəsini belə əldə edə bilməzlər.

Qısaca desək, **şüursuz atomlar birləşərək hüceyrəni əmələ gətirə bilməzlər.** Sonra yeni qərar verərək bir hüceyrəni iki yerə bölüb, sonra ardıcıl başqa qərarlar verib elektron mikroskopunu icad edən, sonra öz hüceyrə quruluşunu bu mikroskop altında tədqiq edən professorları əmələ gətirə bilməzlər. **Maddə ancaq Allah'ın üstün ya-**

**ratması ilə həyat qazanır.** Bunun əksini iddia edən təkamül nəzəriyyəsi isə ağıla tamamilə zidd cəfəngiyatdır. Təkamülçülərin ortaya atdığı iddialar üzərində bir az düşünmək yuxarıdakı misalda göstərildiyi kimi, bu həqiqəti üzə çıxarar.

## Göz və qulaqdakı texnologiya

Təkamül nəzəriyyəsinin qətiyyən açıqlaya bilmədiyi digər məsələ isə göz və qulaqdakı üstün duyğu keyfiyyətidir.

Gözlə bağlı mövzuya keçməzdən əvvəl "Necə görürük?" sualına qısaca cavab verək. Bir cisimdən gələn şüalar gözdə tor qişaya tərsinə düşür. Bu şüalar buradakı hüceyrələr tərəfindən elektrik siqnallarına çevrilir və beyinin arxa hissəsindəki görmə mərkəzi adlanan kiçik nöqtəyə ötürülür. Bu elektrik siqnalları bir sıra ardıcıl proseslərdən sonra beyindəki bu mərkəzdə görüntü kimi şərh edilir. Bu məlumatdan sonra düşünək: beyin işığa qapalıdır. Yəni beyinin içi qapqaranlıqdır, işıq beyinin yerləşdiyi yerə girə bilməz. Görmə mərkəzi adlanan yer qapqaranlıq, işığın düşmədiyi, bəlkə, heç qarşılaşmadığınız qədər qaranlıq yerdir. Ancaq siz bu zülmət qaranlıqda işıqlı, aydın dünyanı izləyirsiniz.

Üstəlik, bu, o qədər aydın və keyfiyyətli görüntüdür ki, XXI əsrin texnologiyası belə hər cür imkanı olmasına baxmayaraq, bu aydın görüntünü əldə edə bilmir. Məsələn, hal-hazırda oxuduğunuz kitaba, kitabı tutan əllərinizə baxın, sonra başınızı qaldırın və ətrafınıza baxın. Hal-hazırda gördüyünüz aydın və keyfiyyətli görüntünü başqa bir yerdə görmüsünüzmü? Bu qədər aydın görüntünü sizə dünyanın qabaqcıl televizor şirkətlərinin istehsal etdiyi təkmilləşdirilmiş televizor ekranı belə verə bilməz. 100 ildən bəri minlərlə mühəndis bu aydın görüntünü əldə etmək üçün çalışır. Bunun üçün fabriklər, böyük müəssisələr qurulur, tədqiqatlar aparılır, planlar və dizaynlar edilir. Bir televizor ekranına baxın, bir də hal-hazırda əlinizdə tutduğunuz

bu kitaba. Arada böyük aydınlıq və keyfiyyət fərqi olduğunu görəcəksiniz. Həm də televizorun ekranı sizə iki ölçülü görüntü göstərir, lakin siz üç ölçülü, dərin perspektivi olan görüntü izləyirsiniz.

Uzun illərdən bəri on minlərlə mühəndis üç ölçülü televizor icad etməyə, gözün görmə keyfiyyətini əldə etməyə çalışırlar. Bəli, üç ölçülü televizor kimi sistem istehsal edə bildilər, amma onu da eynəksiz üç ölçülü görmək mümkün deyil, həm də bu, süni üçölçülü görüntüdür. Arxa tərəf daha bulanıq, ön tərəf isə kağız dekorasiya kimi görünür. Heç bir zaman gözün gördüyü qədər aydın və keyfiyyətli görüntü əmələ gəlmir. Kamerada da, televizorda da mütləq görüntü itkisi olur.

Təkamülçülər bu keyfiyyətli və aydın görüntünü əmələ gətirən mexanizmin təsadüfən əmələ gəldiyini iddia edirlər. İndi birisi sizə otağınızdakı televizorun təsadüflər nəticəsində əmələ gəldiyini, atomların birləşib bu görüntünü əmələ gətirən aləti meydana gətirdiyini desə, nə düşünərsiniz? Minlərlə insanın birlikdə edə bilmədiyini şüursuz atomlar necə etsin?

Gözün gördüyündən daha bəsit görüntünü əmələ gətirən alət təsadüfən əmələ gəlmirsə, gözün və gözün gördüyü görüntünün də təsadüfən meydana gəlməyəcəyi çox açıqdır. Eyni vəziyyət qulağa da aiddir. Xarici qulaq ətrafdakı səsləri qulaq seyvanı vasitəsilə toplayıb daxili qulağa ötürür; daxili qulaq da bu titrəyişləri elektrik impulslarına çevirərək beyinə göndərir. Eynilə görmədə olduğu kimi, eşitmə prosesi də beyindəki eşitmə mərkəzində həyata keçir.

Göz üçün dediklərimiz qulağa da aiddir, yəni beyin işıq kimi səsə də qapalıdır, səs keçirmir. Ona görə, xarici aləm nə qədər səs-küylü olsa da, beyinin içi tamamilə səssizdir. Buna baxmayaraq, ən aydın səslər beyində eşidilir. Səs keçirməyən beyninizdə orkestr simfoniyaları dinləyir, ətraf mühitin bütün səs-küyünü eşidirsiniz. Ancaq həmin anda həssas bir cihazla beyninizin içindəki səs səviyyəsi öl-

çülsə, burada səssizliyin hakim olduğu məlum olacaqdır. Aydın görüntü əldə etmək ümidi ilə texnologiyadan necə istifadə edilirsə, səs üçün də eyni səylər on illərdən bəri davam etdirilir. Səsyazma cihazları, musiqi mərkəzləri, bir çox elektron alət, səs qəbul edən musiqi sistemləri bu fəaliyyətlərin nəticələrindən bəziləridir. Ancaq bütün texnologiyaya və bu sahədə minlərlə mühəndis və mütəxəssis işləməsinə baxmayaraq, qulağın əmələ gətirdiyi qədər aydın və keyfiyyətli səs əldə edilməmişdir. Ən böyük musiqi sistemi şirkətinin istehsal etdiyi ən keyfiyyətli musiqi mərkəzini düşünün. Səsi qeyd etdikdə mütləq səsin bir hissəsi itir, az da olsa təhrif olur və ya musiqi mərkəzini işə saldıqda hələ musiqi çalmazdan əvvəl mütləq bir cızıltı eşidirsiniz. Ancaq insan orqanizmindəki texnologiyanın məhsulu olan səslər olduqca aydın və qüsursuzdur. İnsan qulağı heç vaxt musiqi mərkəzində olduğu kimi cızıltılı və ya təhrif olunmuş şəkildə səs eşitmir; səs necədirsə, tam və aydın şəkildə onu eşidir. Bu, insan yaradıldığı gündən bəri belədir. İndiyə qədər insanın istehsal etdiyi heç bir görüntü və səs cihazı göz və qulaq qədər həssas və keyfiyyətli qəbuledici olmamışdır. Ancaq görmə və eşitmə hadisəsində bütün bunların fövqündə duran çox böyük həqiqət də var.

## Beyinin içində görən və eşidən şüur kimə aiddir?

Beyinin içində parlaq, rəngli dünyanı izləyən, simfoniyaları, quşların civiltilərini dinləyən, gülü qoxulayan kimdir?

İnsanın gözlərindən, qulaqlarından, burnundan gələn siqnallar elektrik impulsu kimi beyinə ötürülür. Biologiya, fiziologiya və ya biokimya kitablarında bu görüntünün beyində necə əmələ gəlməsinə dair bir çox şey oxuyursunuz. Ancaq bu mövzu haqqında ən mühüm həqiqətə heç bir yerdə rast gələ bilməzsiniz: beyində bu elektrik impulslarını görüntü, səs, qoxu və hiss kimi qavrayan kimdir? Beyinin içində gözə, qulağa, buruna ehtiyac hiss etmədən bütün bunları qavrayan bir şüur var. Bu şüur kimə aiddir?

Əlbəttə, bu şüur beyini təşkil edən sinirlər, yağ təbəqəsi və sinir hüceyrələrinə aid deyil. Elə buna görə, hər şeyin maddədən ibarət olduğunu zənn edən darvinist-materialistlər bu suallara heç cür cavab verə bilmirlər. Çünki bu şüur Allah'ın yaratdığı ruhdur. Ruhun görüntünü izləmək üçün gözə, səsi eşitmək üçün qulağa ehtiyacı yoxdur. Eyni zamanda, düşünmək üçün beyinə də ehtiyacı yoxdur.

Bu açıq və elmi həqiqəti oxuyan hər insan beyinin içindəki bir neçə $sm^3$-lik, qapqaranlıq yerə bütün kainatı üçölçülü, rəngli, kölgəli və işıqlı şəkildə sığışdıran uca Allah'ı düşünüb, Ondan qorxub Ona sığınmalıdır.

## Materialist inanc

Bura qədər təhlil etdiklərimiz təkamül nəzəriyyəsinin elmi kəşflərə zidd iddia olduğunu göstərir. Nəzəriyyənin həyatın mənşəyi haqqındakı iddiası elmə ziddir, irəli sürdüyü təkamül mexanizmlərinin heç bir təkamül gücü yoxdur və fosillər nəzəriyyənin iddia etdiyi ara keçid formalarının yaşamadığını göstərir. Bu təqdirdə, əlbəttə, təkamül nəzəriyyəsi elmə zidd fərziyyə kimi bir kənara qoyulmalıdır. Belə ki, tarix boyu dünya mərkəzli kainat modeli kimi bir çox düşüncə tərzi elmin gündəmindən çıxarılmışdır. Ancaq təkamül nəzəriyyəsi təkidlə elmin gündəliyində saxlanılır. Hətta bəzi insanlar nəzəriyyənin tənqid edilməsini elmə təcavüz kimi göstərməyə çalışırlar. Axı niyə? Bunun səbəbi təkamül nəzəriyyəsinin bəzi kütlələr üçün əl çəkilməz doqmatik inanc olmasıdır. Bu kütlələr materialist fəlsəfəyə kor-koranə bağlıdırlar və darvinizmi də təbiət haqqında yeganə materialist açıqlama olduğu üçün mənimsəyiblər. Bəzən bunu açıq şəkildə etiraf edirlər. Harvard Universitetindən məşhur genetik və eyni zamanda, qabaqcıl təkamülçülərdən olan Riçard Levontin əvvəlcə materialist, sonra elm adamı olduğunu belə etiraf edir:

"Bizim materializmə bir inancımız var, bu "a priori" (əvvəlcədən qəbul edilmiş, doğru fərz edilmiş) inancdır. Bizi dünya haqqında materialist açıqlama verməyə məcbur edən şey elmi metodlar və qanunlar deyil. Əksinə, materializmə olan "a priori" bağlılığımız səbəbi ilə dünya haqqında materialist açıqlama verən tədqiqat metodları və anlayışlarını uydururuq. Materializm mütləq doğru olduğuna görə də İlahi açıqlamanın səhnəyə çıxmasına icazə verə bilmərik". *(Richard Lewontin, "The Demon-Haunted World", The New York Review of Books, 9 Ocak, 1997, səh. 28)*

Bu sözlər darvinizmin materialist fəlsəfəyə bağlılıq uğrunda davam etdirilən bir doqma olduğunun açıq ifadəsidir. Bu doqma maddədən başqa heç bir varlıq olmadığını qəbul edir. Bu səbəbdən də cansız, şüursuz maddənin həyatı əmələ gətirdiyinə inanır. Milyonlarla müxtəlif canlı növünün, məsələn, quşların, balıqların, zürafələrin, pələnglərin, həşəratların, ağacların, çiçəklərin, balinaların və insanların maddənin öz daxilindəki reaksiyalarla, yəni yağan yağışla, çaxan şimşəklə, cansız maddədən əmələ gəldiyini qəbul edir. Əslində isə bu, həm ağıla, həm də elmə ziddir. Amma darvinistlər Allah'ın açıq-aşkar varlığını qəbul etməmək üçün bu ağıldan və elmdən kənar fikri cahilliklə müdafiə etməkdə davam edirlər.

Canlıların mənşəyinə materialist düşüncə ilə baxmayan insanlar isə bu açıq həqiqəti görəcəklər: bütün canlılar üstün güc, bilik və ağıla malik olan Yaradanın əsəridir. Yaradan bütün kainatı yoxdan var edən, ən qüsursuz şəkildə nizama salan və bütün canlıları yaradan Allah'dır.

## Təkamül nəzəriyyəsi dünya tarixinin ən təsirli sehridir

Burada bunu da bildirmək lazımdır ki, heç bir ideologiyanın təsiri altında qalmadan, sadəcə ağlını və məntiqini işlədən hər insan elm və mədəniyyətdən uzaq xalqların xurafatlarını xatırladan təkamül nəzəriyyəsinə inanmağın qeyri-mümkün olduğunu asanlıqla anlayacaqdır.

Yuxarıda da bildirildiyi kimi, təkamül nəzəriyyəsinə inananlar böyük bir çənin içinə bir çox atomu, molekulu, cansız maddəni dolduran və bunların qarışığından zaman ərzində düşünən, dərk edən, kəşflər edən professorların, universitet tələbələrinin, Eynşteyn, Habl kimi elm adamlarının, Frank Sinatra, Çarlton Heston kimi aktyorların, bununla yanaşı, ceyranların, limon ağaclarının, qərənfillərin çıxacağına inanırlar. Həm də bu cəfəng iddiaya inananlar elm adamları, professorlar, mədəniyyətli, təhsilli insanlardır. Bu səbəbdən, təkamül nəzəriyyəsi haqqında dünya tarixinin ən böyük və ən təsirli sehri ifadəsini işlətmək yerinə düşər. Çünki dünya tarixində insanların bu dərəcədə ağlını başından alan, ağıl və məntiqlə düşünmələrinə imkan verməyən, gözlərinin qarşısına sanki bir pərdə çəkib çox açıq olan həqiqətləri görmələrinə mane olan başqa inanc və ya iddia yoxdur. Bu, afrikalı bəzi qəbilələrin totemlərə, Səba xalqının Günəşə tapınmasından, hz. İbrahimin qövmünün düzəltdikləri bütlərə, hz. Musanın qövmünün qızıldan düzəltdikləri buzova tapınmalarından daha qorxulu və ağlasığmaz korluqdur. Əslində, bu vəziyyət Allah'ın Quranda işarə etdiyi ağılsızlıqdır. Allah bəzi insanların anlayışlarının bağlı olacağını və həqiqətləri görməkdən məhrum olacağını bir çox ayəsində bildirir. Bu ayələrdən bəziləri belədir:

**Həqiqətən, kafirləri əzabla qorxutsan da, qorxutmasan da, onlar üçün birdir, iman gətirməzlər. Allah onların ürəyinə və qulağına möhür vurmuşdur. Gözlərində də pərdə**

**vardır. Onları böyük bir əzab gözləyir! (Bəqərə surəsi, 6-7)**

**... Onların qəlbləri vardır, lakin onunla anlamazlar. Onların gözləri vardır, lakin onunla görməzlər. Onların qulaqları vardır, lakin onunla eşitməzlər. Onlar heyvan kimidirlər, bəlkə də, daha çox zəlalətdədirlər. Qafil olanlar da məhz onlardır! (Əraf surəsi, 179)**

Allah "Hicr" surəsində də bu insanların möcüzələr görsələr də, inanmayacaq qədər sehrləndiklərini belə bildirir:

**Əgər onlara göydən bir qapı açsaq və oradan durmadan yuxarı dırmaşsalar yenə də: "Gözümüz bağlanmış, biz sehrlənmişik", - deyərlər. (Hicr surəsi, 14-15)**

Bu qədər geniş kütləyə bu sehrin təsir etməsi, insanların həqiqətlərdən bu qədər uzaq saxlanması və 150 ildən bəri bu sehrin pozulmaması isə sözlə ifadə edilməyəcək qədər heyrətli vəziyyətdir. Çünki bir və ya bir neçə insanın qeyri-mümkün ssenarilərə, cəfəng və məntiqsiz iddialara inanmalarını anlamaq olar. Ancaq dünyanın hər tərəfindəki insanların şüursuz və cansız atomların ani qərarla birləşib qeyri-adi mütəşəkkillik, nizam, ağıl və şüur nümayiş etdirərək qüsursuz sistemlə işləyən kainatı, həyat üçün uyğun hər cür xüsusiyyətə malik olan Yer planetini və saysız-hesabsız kompleks sistemdən ibarət canlıları meydana gətirdiyinə inanmasının sehrdən başqa heç bir açıqlaması yoxdur.

Allah Quranda inkarçı fəlsəfənin tərəfdarı olan bəzi şəxslərin etdikləri sehrlərlə insanlara təsir etdiklərini hz. Musa ilə firon arasında baş verən bir hadisə ilə bizə bildirir. Hz. Musa firona haqq dini təbliğ etdikdə firon hz. Musaya öz bilici sehrkarları ilə insanların toplaşdığı bir yerdə qarşılaşmasını söyləyir. Hz. Musa sehrkarlarla qarşılaşdıqda əvvəlcə onların bacarıqlarını göstərməsini əmr edir. Bu hadisənin danışıldığı ayə belədir:

**(Musa:) “Siz atın”, - dedi. Onlar (əsalarını yerə) atdıqda, adamların gözlərini bağlayıb (sehrləyib) onları qorxutdular və böyük bir sehr göstərdilər. (Əraf surəsi, 116)**

Göründüyü kimi, fironun sehrkarları hz. Musa və ona inananlardan başqa insanların hamısını sehrləyə bilmişdilər. Ancaq onların atdıqlarına qarşı hz. Musanın ortaya qoyduğu dəlil onların bu sehrini, ayədəki ifadə ilə uydurduqlarını udmuş, yəni təsirsiz etmişdir:

**Biz də Musaya: “Əsanı tulla!” - deyə vəhy etdik. Bir də (baxıb gördülər ki,) əsa onların uydurub düzəltdikləri bütün şeyləri udur. Artıq haqq zahir, onların uydurub düzəltdikləri yalanlar isə batil oldu. (Sehrbazlar) orada məğlub edildilər və xar olaraq geri döndülər. (Əraf surəsi, 117-119)**

Ayələrdə də bildirildiyi kimi, əvvəllər insanlara sehrləyərək təsir göstərən bu şəxslərin etdiklərinin saxtakarlıq olmasının başa düşülməsi ilə sözügedən şəxslər alçalmışlar. Dövrümüzdə də bir sehrin təsiri ilə elmilik adı altında olduqca cəfəng iddialara inanan və bunları müdafiə etmək üçün həyatlarını qurban verənlər əgər bu iddialardan əl çəkməsələr, həqiqətlər tam mənası ilə üzə çıxdıqda və sehr pozulduqda alçalacaqlar. Belə ki, təqribən 60 yaşına qədər təkamülü müdafiə edən və ateist filosof olan, ancaq sonradan həqiqətləri görən Malkolm Maqeric təkamül nəzəriyyəsinin yaxın gələcəkdə düşəcəyi vəziyyəti belə açıqlayır:

**“Mən özüm təkamül nəzəriyyəsinin xüsusilə tətbiq edildiyi sahələrdə gələcəyin tarix kitablarındakı ən böyük yumor hədəflərindən biri olacağına inandım.** Gələcək nəsillər bu qədər çürük və qeyri-müəyyən hipotezin inanılmaz saflıqla qəbul edilməsini heyrətlə qarşılayacaqlar”. *(Malcolm Muggeridge, The End of Christendom, Grand Rapids: Eerdmans, 1980, səh. 43)*

Bu gələcək uzaq deyil, əksinə, çox yaxın gələcəkdə insanlar "təsadüf"lərin ilah olmasının mümkünsüzlüyünü anlayacaqlar və təkamül nəzəriyyəsi dünya tarixinin ən böyük yalanı və ən güclü sehri kimi tərif ediləcəkdir. Bu güclü sehr böyük sürətlə dünyanın hər tərəfində insanlar üzərində təsirini itirməyə başlamışdır. Təkamül yalanının sirrinin öyrənən bir çox insan bu yalana necə aldandığını heyrət və təəccüblə qarşılayır.

**…Sənin bizə öyrətdiklərindən**
**başqa bizdə heç bir bilik yoxdur!**
**Həqiqətən, Sən Bilənsən,**
**Müdriksən! (Bəqərə surəsi, 32)**